MƏQALƏLƏR, XATİRƏLƏR, YOL QEYDLƏRİ

YADIMDA QALANLAR

Mən dünyaya gələndə Xan Xoyski bir qoçun boynuna qırmızı Gəncə kələğayısı bağlayıb bizim evə göndərmişdi. Xanın bu hərəkəti nənələrimizin qəzəbinə səbəb olmuşdu. "Allaha xoş getməz, adam da qıza qurban göndərər? Camaat nə deyər, deməzlər ki, azğınlıq eləyirlər, qıza qurban kəsirlər. Əgər onu ayrı fikirlə göndəribsə, onu da bilmək olmaz, ya qismət, bu qız gələcəkdə kimə qismət olacaq, sən yazan qoy qalsın, görək fələk nə yazır", – deyə xeyli deyinmişdilər. Müdrik nənələrin sözünü həyat özü də təsdiq etdi. Taleyin hökmü ilə tamamilə başqa həyat və gələcək cızılmışdı.

Xan Xoyskinin arvadı Şirinbəyim xanım bizə qonaq gələndə, mənim üçün ən əzablı günlər olurdu. Qapıdan girən kimi anamla öpüşər, sonra məni qucaqlayıb "gəlinimə qurban olum, çiçək gəlinim, göyçək gəlinim" deyib məni oxşardı. Mənsə onun ağuşundan qurtarıb anamın qucağına sığınar və bütün müddətdə özümü anamın ətəklərindən çıxarmazdım. Biz böyüklər, çox zaman hiss etmədən uşaq ürəyinə ağır yaralar vurur, onun körpə qəlbinin böyük iztirablarına səbəb oluruq. Şirinbəyim xanımın məhəbbətlə dediyi gəlinim sözü mənə ancaq əzab-əziyyət verirdi. Mən uşaq əqlilə başa düşürdüm ki, gəlin ayrılıq deməkdir, gəlinləri analarından ayırıb başqa yerə aparırlar.

Həm də onları bəzəndirir, musiqi səsləri, çal-çağır altında aparırlar ki, ağlamasınlar. Hələ başlarından şirin noğul, konfet tökürlər. Bir dəfə qonşu həyətdə toy var idi. Anam məni də özü ilə oraya aparmışdı, həyətdə çoxlu qızlar, gəlinlər var idi. Qarmon çalan qadın, dəf çalan da qadın idi. Onlar çalır, qadınlar isə ortalıqda oynayırdılar. Anam mənə dedi ki, gəlinə baxmaq istəyirsənsə, gəl gedək baxaq. Məclisin bir yanında gəlin oturmuşdu. Başında zərli cuna var idi. Üzü də haman cuna ilə örtülmüşdü. Gəlinə yaxınlaşdıq. Anam astaca cunanın bir ucunu qaldırıb, gəl Nuruş, gəlinə bax, dedi. Mən maraqla gəlini gözdən keçirməyə başladım. O çox bəzəkli idi. Əynində açıq mavi xaradan çərkəzi tuman, boynunda, qulaqlarında qızılı bəzəklər var idi. Gəlin zərif və ətirli idi. Ondan gülab iyi gəlirdi. Ancaq mən onun üzünə baxanda heyrətdən dondum. Gəlin həzin-həzin ağlayırdı. Gözlərinin yaşı inci kimi yanaqlarından yuvarlanıb yaxasına düşürdü. Birdənbirə mən çox pis oldum. – Ana, ana, o niyə ağlayır?

– *Anasından ayrılacaq da, ona görə ağlayır.*

Demək, gəlinləri analarından ayırırlar. Gəlin anadan ayrılmaq deməkdir. Yox, yox, Nastya xalanın ayrılığından aldığım yaralar hələ sağalmamışdı, indi, Şirinbəyim xanım məni anamdan da ayırmaq istəyir. Heç vaxt! Nə olur-olsun, mən heç vaxt anamdan ayrılmaram, heç vaxt, heç vaxt!.. Anam mənim bərkdən ağladığımı görüb: – Nə olub sənə, niyə ağlayırsan, nə oldu? Səni cücü dişlədi?

Hıçqıra-hıçqıra, – yox, – dedim, – cücü dişləməyib, sən denən bu gəlini anasından ayırmasınlar.

Anam məni qucaqlayıb:

– Dəli qız, – dedi, – bəs sən gəlin köçməyəcəksən, bir vaxt olacaq, böyüyüb sən də gəlin gedəcəksən...

Səhərlər atam işə gedəndə mən hələ yatmış olurdum. Odur ki, işdən qayıdan kimi atam əl-üzünü tərtəmiz yuyar, silər, sonra məni çiyninə mindirib lap yuxarı qaldırardı. Uşaq otağının tavanından mavi rəngli bir şar asılmışdı. Şarın üstündə qızılı rəngdə çiçəklər rəsm edilmişdi, şarın içində isə çıraq yanırdı. Mən yatağıma uzananda həmişə o şara tamaşa edir və bircə dəfə əlimi o qızıl zanbaqlara toxundurmaq arzusu ilə yanırdım. Atam hündürboylu idi. Məni çiyinlərinə qaldıranda az qalırdı əlim o şara çata. O mənim əlçatmaz arzum idi. Kim deyərdi ki, məni arzularıma qovuşmaq üçün çiyinlərində yüksəklərə qaldıran atam lap yaxın bir zamanda, məni altı yaşımda yetimliyin, atasızlığın acı möhnəti ilə üz-üzə qoyub gedəcək.

Babam boş saatlarında divanda əyləşər, qardaşlarımın hərəsini bir dizinin üstə oturdardı. Mən bu mənzərəni uzaqdan görəndə qızılquş kimi şığıyar, bir həmlədə qardaşlarımın hərəsini bir yana aşırar, özüm babamın qucağına dırmaşardım. Mənim bu hərəkətim babamı xeyli əyləndirər, ürəkdən gülüb anama müraciətlə:

– Cavahir, sənin bu qızın çox zirək qızdır, gör uşaqları necə aşırdı, – deyərdi. Anam da, Ələkbər dayı, zirək olsa yaxşıdır, indiki zəmanədə zirək olmasa baş çıxarmaq çətindir, – deyərdi. Zirəkliyim bəzən mənə baha başa gələrdi. Belə hərəkətimin əvəzində qardaşlarım macal tapıb

məndən hayıf çıxardılar. Kamil yeriyəndə mənə badalaq qurar, mən də üzü üstə yerə yıxılardım. Rəşid isə qolumu burmağı özünə gündəlik borc hesab edərdi. Bəzən ağrıdan ağlardım, səsimə ya nənəm, ya da anam qaçıb gələrdi. – Nə oldu bu qıza? Hansınız sancdınız onu?

Mən gözləri yaşlı halda: – Heç biri, heç biri, özüm yıxıldım, ayağım sürüşdü, – deyərdim. Bu hal qardaşlarımın qəlbini kövrəldər, bir müddət mənə dəyib-dolaşmazdılar. Sonra yenə də hər şey unudulur və əvvəlki qayda davam edərdi.

Xeyransa nənəm mənim xəyalımda çox poetik bir şəxsiyyət kimi yaşayır. Rəfibəylilər nəsli nə kənardan qız alar, nə də kənara qız verərdilər. Babam ilk dəfə qonşuluğunda yaşayan bəstəboy, sakit təbiətli, zərif bir qızla evlənmişdi. Heç kəsə yamanlıq eləməyən bu cavan gəlin nədənsə ərinin nəslinə çox da qaynayıb-qarışmamış, ev-eşiyi, bir oğlu və bir qızı ilə öz aləmində yaşamışdı. Anam deyərdi ki, bu evə gəlin gələndən sonra bu evin qapıları Rəfibəylilər nəslinin üzünə açıldı, bütün günü evə gəlib-gedənlərin arası kəsilmədi. Mən də gənclik illərində həmişə evdə inzivayə çəkilər, uşaqlara çox da qarışmazdım, kitab oxuyar, mütaliə edər, yaxud skripka çalardım.

Anamın mənə acığı tutanda həmişə – Ay Xeyransa xanım, dur bir adam üzünə çıx, – deyə məni töhmətləndirərdi. Sonralar da çox vaxt, mənə, adamayovuşmaz Xeyransa xanım, deyərdi, – torpağı sanı yaşayasan, lap rəhmətlik nənənə oxşayırsan. Mən zorla xatırlaya bildiyim nənəmi müdafiə edərək – əlbəttə, o sizin aranızda qərib olub, özgə nəslin qızı – siz isə birləşib yəqin onu təkləmisiniz – deyirdim. Anam: – Yaşından əvvəlki sözləri danışma, sən nə bilirsən, – deyə mənə acıqlanardı.

Uşaqlıqda nağılları çox da sevməzdim. Nağıllar mənim körpə ürəyimin böyük iztirabına səbəb olur, gecələr səhərəcən qorxudan yorğanın altında əsim-əsim əsirdim. Bu saysız-hesabsız cinlər, şeytanlar, qulyabanılar, ağ divlər, qara divlər, yeddibaşlı əjdahalar, küpəgirən qarılar qorxunc xəyallarilə körpə təsəvvürümü vahiməylə doldurur, mənə rahatlıq vermirdi. Yaxud təndirdə, əl-ayağı kəndirdə olan Fatma bacı, qırx arşın quyunun dibinə düşmüş Məlik Məmməd və başqa bu kimi əzab çəkən personajlar mənim də əzablarıma səbəb olurdu. Bu nağılları mənə nənəm danışardı.

Mən dayəm Nastya xala ilə bir otaqda yatırdım. Gecələr yerimin içində qurcuxa-qurcuxa yavaş səslə Nastya xalanı çağırardım: – Nastya xala, ay Nastya xala...

– Nə var, bala, niyə yatmırsan?
– Qorxuram.
– Nədən?
– Canavar gələr bizi aparar, yeyər.
– Yat, bala, canavar evə gəlməz.
– Bəs qırmızıpapaq qızın nənəsini canavar gəlib evdə yemədi?
– Yox, bala, o nağıldır.
– Bəs doğrudan elə deyil?
– Əlbəttə, həyatda elə olmaz.
– Nə üçün nağılda olar, həyatda olmaz?
– Yat, bala, yat, sənə söz çatdırmaq çətindir.

Mən bir azca susur, sonra yenə başlayırdım:
– Nastya xala.
– Nə var, ay qız.
– Qorxuram. Qoy gəlim sənin lə yatım.
– Yox, gülüm, anan icazə vermir.
– Anama demərəm.
– Yaxşı gəl.

Mən Nastya xalanın çarpayısına keçir, onu bərk-bərk qucaqlayırdım. O da mənim soyuq əl-ayağımı əlləri ilə ovuşdurur, qızdırırdı.

– Heç bilmirəm mən səndən necə ayrı olacam, ay şeytan bala.
– Nastya xala, getmə də, gərək gedəsən?
– Axı anam çox qocalıb, məni kəndimizə çağırır. Orda ona kömək eləmək lazımdır. Qardaşlarımı böyütdüm, onlar daha məktəbə gedirlər. Səni də böyütmək istəyirdim, amma mümkün olmadı. Gərək gedəm.

Nastya xala bunları mənə elə danışırdı ki, elə bil həm də öz-özü ilə danışırdı.

Bir neçə gündən sonra fayton gəldi, Nastya xalanı şeylərilə bir yerdə faytona mindirdilər, stansiyaya apardılar. Bütün ailə üzvləri hamısı qapıya çıxmışdı. Nastya xala məni qucaqlayıb ağladı. Mən də ağladım. Bu mənim həyatımda ayrılıq ağrısıyla ilk tanışlığım oldu.

Sonra çox ayrılıqlar gördüm. Amma ilk ayrılığın ağrısı uzun zaman keçmədi.

Nastya xala getdikdən sonra məni uşaq otağına, qardaşlarımla bir yerə köçürdülər. Uşaq otağında iki çarpayı var idi. Birində böyük qardaşım Kamil, o birində isə Rəşid yatırdı. Mənim çarpayımı qarşıdakı divarın yanına qoydular. Uşaq otağına üç qapı açılırdı. Baş tərəfdə atamla anamın yataq otağı, aşağı tərəfdə nənəmlə babamın yataq otağı, ortada isə yemək otağının qapıları. Anam hər gecə bizim otağa

gəlirdi, bizə baş çəkirdi, sonra, gecəniz xeyrə qalsın, – deyib gedirdi. Bundan sonra nənəm öz qapılarını açır, ayağının ucunda səssizcə bizə yanaşır, uşaqlar, deyirdi, yatmamışdan qabaq kəlmeyi-şəhadətinizi demisinizmi? Kamil: yox, nənə, indi deyəcəyik, – deyirdi. Nənəm üstümüzü örtür, "yadınızdan çıxmasın ha" deyib gedirdi.

Nənəm getdikdən sonra Rəşid yerin içində üç dəfə mayallaq aşır, sonra əllərini göyə qaldırıb bu sözləri deyirdi:

Əsəllükə dolma bükə.
Qazana qoya, boşqaba çəkə.
Ağzına qoya.

Kamil ona acıqlanıb, yerinin içində oturur, üzünü qibləyə tərəf çevirir və əllərini qaldırıb duanı yarı-yarımçıq oxuyurdu. Bir-iki kəlmə deyəndən sonra, – dalısını ürəyimdə deyirəm – deyib yavaşcadan mızıldanmağa başlayırdı. Rəşid bu zaman sevincək: hə, dalısını bilmirsən ki, bilmirsən ki, – deyə onu cinlətməyə başlayırdı. Bu zaman Kamil balışını götürüb onun üstünə atırdı, hər gecəki balış davası başlanırdı. O buna, bu ona, ta anam eşidənə qədər. Anam eşitcək gəlirdi, hər ikisinə acıqlanırdı. Onu bilirəm ki, mənasını başa düşmədiyimiz bu kəlmeyi-şəhadəti nənəmin təkidinə baxmayaraq heç birimiz axıra qədər öyrənə bilmədik. Evimiz bütün günü arı yuvası kimi qaynayırdı. Babam Ələkbər bəy böyük maarifpərvər və tərəqqipərvər bir şəxsiyyət, xalq içində tanınan, böyük nüfuza malik bir ictimai xadim idi. O avamlıq, cəhalət və nadanlıqla mübarizədə fədakar bir döyüşçü kimi şəhərin hər işinə qarışır, xeyirxah və ədalətli hərəkətləri ilə xalqa kömək edirdi. Bütün günü babamın yanına dəstə-dəstə adamlar gəlir-gedir, tələbələr, müəllimlər, ziyalılar ondan məsləhət alırdılar. Atam səhərlər xəstəxanaya gedir, axşamlar isə çox vaxt onu xəstə üstünə aparır, yaxud xəstələri yanına gətirirdilər. Atamın ilk həkimlik fəaliyyəti haqqında, o zaman "İrşad" qəzetəsi yazırdı: "Böyük millət atası Ələkbər bəy Rəfibəyovun oğlu Xudadat Rəfibəyov Rusiyada həkimlik təhsilini bitirib doğma Gəncə şəhərinə qayıtmış və həkimlik fəaliyyətinə başlamışdır. Hər gün işdən sonra beşdən doqquza qədər öz evində xəstələrə, yəni axşam saat beşdən doqquza qədər öz evində xəstələrə məccanı-pulsuz tibbi yardım göstərir. Həkim yardımına ehtiyacı olanlar müraciət edə bilərlər".

Atamın qəbul otağına gələn xəstələrin həddi-hesabı yox idi. Anam evin təsərrüfat işlərindən başqa həm də "Cəmiyyəti xeyriyyə"nin

Gəncə şöbəsinin sədri kimi fəaliyyət göstərirdi. Anam özü kimi azçox savadlı olan qadınlarla birlikdə Gəncənin müxtəlif mədəni tədbirlərində iştirak edirdi. Qardaşlarım hər ikisi məktəbə gedirdi. Elə olurdu ki, evdə heç kos qalmırdı, belə vaxtlarda nənəm Xeyransa xanım məni öz otağına aparar, bərk-bərk qucaqlayıb üzümdən-gözümdən öpərdi. Sonra xırdaca əllərimi ovcunun içinə alar, onun da barmaqları belə şam kimi idi, – deyərdi. Nənəm bu sözləri deyəndə gözlərindən isti yaş axar, mənim saçlarıma tökülərdi. Nənəmin ağlamağını görən kimi, mən də ona qoşulub ağlayırdım. Nənəm dərhal gözlərini silər, gəl sənə qoz verim deyərdi, ağlama, sən ağlama. Sonra hər ikimiz sakit olub bir işlə məşğul olardıq. Mən dünyaya gəlməmişdən çox illər qabaq, yəni atamla anam evlənməmişdən belə əvvəl, nənəmin Suğra adlı gəlin qızı ölmüşdü. Mənim adımı onun şərəfinə Suğra qoymuşdular. Ancaq evdə heç kəs ürək eləyib bu adı çağıra bilmirdi. Dörd-beş yaşına qədər məni kimi Topuş, kimi Lapuş, kimi də Matan deyə çağırardı.

Bu zamanlar Türkiyə şairəsi Nigar xanımın "Əfsus" adlı şeir kitabı anamın əlinə keçmişdi. Anam Nigarın şeirlərini çox sevərdi. Ələkbər babam anamın həm qaynatası, həm də doğma dayısı idi. Atam öz bibisi qızı ilə evləndikdən sonra, nəsildən qız almağı bütün qohumlara qadağan eləmişdi.

Anam babamın otağına keçib: – Ələkbər dayı, evdə bu qızın adını çağırmağa heç birimizin ürəyi gəlmir. Əgər izin versən, bu qızın adını dəyişdirib Nigar qoyardıq, – demişdi. Babam heç bir cavab verməmişdi. Ancaq gözlərində iki damla yaş parlamışdı. Övlad dağı, görünür *çox illər keçməsinə baxmayaraq heç zaman sağalmır.* Anam onu belə görəndə səssizcə otaqdan çıxmışdı.

Ertəsi gün nahar vaxtı yenə masanın başında babam əyləşmiş, həmişəki qayda üzrə bir yanında Kamil, bir yanında Rəşid oturmuşdu. Mən atamın yanında otururdum. Babam anama müraciətlə: – Cavahir, dur bir şərab gətir, Nigar xanımın sağlığına içək, – demişdi.

Anam ortalığa şərab qoymuş, birinci babam töküb içmiş balaca Nigarın sağlığına, "xoşbəxt olsun, gələcəyi parlaq olsun, gözəl bir dünyada yaşasın", – demişdi.

Bir neçə gündən sonra anam bir qonaqlıq düzəldib öz rəfiqələrini dəvət etmiş, məclisə qız-gəlinləri yığmışdı. Bundan sonra mənim Topuş, Lapuş dövrüm bitmiş, artıq Nigar adi ilə yaşamağa başlamışdım.

GÜNDƏLİKDƏN SƏHİFƏLƏR

31 dekabr, 1941.

Səhərdən özümdə ağır bir yorğunluq hiss edirəm. Elə bil ki, iztirablarla keçirdiyim bu köhnə il bütün ağırlığı ilə üstümə çökmüşdür. Uzun və çətin yollardan bərabər keçmiş iki dost kimi mən bu illə vidalaşmaq istəyirəm. Gecə saat 11-in yarısında cəbhədə vuruşan əsgərlərimizə müraciət edən yeni il şərimi radio ilə oxudum. Həyəcanla oxuduğumu hiss edirdim. Sonra küçəyə çıxdım. Şəhər boz bir duman içində idi. Köhnə il dumanlara qərq olub gedirdi. Qara dənizin sevincli sahillərində qarşıladığım bu ili Xəzərin dumanlı sahillərində yola salırdım. Axırıncı dəqiqələr Səmayə ilə birlikdə olduq. O, nədənsə kədərini məndən gizlətmək istəyirdi. Mən onsuz da bu kədəri duyurdum. Sonra bir az açıldı. Mən onun qəlbinin mənə olan böyük məhəbbətinə inandığım üçün bəxtiyar idim. Bu il mənim həyatımda nadir və əziz bir xatirə kimi qalacaq.

Bizə bir zövqü təxəttür qıldı
Bu sönən, kölgələnən dünyada.

1 yanvar, 1942.

Səhər oyandığım zaman Anar bəxtiyar bir təbəssümlə mənə baxırdı. Anar!.. Anar!.. Hər dərdi bir təbəssümü ilə unutduran Anar. Mən onu geyindirib küçəyə çıxartdım. Səmayə gəldi, birlikdə Nəzakətgilə getdik. Nəzakət tək idi. Mənə elə gəlir ki, Nəzakət uzun müddət müxtəlif axtarışlardan, təzadlardan sonra axır ki, düzgün həyat yoluna başlamışdır. O, əri ilə barışmış və hamının qəbul elədiyi, istədiyi kimi indi ailə həyatı yaşayır. Xaricən o razı və bəxtiyar görünür. Kim bilir, bəlkə mən səhv edirəm. Bəlkə mən onun səadətini sakit bir ailə həyatı qurmaqda görməyimdə də çox dərin səhv etmişəm. Səadət ailədəmi olur?!

3 yanvar, 1942.

Bütün günlərim Anarla keçir. Rəsul gedəndən bəri o mənə daha çox bağlanmışdır. Hər gün gəzməyə çıxırıq. Bu gecə anamgildə qaldıq.

5 yanvar, 1942.

Gündüz Yazıçılar İttifaqına getmişdim. Saat ikidə evə gəldim. Katya məni qapıda çağırdıqlarını söylədi. Bu kim olardı?! Tez çıxdım. Rəşid yoldaşı Nina ilə bərabər Ermənistandan iki günlüyə bizimlə görüşməyə gəlmişdi. Onu görəndə çox sevindim. Sevinc elə bil ki, məni boğurdu.

Qəlbimdə uzaq və dərin bir ağrının baş qaldırdığını hiss etdim. Bu həm ayrılıq, həm sevinc, həm kədər hissi ilə qarışmışdı. Nina birinci baxışda heç xoşuma gəlmədi. O gözəl deyildi. Bundan başqa onun üzündə daxili gözəlliyinə aid kiçik də olsa heç bir cizgi yox idi. Mən nə isə onun üzündə bir şey: yaxşı bir ifadə, bir təbəssüm görmək istəyirdim.

Sonra onlarla anamgilə gəldim. Gecəyə qədər orada olduq. Sonra dayımgilə gedib bir az da orada oturdum. Gecə evə qayıdanda mən yenə yorğun idim. Bəlkə sevinc həyəcanı məni bu qədər yormuşdu. Mən aldığım bu təəssüratla baş-başa yalqız qalmaq istəyirdim.

6 yanvar, 1942.

Gündüz Səmayəni gördüm. Ona Rəşid haqqında heç nə deyə bilmədim. Bəlkə bu xəbər ona ağır gələrdi. Evə gəldim. Anam Rəşid və Nina ilə bizə gəldilər. Birlikdə çörək yedik. Onlar axşam evə getdilər. Mən Səmayənin yanına getdim. Evə qayıtdığım zaman bədənimdə xoş bir yorğunluq hiss edib şirin-şirin yatdım.

7 yanvar, 1942.

Mən yenə bütün günü anamgildə idim. Rəşid və Nina bu gün axşam yola düşəcəkdilər. Axşama qədər oturduq. Axşam Rəşidgil stansiyaya getdilər. Onlar evdən çıxarkən anamın gözləri yaşla dolmuşdu. Yazıq qadın, sənin bu göz yaşlarına mən nə qədər şahid olmuşam. Mən də ağlamaq istəyirdim. Ancaq özümü saxladım. Bu, anama daha pis təsir edirdi. Ana... sən bil ki, ürəyə axan göz yaşları daha dəhşətli olur.

8 yanvar, 1942.

Rəsuldan teleqram gəlmişdir. O, bu günlər gələcəyini vəd edir. Barı tez gəlsin. Biz Anarla yenə sakit gəzintilərimizə davam edirik. O hər gördüyü şey haqqında sual verir. Bəzən mən onun suallarından yoruluram.

Bu vüsala yuxu əhvalı demək mümkün idi
Əgər olsaydı yuxu dideyi giryanımıza...

Gecə Füzulinin bu misraları ilə yuxuladım.

10 yanvar, 1942.

Mən yenə gecə Səmayə ilə idim. Bu gecə mən nədənsə yenə ağlamaq istəyirdim. Mən ona şikayət etmək, bu gün qəlbimdəkiləri açıb tökmək, əzizim bil ki, mən də bütün insanlar kimi daşdan, tuncdan, poladdan deyil, ətdən, qandan, candan, əsəblərdən ibarət bir varlığam – demək istəyirdim. – Mənim sinəmdə döyünən insan qəlbidir. O bəzən o qədər ağrıyır ki, mən bu ağrını heç nə ilə susdura bilmirəm. Səmayə, hər kəsdən çox bunu sən duya bilərsən.

11 yanvar, 1942.

Səhər Anarla gəzməyə getdik. Bakı təbiətinin yoxsul olduğuna baxmayaraq yenə qışa təslim olan bahar axırıncı külәkləri ilə vidalaşırdı. Biz bağda bir qədər gəzdik. Nəzakət də bizimlə idi. Sonra biz Saragilə getdik. Anar oradan evə gəlmək istəmədi. Mən Anarı orada qoyub təkcə evə gəldim. Pilləkənlərdən çıxarkən birisi məni daldan çağırdı. Bu Rəsul idi. Rəsul Krasnodardan qayıtmışdı. Görüşdük. Bərabər evə gəldik. Sonra Anar gəldi. Onun xoşbəxtliyinin hüdudu yox idi. Körpəm... barı bu dünyada sən xoşbəxt olsaydın...

15 yanvar, 1942.

Mən ingilis yazıçısı Oldintonun "Vse lyudi vraqi" romanını oxuyuram. Çox gözəl romandır. İnsan sevgisini və insan həyatını böyük bir zirvəyə qaldırır. O yazır ki: "Mən səni sevdiyimdən utanmıram. Mən bununla fəxr edirəm". O, sevginin nə şəkildə olursa-olsun, əgər o həqiqi və əsl segidirsə, müqəddəs olduğunu iddia edir. Buna görə də 13 il ərzində bir-birini itirən iki həqiqi sevgilini sonra yenə birləşdirir və bu köhnə sevginin bir an da olsun ölmədiyini sübut edir. Böyük ictimai məsələlər fonunda o, sevgi problemini çox dərindən həll edir. Mən əlbəttə bunu bilmirəm. Bu ancaq romanlarda ola bilər, həyatda isə tamamilə başqadır.

18 yanvar, 1942.

Mən yalqız qalmaq, Füzulini oxumaq istəyirəm. Mən bütün hisslərimin ifadəsini yalnız onda tapa bilirəm. O yazır ki:

Dönə-dönə mənə zülm etməyi şüar etdin,
Pünhan olan qəmi xalqa aşkar etdin...

Dünyanın bütün məhəbbət haqqında yazan şairlərinin başında hər zaman Füzuli durmuş və duracaqdır.

19 yanvar, 1942.

Gecə Yazıçılar İttifaqında növbətçi idim. Saat 1-ə qədər orda oturdum. Rahim və Cəfər də orada idilər. Onlar Rahimin şeirlərini, "Şamo" əsərini və "Gizli Bakı"nı Stalin mükafatı üçün hazırlayırdılar.

Mən kitab oxuyurdum. Sonra Nəzakətə telefon etdim. Nəzakət hamilədir. Qoy olsun, onun həyatı bu yolla getməlidir.

21 yanvar, 1942.

Gündüz şeirləri Yazıçılar İttifaqına apardım. Sonra Mirvaridin yanına getdim. Onun həmişə qızlıq, məsumluq məbədi kimi baxdığım evində indi qəribə bir yadlıq vardı. Bəli, artıq onun da məbədinə kafir ayaq basmışdı. O, ərə getmişdi. Elə bil ki, uğursuz bir külək onun bağçasına soxulmuş və kiçik bənövşələrini sındırıb döymüşdür. O, solğun çiçəyə bənzəyirdi. İndi evinin hər yanında kişi izləri vardı. Boş qədəhlər, kişi paltarları, texniki kitablar və rəsmlər. Mən kiçiklikdən birgə gedib-gəlməyə alışdığım bu təmiz qız evindən ağır və qəmli bir duyğuyla çıxdım. Nə isə itirmiş kimi qəlbimin dərinliklərində ağır bir təəssüf vardı. Bəlkə dostlar onun ərə getdiyini təqdir edir və sevinirdi. Mən də ona dost, həm də qəlbən dost idim. Lakin mən nədənsə sevinmirdim.

22 yanvar, 1942.

Günlərim kitab oxumaqla keçir. "Sakit Don"un dördüncü kitabını qurtardım. Bu kitab iyirminci əsrin ən böyük əsərlərindən birisidir. Gecə saat 3-də telefon səsinə ayıldım. Rəsulu Mərkəzi Komitədən axtarırdılar. O hələ gəlməmişdi. Az sonra Rəsul gəldi. Bir daha telefon edib onu səhər iclasa çağırırdılar. Mən bütün gecəni yata bilmədim.

Elə bil yerimə qor dolmuşdu. Səhərə yaxın yuxulamışam. Rəsulun neçə durub getdiyini belə bilməmişəm.

Sonra durub mən də bir iş üçün şəhərə çıxdım. Saat 2-də evə qayıtdım. Rəsul evdə idi. Həm də o həyəcanlı idi. Tələsirdi. Sabah Krasnodara getməli olduğunu mənə söylədi, sonra çıxıb iş üçün getdi. Mən evdə qalıb onun yol şeylərini düzəltməklə məşğul oldum. Axşam qohum-qardaş bizə gəlmişdilər. Ənvərlə Rəfili gecədən keçənə qədər bizdə oturdular. Mən yorğun olduğum üçün gedib yatdım.

23 yanvar, 1942.

Səhərdən yenə Rəsulun yola hazırlıq işləri ilə məşğulam. Rəsulun getməsi o qədər gözlənilməz olmuşdu ki, mən hələ bu barədə bir şey düşünə bilmirəm. O bütün günü evdə olmadı. Mən onunla ətraflı danışa bilmədim. Axşam o gedərkən evimiz adamla dolu idi. O, qapıdan çıxarkən mən boğazıma bir şey tıkılmış kimi boğulub dayanmışdım. Ağlamaq istəyirdim. Göz yaşlarımı zorla saxlayırdım. O getdikdən sonra Anarı qucağıma alıb yatdım. Əgər buna yatmaq demək olarsa.

24 yanvar, 1942.

Rəsula aid olan heç bir şeyə toxuna bilmirəm. Onun əynindən çıxardığı paltarları hələ stolun üstündə qalıb. Onları yığışdıra bilmirəm. Küçəyə qaçmaq, küçənin gurultusu içərisində bir dəqiqə qəlbimin səsini eşitmək istəyirəm. Mən hələ ağlamamışam. Bu mənimçün böyük qəhrəmanlıqdır. Ancaq bu tökmədiyim göz yaşlarının mənə baha oturduğunu yalnız mən duya bilərəm. Axşam Səmayə ilə "Madrid"ə getdik. "Madrid"i mən çox görmüşəm. Bu dəfə onun təsiri tamamilə başqa cür oldu. *İspaniyalıların öz azadlığı uğrunda üç ilə yaxın bir* müddətdə qəhrəmanlıqla vuruşmaları, sonra da məğlub olmaları mənim qəlbimdə sağalmaz bir yara kimi hər zaman yaşayırdı. Bu məğlub edilməli xalq deyildi. Onun yaşamaq, mərd yaşamaq, namusla yaşamaq hüququ vardı. Bu haqqı tapdaladılar. Onun məğlubiyyəti qalibiyyətə bərabərdi. O qədər mərdliklə vuruşan xalq heç zaman məğlub ola bilməz. Mən birinci pərdənin axırında İspaniya havası çalınarkən hıçqırıb ağlamağa başladım. Bu neçə gündən bəri zorla saxladığım göz yaşları elə bil ki, indi birdən-birə üsyan edib çıxırdılar. Onların qabağını zorla saxlamaq olmurdu. Lojada oturan Osman və başqa yoldaşlar

məni sakit etməyə çalışırdılar. Mən camaat içində rüsvay olmuşdum. Qoy hər kəs bu göz yaşlarını necə istəyirsə qəbul etsin... Mənim qəlbimin ağrısı bir azca dayanmışdı...

25 yanvar, 1942.

Mən evdəydim. Başımı birtəhər qarışdırmağa çalışıram. "Manon Lesko"nu oxuyuram. Bu romanda iki şey var – səadət və insan zəifliyi. Manonu sevən oğlan dünyada hər şeydən keçib bütün cəfalara, məşəqqətlərə dözərək sevgilisinin arxasınca gedir. Manon isə həqiqətdə yalnız bu sevgilini sevdiyi halda böyük bir zəifliyi vardır. Bu qadın zinət aşiqidir. O, bu ehtirasından əl çəkə bilmir və uzun oziyyətlər çəkir. Zinəti itirdiyi zaman isə həyatını da itirir. Romanın yazılışı pis deyil. Hər halda bu kitabı mənə çox tərif etmiş adamın zövqünə mən şübhə etməli oldum. Gecə şəhərdə fırtına var.

26 yanvar, 1942.

Qəlbim ağrıdığı kimi vücudum da ağrıyır. Xəstəyəm. Heç yana çıxa bilmirəm. Rəsuldan xəbər yoxdur.

27 yanvar, 1942.

Yenə xəstəyəm. Bu gün səhər güzgüyə baxdım. Rəngim ölü kimi idi. Rəsuldan bir xəbər olsaydı... axşam yerimin içində bir az sakit-sakit ağladım. Heç kəs görmədi. Bu sakit göz yaşları yanan qəlbimi bir az sərinlətmişdi. Səmayə telefonla halımı xəbər aldı. Onu hələ görməmişəm.

28 yanvar, 1942.

Şeir yazmaq istəyirəm. Dünən gecə başladım. Bu gün davam etdirəcəyəm. Rəsuldan heç bir xəbər yoxdur. Mənim fantaziyam çox pis şeylər yaradır. İmkanım olsa, bu saat mən də vaqona minib gedərdim. Bu ağrıya dözmək çətindir. Qəlbim yanır... yanır.

SƏADƏT SARAYINDA

Bu axşam evlənən yox idi. Toy, nişan məclisi quran yox idi. Alimlik dərəcəsi alıb ziyafət verən də yox idi. Əlli-altmış yaşının tamam olmasını bayram edən də yox idi.

Bu axşam Səadət sarayının böyük salonuna qadınlar toplaşmışdı. Vətən müharibəsinin qurtarmasının iyirmi illiyi münasibəti ilə müharibə iştirakçıları – qadınlar toplaşmışdılar.

Qadınlar ağır müharibə illərini yada salır, biri danışır, yüzü gözünün yaşını silirdi. Doktor Qazıyeva danışırdı: "Müharibənin ilk günləri idi. İşdən evə gəldim. Hərbi çağırış vərəqimi yoldaşıma göstərdim. Yoldaşım da öz çağırış kağızını mənə göstərdi. Kağızda yazılmışdı ki, ertəsi gün səhər saat 8-də hərbi komissarlıqda olmalıyıq. Səhər tezdən üç və beş yaşlı uşaqlarımızı geyindirib qucağımıza aldıq, evdən çıxıb rayon hərbi komissarlığına getdik. Hərbi komissarlığın qabağında içərisi körpə uşaqlarla dolu avtobus dayanmışdı. İçəridə uşaqları qeyd elətdirib yaşlı bir qadına, bağça müəlliməsinə təhvil verdik. Uşaqları bərk-bərk öpüb avtobusa mindirdik. Sonra hərbi komissarlıqdan təyinatımızı aldıq. Mən Bakı yaxınlığındakı hərbi hospitala getdim. Yoldaşım axşam cəbhəyə yola düşdü. Biz onu bir daha görmədik".

Azərbaycan Dövlət Universitetinin ədəbiyyat müəllimi Fəridə Vəzirova danışır: "Universitetin filoloji fakültəsinin üçüncü kursunda oxuyurduq. Komsomol komitəsinin katibi sinfimizə gəldi. – Qızlar, – dedi, – Vətənimiz təhlükə altındadır. Onun sizə ehtiyacı var. İndi siz, bütün sinif hərbi komissarlığa gedib təyinat almalı və cəbhəyə yola düşməlisiniz. Sanitar kimi, şəfqət bacısı kimi, cəbhədə kömək edəcək, lazım gələn hər işi görməli olacaqsınız. Hamımız yerimizdən qalxıb hərbi komissarlığa getdik. Təyinatımızı alıb cəbhəyə yola düşdük. Beş il cəbhələrdə qoşunlarımızla çiyin-çiyinə irəliləyib Almaniyaya qədər gedib çıxdıq. Müharibə qurtardıqdan sonra Vətənə qayıdıb təhsilimizə davam etdik".

Yenə bir həkim qadın danışırdı: "Mənim anam da həkim idi. Hər ikimiz eyni gündə yola düşdük. Anamla bir-birimizə yaxın məntəqələrdə işləyirdik. Arabir görüşə də bilirdik. Anamın fikri yaralıların yanında idi. Məni də yaddan çıxarmırdı. Anamın işlədiyi səhra hospitalına vəhşilər bomba saldılar. Anam yaralı döyüşçülərlə birlikdə həlak oldu".

Qadının səsi titrəyir, ana ölümünün acı ağrısını bu gün də eyni qüvvətlə duyurdu. Onu dinlərkən bütün qadınlar ağlayırdı.

Anadolu Əbilova o zaman gözəl hisslərlə yaşayan, ürəyi insanlara sonsuz məhəbbət və şəfqətlə döyünən gənc bir qız idi. Müharibə alovlarından keçən gənclik yolu, gördüyü insan iztirabları onun xurmayı saçlarını tamam ağartmışdı. Alman faşistlərinin vəhşiliyi gənc qızı sarsıtmışdı. Əbilova bu yığıncaqda özü kimi yüzlərlə şəfqət bacısının gördüyü işlərdən danışırdı. Onlar danışdıqca müharibə illərinin ağır mənzərələrini xatırlayırdılar. Sonra qadınlar üçün konsert veriləcəkdi. Bayırdan köklənən tarın, kamançanın səsi gəlirdi. Milli Azərbaycan geyimli qızlar rəqsə hazırlaşırdılar. Xatirələr qurtaran kimi durub salondan çıxıram. Pilləkənin başında tanış bir aktrisa məni saxlayır:

– Niyə gedirsiniz? Qalın, konserto baxın.

– Yox, gülüm, getməliyəm, başım ağrıyır, havaya çıxsam yaxşıdır.

Səadət sarayından çıxıb evə getmirəm, ürəyim doludur. Şəhərin sakit küçələrindən birinə düşüb gedirəm; tək, dalğın. Müharibə illərini xatırlayıram.

1941-ci il dekabrın 31-i idi. Yeni il gecəsi. Gecə saat on birin yarısında evdən çıxdım. Şəhər zülmət içində idi. Göz-gözü görmürdü. Əlimdəki kiçik fənəri aramsız yandırır, ayağımın altına işıq salırdım.

Arxamdan kişi səsi eşidib diksindim:

– Ay qız, niyə batareyanı korlayırsan? Fənəri kişinin üzünə tutdum, hərbi libasda olduğunu görüb arxayın oldum.

– Qorxuram, – dedim.

– Nədən qorxursan, sənin kimi qızlar cəbhədə vuruşurlar. Qorxmurlar. Sən dinc şəhərdə qorxursan?

– Cəbhədə mən də qorxmazdım, burda isə qaranlıqda tək yeriyəndə qorxuram.

– Hara gedirsən?

– Radio studiyasına.

– Aktrisasan.

– Yox, şairəm.

– Şair də qorxar?

Qaranlıqda üzünü görmədiyim hündürboylu hərbi geyimli şəxslə danışa-danışa, indiki poçtun həyətində yerləşən radio studiyasına gəlib çatdım. Qapıda gözətçiyə buraxılış vərəqəmi göstərib içəri girdim.

Saat on birdə radio ilə yeni şerimi oxuyub döyüşçülərimizi təbrik elədim:

Sən, ey bu yeni ili cəbhədə açan qardaş,
Bax, üfüqlər qızarır, günəş qalxır, can qardaş.
Bizə zəfər yetirən şanlı yeni il gəlir,
Düşmənlərin üstünə dağlar elə bil gəlir...

1942-ci ilin mart ayı idi. Alman faşistləri Krımda hücuma keçmişdilər. Sovet qoşunları geri çəkilirdi. Sovet məlumat bürosunun xəbərlərini ürək döyüntüsü ilə dinləyirdik. Həmin günlərdə mən başılovlu evdən çıxıb birbaş Yazıçılar İttifaqına gəldim. İttifaqın birinci katibi Səməd Vurğunun yanına qalxdım. Səməd iş otağında tək idi.

– Səməd, mən cəbhəyə getmək istəyirəm, – dedim. – Mərkəzi Komitədə danış, məni hərbi müxbir kimi göndərsinlər. Burda qala bilmirəm.

Səməd Vurğun həssas adam idi. Əhvalımı görüb başa düşdü, vəziyyətdən zarafatla çıxmaq istədi. Üzünü mənə tutub tamamilə ciddi ahənglə dedi:

– Mən iki batalyonu hardan alım, səni cəbhəyə yola salsın. Bilirsən, indi Krımda kurort-murort yoxdur. Get şerini yaz, uşağını saxla.

– Axşam pedaqoji institutda şer gecəmiz olacaq, ora gələrsən. Saat 7-də, yadından çıxmasın.

Heç sakit ola bilmirdim. Evə gəlib "Bakinski raboçi" qəzetinin redaktoru Henrix Pismana zəng elədim. O zaman Azərbaycan şairlərinin şeirləri rus dilinə tərcümə edilib cəbhə qəzetlərinə göndərilirdi. Bu işin təşkilatçılarından biri Pisman idi. Arabir mənə də zəng edir və şeir istərdi. Telefonda ondan hərbi müxbir kimi cəbhəyə getməyimə kömək eləməsini xahiş elədim. O da mənə ciddi ahənglə cavab verdi:

– Gənclərimizin vətənpərvər olmaları təqdirəlayiqdir. Ancaq hamımız tökülüb cəbhəyə getsək, arxada kim qalar? Burda iş çoxdur. Yoldaşınız cəbhədədir, burda onun əvəzində işləməlisiniz. Şeir verin, Krım cəbhəsində çıxan qəzetə göndərim.

Bir neçə gündən sonra "Vətən qızları" adlı şeri verdim. Göndərdilər. Krımdakı hərbi qəzetdə çap olundu. Bu şerin taleyi haqqında məşhur sovet şairi İlya Selviski müharibə xatirələrində yazmışdı.

Kerçdən, Rəsuldan gələn məktubların arası kəsilmişdi. Rəsul yalnız arabir cəbhədə rəşadətlə vuruşan azərbaycanlı döyüşçülər haqqında Azərbaycana teleqraf agentliyinə yığcam və qısa oçerk-məqalələr göndərirdi. Göndərdiyi mətnin içində iki kəlmə: "Nigara salam" yaza bilirdi. O vaxtlarda AzTAQ-da işləyən Yefim Qurviç gecə-gündüz, nə zaman olsa telefon edər, bizi sevindirərdi.

Kerçdən gələn məktubların birində Rəsul "Bəxtiyar" şerini göndərmişdi. Mən bu şeri Səməd Vurğuna oxudum. Səməd: – Nigar, mən bu şerin vəznini tuta bilmədim, o nə vəzndə yazılıb, – dedi.

Şer on hecalı idi. Çox işlənən on bir hecalı şerə alışmış qulağımız üçün on hecalı şeir qəribə gəlirdi:

Külək qarı səpələr, Bəxtiyar,
Ağ geyinib təpələr, Bəxtiyar.

Yüksək vətənpərvərlik və vətəndaşlıq duyğusu, qayğıkeşlik və həssaslıq, böyük humanizm müharibə dövrü adamlarının səciyyəvi xüsusiyyəti idi.

Gələcəyə, qalibiyyətə möhkəm inam ədəbiyyatda da öz əksini tapmış, şairlərimizin yaratdığı gözəl şeirlərdə, nəğmələrdə ifadə olunmuşdu. O dövrdə yaranan şeirlər sevilə-sevilə oxunur, dillərdə əzbər olur, geniş yayılır və təsir gücünü göstərirdi. Səməd Vurğunun "Şəfqət bacısı" şeri bu əsərlərdəndi. Məşhur bəstəkarımız Üzeyir Hacıbəyovun bu şerə yazdığı gözəl musiqi ona xüsusi təravət vermiş və geniş yayılmışdı.

Süleyman Rüstəmin "Ana və poçtalyon" şeri müharibənin toptüfəng gurultuları altında insanlığını itirməmiş ana ürəyinin nəcib duyğularını ifadə edən şeirlərdən idi. Bu şeir çox sevilir, çox oxunurdu.

Əhməd Cəmilin "Can nənə, bir nağıl de" şeri insanların müharibə alovlarından qurtarıb dinc və rahat güzəran sürmək ümidini və arzusunu ifadə edən şeirlərdən idi. Başqa şairlərimizin yazdıqları onlarla gözəl şeir və nəğmə böyük təsir gücünə malik idi. İnsanlar bu şeirləri oxuyur, əzbərləyir, bunlarla təsəlli tapır, ümid və arzu yollarını işıqlandırırdılar.

Bu dövrdə yaranan şeirlər içərisində ritorik şeirlər də çox idi. Bu şeirlər poeziyanın əbədiyyət yoluna çıxa bilmədi, lakin faşizm əleyhinə çağırılan mitinqlərdə, tribunalarda, radio verilişlərində səslənmiş, cəbhədə ölən adsız qəhrəmanlar kimi öz vaxtında faydalı işlərini görmüşdü.

İŞIQLI HƏYAT HƏSRƏTİNDƏ

Tariximizin qəhrəmanlıq səhifələrində Azərbaycan qadınının öz şöhrəti, öz şərəfli yeri var. "Kitabi-Dədə Qorqud" qəhrəmanı igid Buğaca süd verən anası, Koroğlunun sadiq Nigarı, Qaçaq Nəbinin silahdaşı qoçaq Həcər – xalqımızın iftixarıdır. Məğrur, əyilməz bir qızın şərəfinə Bakıda möhtəşəm qala ucaltmış şair xalqımız vətən torpağının ən füsunkar guşələrinə şairanə adlar verib – Qızbənövşə yaylağı, Qırxqız bulağı, Gəlin qayası...

Xalqımızın keçmişdə müdrik hökmdarı Nüşabə də olub, cəsur üsyan başçısı Rüstəm də, tədbirli dövlət xadimləri Sara xatun da, Tuti Bikə də...

Ancaq xalqımızın keçmişində qadınlarımızın göz yaşlarından doğan dəryalar, ah-nalələrindən buludlanan səmalar, ağılardan parçalanan ürəklər də olub.

Ölülər dünyasının üfunəti içində yaşıl və köməksiz pöhrə kimi əsim-əsim əsən, tapdanan, əzilən, incidilən balaca, zərif bir varlıq – on iki yaşlı Nazlı, Cəlil Məmmədquluzadənin yanıqlı qələmindən doğulmuş kövrək qızcığaz, mömin və küt Hacı Həsənin qızı, bədbəxt İsgəndərin bacısı, şəhvət hərisi fırıldaqçı Şeyx Nəsrullahın "şikarı"...

Kim bilir bəlkə, Nazlının şair təbi vardı? Kim bilir, bəlkə o, başına gələn müsibətləri şeir misralarıyla ifadə etmək istəyirmiş, bacarmırmış? Bəlkə, şeir yazmağı bacarsaydı, onu Şeyx Nəsrullahın murdar ağuşuna atmaq istəyən atasına, gözü, ağlı, qulağı mövhumat dumanından tutulmuş atasına bu sözlərlə müraciət edərdi:

Yalvarram qohum-qardaşa,
Bax gözümdən axan yaşa,
Baxtımı döndərmə daşa,
Vermə məni yada, ata!
Salma yanar oda, ata!

Kəsmə hər yerdən çaramı,
Vurub qanatma yaramı,
Gəl keçirmə sən çıramı,
Vermə məni yada, ata!
Salma yanar oda, ata!

Anam boynun büküb ağlar,
Bacım sinəsini dağlar
Bacım qızı qara bağlar

Vermə məni yada, ata!
Salma yanar oda, ata!

Nazlı sənə şirin bala
Haqdan keçib, çəkmə ala
Aldanıb dövlətə, mala,
Vermə məni yada, ata!
Salma yanar oda, ata!

Hacı Həsən ağa körpə qızını dövlətə, mala, bu dünyanın nemətinə, sərvətinə deyil, o dünyanın cənnət xülyasına, şəriətin "savabına" qurban vermək istəyirdi. Nazlının bacısı yox idi; onun üçün sinəsini dağlayan – qardaşı dərdli İsgəndər idi. Bu şerin də müəllifi "Ölülər"dəki Nazlı, Mirzə Cəlilin ölməz Nazlısı yox, real həyatda yaşamış, şairə Nazlıdır.

Adlarının eyniliyi təsadüfidir. Acı taleyin, qara bəxtin, yanıqlı yalvarışların eyniliyi təsadüfi deyil – inqilabdan əvvəlki dövrdə qadınlarımızın ümumi müsibəti, faciəsi, aqibətidir.

Sanki şairə Nazlı, Mirzə Cəlil Nazlısının ağrılarını şeir diliylə ifadə edir.

Sanki Mirzə Cəlil Nazlısı neçə-neçə real Nazlının bədii təcəssümü, timsalıdır.

Qarşımızdakı kitab Azərbaycan qadınlığının bir növ poetik salnaməsidir. Bu salnaməni hörmətli alimimiz, yazıçımız Əzizə xanım Cəfərzadə neçə ilin gərgin axtarışları, ağır zəhməti, səyi nəticəsində toplamışdır. Salnamə neçə-neçə Azərbaycan şairəsinin çoxəsrlik fəaliyyəti, ilhamı, yanğısı nəticəsində yaranmışdır.

Sənət, şeir – həmişə zəhmətlə yaranır. Qadın sənətkarın zəhməti bəlkə də ikiqatdır. Ədəbiyyat tarixinin böyük simaları – antik yunan şairəsi Safodan, XX əsrdə yazıb-yaratmış, Nobel mükafatı laureatı Qabriela Mistrala qədər bir çox qadın sənətkarlar həyatlarının və peşələrinin bu ikiqat çətinliyindən dönə-dönə danışmışlar. Sevgilərinə, ailələrinə, əzizlərinə sədaqətlə, ilhamla şeirlər həsr etmişlər. Qələmi, dəftəri, yazı masasını öz əsərlərində dəqiq, mənalı sözlərlə tərənnüm etmişlər. Şərq şairəsinin, islam ölkələrində yaşayıb-yaradan qadın sənətkarın işi isə ikiqat zəhmətdən başqa, həm də, onqat cəsarət, hünər idi.

Arvadla kişini bağlayır kəbin,
Bu işə yol verir şəriət, ayin,
Mənimsə kəbinim bir rübaidir!
Varmı bu kəbinə yol verən bir din?

Bu vüqarlı sözləri səkkiz yüz il bundan qabaq söyləmiş Azərbaycan şairəsi Məhsəti Gəncəvi öz sualının cavabını da bilirdi. Bilirdi ki, belə bir kəbinə yol verən din yoxdur və islam dini belə bir nikahın ən qəddar düşmənidir. Bu acı həqiqəti Məhsəti xanım da bilirdi, ondan sonrakı əsrlərdə yaşayıb-yaratmış onlarla başqa şairələr də – Natəvan da, Heyran xanım da, Kəminə də, Qürrətüleyi də, Aşıq Pəri də. Bilirdilər və bilə-bilə "kəbinlərini" rübaiylə, qoşmayla, gəraylıyla, qəzəllə, bayatıyla "kəsirdilər". Bu kəbinin bəhrələri, bu nikahın övladları gözlərimiz qarşısındadır: səhifələri çeviririk, uzaq-uzaq illərin ardından qulaqlarımıza səslər, sədalar gəlir. İncə və zərif qadın pıçıltıları, qəmli zümzümələr, şirin laylalar, təsirli ağılar, bəzən də gülüşlər, şux qəhqəhələr... Bəli, gülüşlər, qəhqəhələr. Çünki ən ağır çağlarda, ən məşəqqətli dövranlarda belə insanlar, xüsusilə qadınlar, gülüşü unutmayıb, şən zarafatdan yadırğamayıblar.

Çəkməsi cığ-cığ eylər,
Evimizi palçıq eylər.
Zəhləm gedir o yardan
Hər gecə acıq eylər.

Samovar pıqqıldayır,
Qəndqıran şaqqıldayır.
Zəhləm gedir o yardan,
İşbilməz, naqqıldayır.

Su götürdüm hovuzdan,
Xoşum gəlir tovuzdan,
Yar mənə pencək alıb,
Astarı qanovuzdan.

Bu şux, şıltaq bayatılar Şamaxı şairəsi Pərinazındır. Həmin o şairənin ki, 1902-ci ildə dəhşətli Şamaxı zəlzələsinin şahidi olmuş və bu müsibətə də təsirli misralar həsr etmişdir:

Şəhərin dam öyləri,
Əsl tərxam öyləri.
Zəlzələ viran qoydu,
Dağıldı şam öyləri.

Bu gələn arabadı,
Qoy gəlsin arabadı.
Dünənki cənnət şəhər,
Bax, bu gün xarabadı.

Dağda biyan varmola?
Soyub yeyən varmola?
Bu əcəlsiz qırğına,
Hayıf deyən varmola?

"Sevinclə kədər əkiz doğulub" – deyiblər. Belə bir ifadə də var: "Bir gözü gülür, biri ağlayır". Azərbaycan şairlərinin gülən gözləri, xoş saatları da olub. Amma gözləri daha çox qan-yaşla dolub, dərdli-ələmli ayları, illəri, yaxşı günlərini, saatlarını üstələyib. Odur ki, qadınlığın bu poetik salnaməsindən daha çox ah-fəryad səsləri ucalır. Şairələr xalqın ümumi müsibətlərinə – zəlzələlərə, talanlara, müharibə qırğınlarına, ölənlərə, itənlərə yas tuturlar. Şairələr Şərq qadınının ümumi acı taleyinə – hüquqsuzluğa, bərabərsizliyə, mütiliyə ağlayırlar. Bir də hər şairənin, hər qadının öz şəxsi yaraları, şəxsi dərdi, itkisi var.

Böyük Natəvan 17 yaşında dünyadan gedən oğlu Mir Abbasa matəm saxlayır:

Boyun bəlasın alım, sərv tək yıxılma, oğul,
Doyunca görməmişəm getmə, bir zaman, getmə!
Çıxaydı kaş gözüm, görməyəydi hicranın,
Ölüncə bil edərəm naləvü-fəğan, getmə!
Səbahatək oturub çəkmişəm cəfalərini,
Boyum bərabərisən indi, alaman, getmə!

İyirmi yeddi il sonra 20 yaşında gənc Məşədixanım Leyli, Natəvanın "Ölürəm" rədifli qəzəlinə nəzirə yazıb, nakam taleyinə ağlayır:

Nişanə qalmadı məndən, qızım da öldü mənim,
Gözümə oldu əcəb tirə ruzigar, ölürəm.

Leyli özünə ağlayır, itirdiyi qızına ağlayır, fəraq içində qoyub getdiyi şair sevgilisinə ağlayır. Bu nə qədər insani bir hissdir. Neçə-neçə qadın dünyadan belə nakam gedib. Amma onların demədiklərini, deyə bilmədiklərini Leyli deyib, bu sözlərlə onları da, özünü də əbədiləşdirib. Poeziya elə insandan dünyada qalan nişanə deyilmi? Bir də, poeziya insanın möhnət, intizar, həsrət üzərində qələbəsi deyilmi?

XVII əsrdə beş Azərbaycan qızını əsir aparıblar. Onlar vətəndən uzaqlarda həsrət və möhnət içində ömürlərini başa vurublar. Bu beş qəlbin əzabları – üç əsrin sarsıntıları, qeyli-qalı arasında çoxdan itib,

əriyib, unudulub. İtib? Əriyib? Unudulub? Yox, bu beş "Yesir qız"ın biri – Gülşad şairə imiş; özünün və rəfiqələrinin qüssələrini qələmə alıb və beş qəlbin harayı itməyib. Didilib tökülmüş cüng səhifələrindən, gül ləçəyi kimi zəif bir "ah", bir giley, bir həsrət nəğməsi, üç əsrin başı üstdən gəlib bizə, bu günə çatıb:

Göydən ötən bölük-bölük durnalar,
Bizdən salam olsun Əcəm elinə.
Yaşıl geymiş sarı telli durnalar,
Bizdən salam olsun Əcəm elinə.
Beş qız idik bir arada, bu yerdə,
Ya İlahi, dərman elə bu dərdə
Canım durna, hər vətəndə, hər eldə,
Bizdən salam olsun Əcəm elinə.

XVII əsrdən, "İstanbul şəhərindən – Qostəntəniyyə"dən gələn bu qəmli səsdəyə, XIX ərdə Tehrandan başqa bir şairənin yanıqlı səsi səs verir:

Mən aşığam qara bax,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bu şeir Ağabəyim ağanındır. İbrahimxəlil xanın qızı, İran hökmdarı Fətəli şaha ərə verilmiş Azərbaycan qızının "qızıl qəfəsdə" yazdığı şeir.

Bir-birinin müasirləri olan şairlərimiz bəzən şeirləşmiş, bir-birinə poetik cavablar yazmışlar. Müxtəlif şairələrin yaratdıqları "Ağam canı" rədifli qəzəllər buna ən yaxşı misaldır. Amma bu kitabda biz başqa bir səsləşməni də eşidirik: bir-birindən xəbərsiz olan, bəzən, hətta ayrı-ayrı dövrlərdə yaşamış şairələrin mövzu və tale səsləşmələrini...

Şairə Bəsti atasına, anasına, qardaşına, bibisinə, xalasına yalvarır, "yaşı əlli, ağ tükü qaşından bəlli, acı sözlü, zəhər dilli bir ağ yalə məni verməyin" – deyə fəryad qoparır.

Zəhər qatdılar aşıma,
Bəlalar gəldi başıma,
Baxmadılar göz yaşıma,
Satdılar kaftara məni
Ağ yal canavara məni, –

Deyən Əsmər, sanki Bəstinin səsinə səs verir, atasından, anasından, qardaşından, əmioğlusundan gileylənir.

Və elə bil ki, üçüncü bir şairə bu bəxtiqara qızı təsəlliylə ovundurur:

Gövhər deyər, zornan ərə verilən
Bu dünyada nə bir sənsən, nə də mən.

Çadra müsəlman geyim "moda"sının müəyyən bir ünsürü deyildi: o, əsarət rəmzi, mütilik timsalı, qadının öz üstündə daşıdığı fərdi, səyyar zindanı idi. Müsəlman evlərində əndərun və birun adlı iki hissə olurdu. Pəncərəsiz sal divarlarla küçədən, bayırdan gizlədilmiş içəri hissə – əndərun – qadınların yaşadığı yer, bütün ömürlərini sürdükləri dar və məhdud bir sığınacaq idi. Çadra yalnız geyim ünsürü olmadığı kimi, əndərun da yalnız memarlıq istilahı deyil. Çadra da, əndərun da – həyat tərzi, əxlaq və anlaq norması, islam şərqinin qadına olan "fəlsəfi" münasibəti idi.

Bu kitabı varaqladıqca düşünürdüm: şairələrimizin çoxunun ömrünü əndərunda keçib, həyatlarını qara çadra altında yaşayıblar. Bəs onda nə qəribə haldır? Bütün dünyadan təcrid olunmuş, sal daşlarla, kor, pəncərəsiz divarlarla ayrılmış əndərunu Azərbaycan qadınları bayırdakı geniş dünyanın bütün duyğularını, sevinc və kədərlərini keçirə biliblər, çadranın qara pərdəsi altından yer üzünün bütün rənglərini, çalarlarını görə biliblər, seçə biliblər...

Başqa dinlər kimi islam dini, insanın fərdini, "mən"ini öldürməyə çalışıb. Bu cəhətdən şəriət ehkamları qadınlara qarşı daha amansız olub.

İnsanın böyüklüyü, barışmazlığı və qüdrəti ondadır ki, o, həmişə öz mənliyi, qüruru uğrunda üsyana qalxıb. Bu insanlıq üsyanında qadınlığın da öz payı var. Bəzən "üsyan" sözün müstəqim mənasında qiyam, vuruş olub, qurbanlar aparıb. Belə şəhidlərdən biri Tahirə Qürrətüleyidir. Amma insan ləyaqəti uğrunda döyüşün zahirən görünməz, səssiz, sakit formaları da var. Şəriətin dünyanı qadına haram elədiyi bir dövrdə sevgi haqqında, həyat haqqında öz sözünü pıçıltıyla belə olsa da demək fədakarlıqdır, hünərdir. Çünki bu zəif pıçıltılar əsl şerə çevrilirsə, deməli onlar qəlbin çırpıntılarından doğulub. Qəlbin çırpıntıları isə, təbil zərbələrindən fərqli olaraq eşidilməzdir.

Əlbəttə, kitabdakı şeirlər nə kəmiyyət, nə də keyfiyyət baxımından eyni ölçüdə deyildir. Ancaq ən yaxşı şeirlərdə şairələrin məni, fərdi duyulur; hər birinin öz səsi, öz sözü eşidilir.

Ağabəyim ağanın qəzəlindən iki misra hifz olunub. Bu beytdə narın meh kimi yüngül, güclə sezilən bir təəssüf var:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmirəm ömrüm necə gəldi, necə getdi.

Ağabəyim ağanın zərifliklə etdiyi giley qarşısında Şəhrəbanunun şikayətləri nə qədər ehtiraslı və çılğındır:

İşvə bilməz, qəmzə bilməz, naz bilməz,
Sevgi bilməz, söhbət bilməz, saz bilməz,
Söz eşitməz, qaş anlamaz, göz bilməz,
Ana, məni bir nadana verdilər.
Günahıma, babalıma girdilər.

Qoyun deyil qoyunlara qatam mən,
Öküz deyil çodarlara satam mən.
İgid deyil qucaqlaşıb yatam mən,
Ana, məni bir nadana verdilər,
Günahıma, babalıma girdilər.

Azərbaycan şairləri bundan da kəskin dillə danışmağı bacarırlar. Aşıq Pəri həddən artıq canfəşanlıq eləyən aşiqi "ağlına dua yazdır" – deyə yerində otuzdurur.

Zərif, mələhətli olmağı da bacarır şairlərimiz. Heyran xanımın bu misralarında nə qədər incə bir qadın işvəkarlığı var:

Ey sərv-qəddü simtək,
Şəkkər ləbül qönçə dəhən,
Doğrusu, sən çox gözəlsən,
Biz də bir az pis deyilik.

Fatma xanım Kəminə sadəlövh bir səmimiyyətlə:

"Ey gözüm, Əhmədə bax, gör nə qəşəng oğlandır" – deyə, hisslərini gizlətmir.

Şairə Zeynəb isə azad insan hissini təbiiliklə ifadə edir:

Gəl eşit Zeynəb sözünü,
Yoldan yığ yarın gözünü.
Çox da incitmə özünü,
Götür məni qaç, İsmayıl!

Hər şeir bir insan xarakteri, bir qadın temperamenti, bir taledir!

Duymağı, sevməyi bacaran, bəzən hissləri uğursuzluğa düçar olan, bəzən yarından, bəzən övladından, bəzən vətənindən ayrı düşən qa-

dınlar... Daha çox ağlayan, amma gülməyi də bacaran, iztirab çəkən, ümid bəsləyən, arzularla yaşayan, düşünən, duyan qadınlar... Həyatlarını, hisslərini şerin diliylə əbədiləşdirmiş, ömürlərinin şerə dönmüş qəlbələrini bizə yadigar qoyub getmiş şairələr...

Dünyanın hər üzünü görmüş, şux bayatıdan hüznlü qoşmalara qədər hər ovqatda şeirlər yazmış Bəsti təqribən yüz il ömür sürüb. Ömrünün bir əsrini başa vurarkən Bəsti sevincini, dərdini, duyduqlarını çoxdan unutmuş, yaşıdlarının, müasirlərinin çoxunu torpaqlara tapşırmış, qəribə bir "vaxt qürbətinə" düşübmüş. Bu "vaxt qürbətində" onu tanıyan qalmayıb. Şairə qəribə bir nisgillə:

Aşıq Bəsti mənəm,
Ellər tanımır –

deyir və bu yaşında belə sırf qadın psixologiyasına məxsus bir işvəylə əlavə edir:

Sinnim doxsan olub
İllər inanmır.

Bir əsrlik ömrün müdrik təcrübəsindən Bəstinin başqa bir poetik və dərin obrazı da yaranıb:

Məleykə boyludu, şirin ləhcəli,
Əzəldən tamaşa olan bu dünya.
Qoca cadugərdi, aldadır səni,
Cavanlıq donunda qalan bu dünya.

Zənnimcə, bu obrazı yalnız qadın sənətkar kəşf edə bilərdi.

Azərbaycan şairlərini oxuyun, tanıyın, sevin. Onlar bu sevgiyə layiqdirlər.

MÜŞFİQİ DÜŞÜNƏRKƏN...

Müşfiq vətəni, şeri, bir də Dilbəri sevirdi. Vətənin təbiətini, insanlarını, sənətini, musiqisini sevirdi. Vətən onun əsərlərinin əsas mövzusu, tükənməz və əzəmətli ilham mənbəyi idi. Şeir onun mənəvi qidası, dilinin əzbəri, qəlbinin nəğməsi idi.

Dilbər Müşfiqin həm ömür yoldaşı, həm də lirik qəhrəmanı, coşqun sevincinin və həzin kədərinin canlı şahidi, canlı şəriki idi. Gənc-

lərimizə Müşfiqdən söhbət açarkən, "Müşfiq kimi şair olun" deyə bilmərəm. Şairlik fitri istedaddır. Müşfiq də Azərbaycan torpağının yetişdirdiyi nadir istedadlardan biri idi. Lakin gənclərimizə demək istəyirəm ki, şeri, sənəti Müşfiq kimi sevin, şerə-sənətə Müşfiq qayğısı bəsləyin. Müşfiq yerin alt qatlarından qədim mədəniyyətimizdən xəbər verən qazıntıları çıxarmaq üçün külüngünü yerə böyük bir ehtiyatla vuran arxeoloqa bənzəyirdi. Keçmiş şairlərimizin yaratdığı söz incilərini, misilsiz, gözəl lirika nümunələri olan şeir və qəzəlləri, qoşma və bayatıları maraq və məhəbbətlə axtarıb tapan vicdanlı bir alim və tədqiqatçı kimi bu şairləri unutmağa qoymazdı. Bahar Şirvaninin, Buxudun, Nasehin və başqa bir çox unudulmaz Azərbaycan şairinin şeir və qəzəllərini mən ilk dəfə Müşfiqin dilindən eşitmişəm.

Sordum sorağını, dedilər qeyrə yar olub,
Ey kaş lal olaydı dilim soraqidən...

Bahar Şirvani kimi gözəl lirika nümunələri yaratmış şairlərimiz təəssüf ki, tamamilə unudulmuşdur. Müğənnilərimiz də aşağı səviyyəli şeir və qəzəl oxuyur, bu şairlərin gözəl lirikasından istifadə edə bilmirlər. Sənətkarlarımız tərəfindən yaranmış mənəvi sərvət xalqın malıdır. Xalq malını qorumaq isə vətəndaşlıq borcudur.

Müşfiq aşıq ədəbiyyatını da çox sevir və yaxşı bilərdi. Aşıq Ələsgər, Qurban və başqaları onun sevə-sevə əzbər oxuduğu şairlər idi. Müşfiqin mənəvi aləmi şeir və yalnız şeir idi. O, şeirlə yaşayır, şeirlə nəfəs alırdı. Həyata, insanlara, hər şeyə şerin gözüylə baxırdı. Ciddi söhbəti də şeir idi, zarafatları da...

Bir gün küçədə tanış bir qıza rast gəlmişdi. Qızın əynində qırmızı don var idi. Müşfiq qıza yaxınlaşanda salam vermək əvəzinə qızı şerlə qarşılamışdı:

Alasan, geydirəsən yara qırmızı...

35-36-cı illərdə biz Rəsul Rza ilə Moskvada təhsil alırdıq. Qış tətilində mən Bakıya anamı görməyə gəlmişdim. Rəsul Moskvada idi. Akademiyanın böyük salonunda ədəbi gecə keçirilirdi. Müşfiq mənim yanımda oturmuşdu. Rəsulu xəbər alır, onun həyatı ilə maraqlanırdı. Mən bir az gileyli, bizi lap unutmusunuz, dedim. Müşfiq cavab vermədi, bir az sonra, dəftərini mənə ver, dedi. Mən kiçik dəftərçəmi ona uzatdım. Müşfiq qaşlarını çatıb dəftərə nəsə yazdı, sonra dəftərimdə bu misraları oxudum:

Ey şair,
Düşün öz-özünə sən bir cahansan
Başqadır gərdişin, başqadır yerin.
Gözlərdən, doğrudur, bu gün nihansan,
Bunun nə eybi var, könüldür yerin...

Müşfiq dostlarını, yoldaşlarını çox sevərdi. O, bizim analarımızı çox sevərdi. Erkən anasız qalmış şair ana məhəbbətinə böyük ehtiyac hiss edirdi.

Pirşağıda bağ qonşusu idik. Axşamları hamımız ay işığında qumların üstə yığışar, söhbət edər, şeir oxuyardıq. Müşfiqin şeir çeşməsi bitmək-tükənmək bilməzdi. Füzulini, Tofiq Fikrəti, Sabiri əzbər oxuyardı. Adını belə eşitmədiyimiz şairlərdən söz açardı, şeirlərini əzbər deyərdi.

Müşfiq üçün hər şey poeziya idi. Şerə bağlılıq və sonsuz sədaqət – Müşfiq təbiətinin əsas canı idi. Qəhrəmanlıq da, məhəbbət də, hicran da, adi bir qız donu da, bir dost gileyi də... O hər şeydə, şeir və şeir mövzusu görürdü.

Elə şairlər var ki, onların əsərlərini heç kəs sevmir, elə şairlər də var ki, yaratdıqları əsərləri mübahisə doğurur, kimi onları sevir, kimi sevmir... Müşfiq şerini hamı sevirdi... Ona olan böyük məhəbbətin sirri onun sadə, səmimi, qəlb hərarəti, ürək çırpıntısı ilə yaratdığı şeirlərin ecazkar gözəlliyində idi. Bu gözəlliyə və səmimiyyətə hamı pərəstiş edirdi.

Müşfiq az yaşadı, qısa sürən həyatında xalqına sədaqətlə xidmət etdi. Elə yaralar var ki, zaman belə onları sağalda bilmir. 34-cü ildə unudulmaz sənətkarımız Cəfər Cabbarlının ölüm xəbərini Moskvada aldıq. Gəncliyimin fırtınalı illərində mənə böyük qardaşı əvəz etmiş, sevdiyim bir sənətkarın ölümü məni sarsıtmışdı. Bir neçə il sonra isə dostumuz, qardaşımız Müşfiqin ölümü ürəyimizdə yeni bir yara açdı.

Bu yaranın ağrısını səssiz keçirmək lazım idi, ona bərkdən ağlamaq belə olmazdı.

Xalqını sevən, ona sədaqətlə xidmət edən sənətkarlar heç zaman unudulmurlar. Bu gün şairin xatirəsini əziz tutan xalqımız bu həqiqəti bir daha imzalamış olur.

İRAN AZƏRBAYCANININ MÜASİR ŞAİRLƏRİNDƏN
HÖKUMƏ BİLLURİ

Bahar idi. Zəncan şəhəri yaşıl bir don geymişdi. Badam çiçəklərinə qərq olmuş dağlardan xoş ətir qalxırdı. Quşların sevincli bahar nəğməsi hər tərəfi bürümüşdü. Axan suyun yckahəng şırıltısında həzin bir musiqi vardı.

Bir parça çörək qayğısı ilə çoxdan bəri İranın müxtəlif şəhərlərini dolaşıb, nəhayət Zəncan şəhərində sakin olmuş dəmirçi ailəsinin kiçik qızı məktəbdən evə qayıdırdı. O, nədənsə incik idi. Nə baharın şux ahəng səsləri, nə çiçəklərin məstedici ətri, nə də axan suyun şırıltısı onun könlünə fərəh verirdi. Bu gün o, yenə məktəbdə tənəffüs zamanı yoldaşları ilə öz doğma Azərbaycan dilində danışdığı üçün onu tənbeh etmiş, dərsdən sonra ac saxlayıb evə buraxmamışdılar. Zəif vücudlu, məğrur ruhlu balaca qız düşmən qarşısında ağlamamış, göz yaşlarını qəlbinə axıtmışdı. İndi o, cansız ayaqları dolaşa-dolaşa evlərinə tələsir, bu ağır dərdini anasına danışmaq və orada doyunca ağlamaq istəyirdi. O, Zəncanda yeganə məktəb olan farsca qız məktəbində oxuyurdu. Bura məktəbdən çox həbsxanaya bənzəyirdi. İran irticaçıları xüsusilə böyük bir soy göstərərək Zəncan şəhərindən Azərbaycan ruhunu silmək üçün ən şiddətli tədbirlərə əl atırdılar.

Zəncanın çox möhtəşəm bir tarixi vardır. Zəncan İran Azərbaycanının bir parçasıdır. O, Azərbaycan torpağının cənub hissəsində yerləşən böyük bir əyalətin mərkəzidir. İran mürtəcələri bu qədim Azərbaycan torpağını Azərbaycandan ayırmaq, onu farslaşdırmaq istəyirdilər. Lakin əzilən xalq öz dilinə və öz ruhuna daha çox məhəbbət bəsləyirdi. Zəncan bu gün belə İran azadxahlarının mübarizə səhifələrində ən çox təkrar olunan bir addır.

Nəğmələri dustaq edilmiş, bayatıları sürgünlərə göndərilmiş, dilinə ağır qıfıl vurulmuş böyük bir xalqın mənəvi iztirabları dəmirçi qızı Hökumə Billurinin qəlbində dərin izlər buraxaraq onun şair könlünü üsyana çağırırdı. O, ilk şeirlərini belə bir mühitin verdiyi ağır təsirlər altında yazır, Azərbaycan qızlarının bu müşkül vəziyyətinə qarşı üsyan edirdi.

İllər keçir, gənc şairə böyüyür, ətrafında olub-keçən hadisələri daha dərindən və daha aydın dərk etməyə başlayırdı. O, Zəncan şəhəri ətrafında 300 para kəndə sahib olan Zülfiqarinin xalqa etdiyi zülmü

görür, xalqın ağır güzəran keçirdiyini anlayırdı. 17-18 yaşlarına yetişdiyi zaman Hökumə şerinin əsas mövzusu vətən, azadlıq və qadın hüququ olur.

O, fədai dəstələrində olmamışdı. O, əlinə silah almamışdı, döyüşlərdə iştirak etməmişdi. Onun silahı qələm idi. Hökumə ilk şeirlərini fars dilində yazmışdı. O, yazdığı şeirləri dərc etməz, hətta öz yoldaşlarına da oxumazdı. Yalnız hərdən şiddətlə qapını döyən küləklər bir yetim naləsi kimi pəncərələrdə zarıldayarkən kiçik Hökumə gözlərindən axan isti yaşları anasının qolları arasında gizlədərək ona öz könlünün tərcümanı olan şeirləri oxuyardı. Lakin anası onun farsca yazdığı şeirləri diqqətlə dinləyər, bir şey başa düşməzdi. Yalnız "Qızım, öz dilimizdə yazsana", – deyərdi. Bu sadə və nəcib arzunu Hökumə yalnız İran Azərbaycanında demokratik hərəkat başladığı zaman həyata keçirə bildi. Yeni Azərbaycan demokratik hökumətinin verdiyi qərar əsasında Azərbaycan dili dövlət dili oldu. Hökumə ağır qapılı bir zindandan qurtarmış məhbus kimi yeni həyatın qoynuna atıldı. O, şeirlərini öz doğma Azərbaycan dilində yazmağa başladı. O, vətəninin üzərində açılan bu azadlıq baharını şair qəlbinin bütün coşqunluğu ilə salamladı:

Çıxdı günəşim şəqilə canan tərəfindən
Parlar bu günəş rəhbəri – dövran tərəfindən.
Bu nöhzət rövşan sönə bilməz dəxi birdəm,
Çün qüvvət alır qüvvəli mərdan tərəfindən.

Azərbaycan demokrat hökuməti qurulduqdan sonra Zəncan şəhərinin həyatı dəyişmiş, şəhərdə yeni bir aləm başlanmışdı... Bu yeni həyatı quran fədakar və fəal insanlar cərgəsində şairə Hökumə Billurinin də səsi vüqarla yüksəlirdi. O, artıq iki ildən bəri işsiz keçirdiyi həyatına xitam vermişdi. Zülfiqarinin məşhur malikanəsi Zəncan şəhərinin mədəniyyət evinə çevrilmiş, Hökumə də orada müdirə sifətilə çalışmağa başlamışdı. O, eyni zamanda məktəbdə ədəbiyyat dərsləri verir, şəhərin bütün ictimai və mədəni həyatında fəal çalışırdı.

Hökumə indi xoşbəxt idi. O, vətəni və azadlığı Azərbaycan dilində tərənnüm edirdi. Dünyada öz dilində şeir yazmaqdan şirin bir arzu ola bilərmi? Şairə artıq arzusuna çatmışdı.

Lakin İran Azərbaycanı xalqının səadəti uzun sürmədi. Amerika və İngiltərə imperializminin buyruğu ilə İran mürtəcələri pəncərə-

lərini yenicə bir işıqlı gündüzə doğru açmış qəhrəman xalqın üzərinə qara əsarət bayrağını endirdilər. İşıqlı yollara kölgələr qondu. Ölkəni matəm bürüdü. Zəncan şəhərinin də bahar səmalarını qara buludlar aldı. Hökumə yenicə azadlığa çıxmış xalqının faciəsinə şahid oldu. O, Təbrizdə aparılan mitinqlərdə alovlu bir natiq kimi çıxış edərək Zəncanda gördüyü münasibətləri xalqa nağıl etdi. Vətəninin, xalqının düşmənlərinə qarşı amansız kin və qəzəb alovları onun şair ürəyini dərindən yandırdı, lakin etiqadını sarsıtmadı.

Sən ey insanlığın qudur düşməni,
Hələ qurumamış əllərində qan,
Unutma o yanan odlar vətəni,
Bir gün yapışacaq sənin yaxandan.

Ölməz tarix boyu sənətim, dilim,
Yanıb kül olsa da min dəftər, kitab.
İntiqam hissilə yaşayan elim
Bir gün əməlindən çəkəcək hesab.

Hökumə Billuri "Vətən", "Sonsuzdur düşmənə nifrətim mənim", "Vətənin nicatı tez gələcəkdir" kimi bir sıra şeirlərində vətəni xarabazara çevirən düşmənlərə qarşı kəskin nifrət, amansız kin bəsləyir, onun qəlbi vətənini azad və xoşbəxt görmək ümidilə çırpınır. Onun bu ümid yolu, azadlığı əlindən alınmış, lakin məğlub olmamış böyük bir xalqın – Azərbaycan xalqının qəlbindən qopan intiqam alovları ilə işıqlanır.

ÖVLAD – ÜMİDDİR

"Koroğlu" dastanında maraqlı bir parça var; qılınc-qalxan cingiltisi, döyüş nərələri, mərdlik cəngləri, yürüş şeypurları və zəfər təbillərinin gur səsi içindən qəflətən həzin, kədərli, qəlbin ən dərin guşələrindən gələn bir inilti eşidirik. Bu, analıq həsrətiylə yanan Nigarın səsidir. Nigar öz dərdini qoç Koroğluyla bölüşür:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə.
Toz bürümüş boş beşiyə
Şirin layla çalan yoxdur.

Çənlibeli güllər bəzər,
Güllər saralsa kim üzər,
Hər quş balasıynan gəzər,
Niyə sənin balan yoxdur.

Nə dərd olsa məni tapar,
Sonsuzluq bir yanım çapar.
Yarılqan uçar, toz qopar,
Görərsən ki qalan yoxdur.

"Koroğlu" dastanında təsvir olunan əfsanəvi səfərlər, xariqüladə qəhrəmanlıqlar arasında bu adi, insani duyğu heyrətamiz bir incəliklə işlənmişdir. İgidlik və nikbinlik dastanındakı bu gözlənilməz kədər, bu sonsuzluq dərdi, övlad həsrəti xalq təfəkküründün ən dərin köklərilə bağlıdır.

Xalq "balası olan ölməz" deyir. Bu müdrik sözdə nə qədər böyük fəlsəfi bir məna vardır. Məsələ, insanların cismani övladı olub-olmamasında deyil. Hansı mənada olursa olsun, insanın "yerində qalanı varsa" onun yalnız nəslini deyil, işini, fikrini davam etdirən varsa, o ölümsüzdür. Övlad – gələcəkdir, övlad – ümiddir. Övlad birində sönən həyatın başqasında davamı, ölümsüzlük, əbədiyyət deməkdir.

Hər il iyun ayının 1-də uşaqlar günü qeyd edilərkən insanlar yalnız balalarının, körpələrinin, yəni konkret insanların bayramını etmirlər. Onlar eyni zamanda öz ümidlərini, arzularını bayram edir, gələcəyi salamlayır, həyatın daimilik qanununu alqışlayırlar.

Bizim qonşumuzda adi bir ailə yaşayır. Bu ailədə keçmiş nağıllarda deyildiyi kimi "ay parçası kimi bir oğlan uşağı böyüyür", tumbul, qırmızıyanaq, qıvırcıq saçlı, şirin danışıqlı bir uşaq. Ondan soruşanda ki, "məni çox istəyirsən?". O, məzəli bir uşaq ləhcəsiylə cavab verir: "İstəyirsən".

Doğrudan da biz hamımız onu çox istəyirik. Amma biz onu yalnız bir totuq uşaq kimi, duzlu tələffüz edən bir körpə kimi sevmirik. O, həm də gələcəkdir. Ümiddir. Hamımızın qəlbində yaşayan xoşbəxt, dinc, müharibəsiz, mərəzsiz, firavan, gözəl bir sabah arzusudur.

Bizim ömrümüz həmişə günəşli günlər içində, həmişə baharda keçməyib. Çətin anlar da görmüşük, iztiraba, çətinliyə qatlaşdığımız vaxtlar da az olmayıb. Lakin bizim balaca qonşu, eləcə də dünyanın bütün uşaqları gözəl, işıqlı səhərlərdə yaşayacaqlarsa, biz axşamlarımızın və gecələrimizin dərdini çəkmirik, əgər onların ömrü həmişə

bahar olacaqsa, deməli, bizim çətinliklərimiz də, mübarizəmiz də, əməyimiz də hədər getməmişdir. Əminik ki, belə də olacaqdır, biz əminik ki, balaca qonşu da, dünyanın bütün uşaqları da işıqlı gələcəkdə yaşayacaq. Bu gün öz körpə beşiklərindən durub ilk addımlarını atdıqları kimi, bir gün insan zəkasının beşiyi olan yer kürəsindən qanadlanıb, kosmosda addımlayacaqlar.

Hər dövrün özünə görə adları var. Balaca qonşumuzun adı Azaddır. İnsanın əzildiyi bir vaxtda – insanın mütiliyi, insanın gərəksizliyi dövründə yeni doğulanlara Allahverdi, Allahqulu, Qızbəsti, Qızyetər adları verirdilər. Bugünkü insanın Allah vergilərinə ehtiyacı yoxdur, o heç kəsin qulu deyildir. O Azaddır. Biz heç bir insanı – oğlan olsun, qız olsun, həyatın, dünyanın qapısında: Yetər! Bəsdir! Qayıt! – nidalarıyla qarşılamırıq.

Biz körpələrimizi qəlbimizin şəfqətiylə, gülüşlərimizin mələhətiylə, əlimizin, beynimizin zəhmətiylə, sinəmizin istisiylə qarşılayırıq:

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə
Ayaq tutub gəzəsən.

Bala dadı – bal dadı,
Bala adam aldadır.
Yaxşısına mən qurban,
Pisi yenə bal dadır.

Bu laylaları biz kitabdan oxumamışıq. Analarımızın səsi hələ də qulaqlarımızdadır. Bu laylaları nəsil-nəsil analar bir-birinə ötürmüşlər, bu laylaları nənələrimiz analarımıza çalmış, biz öz övladlarımıza demişik, sabah qızlarımız da nəvələrimizə oxuyacaqlar. Bu laylalar bizə əzizdir. Hər xalqın öz dili, öz mahnıları, öz laylaları ona daha əziz olur. Lakin hələ elə xalqlar, elə ölkələr var ki, laylaları belə azad deyil, orada hər şey, hətta ana laylası belə alış-veriş vasitəsidir. Mən mütərəqqi İslandiya yazıçısı Halldor Laksenssin "Satılmış layla" əsərini xatırlayıram. Adi bir qadının öz balasına oxuduğu sadə, gözəl layla estradalara satılır, yeyib-içib harınlaşmış varlıların bir gecəlik, beş gecəlik əyləncəsi olur. Qoy laylalar körpələrə qaytarılsın, qoy ana qəlbinin dərinliklərindən gələn bu məhəbbət və şəfqət səsi alver vasitəsi olmasın.

Qoy dünyanın bütün uşaqları, hansı ölkədə yaşayırsa-yaşasın, hansı adı daşıyırsa-daşısın – hamısı balaca qonşum kimi azad olsunlar. Qoy onlar xoşbəxt böyüsünlər. Qoy onlar xoşbəxtlik üçün böyüsünlər. Onlar ümiddirlər, onlar sabahdırlar.

QAYINANALAR DA GƏLİN OLUB

Müharibə illəri tanışlardan birinin cəbhədən qara xəbəri gəldiyini eşidib onun evinə getdim. Darısqal otaqda gəlin-qayınana baş-başa verib xısın-xısın ağlayırdılar. Uşaqlar duyuq düşməsin deyə, yavaşdan, gileylənə-gileylənə ağlayırdılar. Ana oğlunun köynəyini bağrına basmışdı. Ölüm xəbəri tez yayılır. Qonşular eşidib gəldilər. Ana onları görəndə, "hər kəsin evində yarsız gəlini var, mən ona qurban" – deyib ağladı.

Müharibənin yarsız qoyduğu gəlinlər... Onların sayı-hesabı yox idi.

Sonralar 20-25 il ərzində mən bu ailənin dolanacağına diqqət yetirdim. Yeganə oğlunu itirmiş ana ilə sevgili ərini, uşaqlarının atasını itirmiş cavan gəlin, dar gündə özlərini itirmədilər, böyük bir əzm və iradə ilə əl-ələ verib bütün çətinliklərə sinə gərdilər, uşaqları böyütdülər, oxutdular, hərəsini bir yana çıxartdılar. Dövlətin yardımı ilə şəhid əsgərin ailəsi təqaüdlə təmin olundu, üçotaqlı, işıqlı, geniş mənzilə köçdü. Qayınana vəfat edəndə böyütdüyü nəvələr onun cənazəsini çiyinlərində apardılar.

Müharibə illəri bütün xalq ağır sınaq qarşısında vahid bir ailəyə çevrilmişdi. İnsanlar daha qayğıkeş və mehriban olmuşdular.

Çətin sınaq günlərində böyük iradə, fədakarlıq və nəcabət göstərən, qayınanalarına oğlunu əvəz edən, uşaqlara həm ata, həm ana olan gəlinlər nə üçün dinc quruculuq dövründə, rahat və firavan yaşadığımız günlərdə, bəzən qaynana ilə bir-birlərini başa düşmür, ümumi dil tapa bilmirlər?

Çingiz Aytmatovun "Ana tarla" əsərini xatırlatmaq istəyirəm. Tolqonaq ərinin və üç oğlunun cəbhədən qara xəbərini alır. Evdə cavan və göyçək gəlini Alimanla ikisi qalmışdır. Tolqonaq dərdinin ağırlığına baxmayaraq, kolxozda briqadir işləyən ərini əvəz edir. Aliman taxıl zəmilərində kolxozçu qızlarla bərabər işə çıxır. Hər ikisi kəndin qocalarını, körpələrini, cəbhədə vuruşan əsgər balalarını ac qoymamaq

üçün bütün qüvvələrini sərf edirlər. Bu sadə, zəhmətkeş qadınlar böyük səmimiyyətlə bir-birlərinə bağlanmışlar. Bir neçə günlüyə öz elinə gedən Aliman başa düşür ki, bircə gün də istəkli qayınanasından ayrı yaşaya bilməz. Bu ayrılıq gecəsində qayınananın da yatağına sanki qor dolur. Səhərəcən yata bilmir, səhər tezdən avtobusla qonşu kəndə, gəlininin dalınca gedəndə, gəlinə yolda rast gəlir. Aliman da qayınanasının yanına tələsir. Hər ikisi qucaqlaşır, öpüşürlər. Nəcabətin, sədaqətin bu yüksək zirvəsi ən daş ürəkləri belə sarsıtmaya bilməz.

Yenə də ədəbi əsərlərdən birinə müraciət etmək istərdim. Keçən əsrin məşhur dramaturqu A.N.Ostrovski "Tufan" əsərində Kabanixa ləqəbli bir qayınana surəti yaratmışdı. Kabanixa köhnə feodal cəmiyyətinin adət və ənənələrini böyük bir ehtirasla qoruyub saxlamaq, cavanları da bu cəmiyyətin qeyri-insani qanunlarına tabe etmək, gəlini itaətkar qul görmək əzmindədir. Sevgili arvadının qüsur və günahlarını bağışlamaq istəyən oğluna qarşı Kabanixa amansızdır. İradəsiz oğul anasının tabeliyindən çıxa bilmir, cavan gəlin Katerina məhv olur.

Rus ədəbi tənqidi o zaman Katerinanı "zülmət səltənətində işıq şöləsi" adlandırmışdı. O, doğrudan da zülmət içrə bir nur idi. Orda məsələ gəlin-qayınana ziddiyyətlərində deyildi. Bu, ictimai ziddiyyət idi. Dünyagörüşünün, əxlaq normalarının, köhnəlik ilə yeniliyin arasında gedən ictimai mübarizə idi.

Ailə xalqın, cəmiyyətin bir hüceyrəsidir, bu hüceyrə sağlam və gözəl olarsa, cəmiyyət də, xalq da sağlam və möhkəm olar.

Gəlin-qayınana arasında xoşa gəlməyən sözlər, atmacalar, kobud və qaba rəftar köhnəliyin, avamlığın, meşşanlığın qaranlıqlarıdır. Gəlinə "yad qızı" damğasıyla soyuq münasibət bəsləmək, pisikdirmək, qohum-əqrəbasını saymamaq, yaxud qayınananın bəzən avamlıqdan, cəhalətdən doğan kəsirlərini qabartmaq kimi hallar ailə səmimiyyətinin növrağını pozar, ailədə xoş bir ahəng yaranmasına mane olar.

Bəzən belə xoşagəlməz sözlər eşidirsən: "Filankəs ərindən qorxmur, ərindən qorxsa, qayınanasına hörmət edər". Qorxu, hörmət və məhəbbət doğura bilməz. Qorxu yalnız kin və küdurət, nifrət hissi doğurar. Hörmət də, məhəbbət də qarşılıqlı münasibətlərdən doğan yüksək və nəcib hissdir. Hörmət və məhəbbət hissinin doğub yaşaması üçün əlverişli, münbit zəmin gərəkdir. Gözəl hisslərin yaşayıb çiçəklənməsi üçün zəmin olmadıqda, bu hisslər sönüb gedər, kinə, küdurətə çevrilər, soyuq və xoşagəlməz hallar yaranar. Deyərdim ki, pis gəlin,

yaxud pis qayınana yox, pis insan var. Pis adamlar isə hamıya qarşı bədxah olurlar.

Bir-birinin heysiyyətinə toxunmaq, bir-birinə yuxarıdan aşağı baxmaq, ürək sındırmaq, lovğalıq, kobudluq ancaq daxilən boş adamların, mənəviyyatı kasıb və çürük adamların xüsusiyyətidir. Özündən razılıq, acı söz, kobud rəftar, lovğa və laqeyd davranış gərəksizdir, ziyanlıdır.

Aşıq deyişmələrindən birində deyilir:

O nədir ki, gələr keçər,
O nədir ki, mələr keçər,
O nədir ki, dələr keçər,
Ağrısı çox, qanı olmaz?

O ömürdür gələr keçər,
O güllədir mələr keçər,
Yaman sözdür dələr keçər,
Ağrısı çox, qanı olmaz.

Qoy, qayınanaların, gəlinlərin ürəyində "ağrısı çox, qanı olmaz" yaralar olmasın.

Hörmətli qayınanalar! Yeni ailə şəraitinə düşən, təzə mühitə hələ yaxşı isinişib alışmayan, ata ocağı, ana qucağı üçün qəribsəyən cavan gəlinlərin keçirdiyi ruhi hallar gərək sizə yaxşı bəlli olsun. Axı siz də bir zaman gəlin olmusunuz!

Əziz gəlinlər! Ananın həyatından oğlu silib atmaq mümkün deyil. İnsan qocalanda daha kövrək olur. Qayğıya, nəvazişə daha çox ehtiyac duyur. Mehribançılığınızı qocalardan əsirgəməyin. Axı siz də qocalacaqsınız, qayınana olacaqsınız.

İmamverdi Əbilovun "Azərbaycan qadını" jurnalının 1977-ci il 8-ci nömrəsində dərc olunmuş "Gəlinlər qayınana olur" adlı məqaləsini mən də oxudum. Bu məqalə ilə əlaqədar redaksiyaya gələn oxucu məktublarının bir hissəsi ilə də tanış oldum. İmamverdi müəllimə anaların əməyinə verdiyi yüksək qiymət üçün analar adından təşəkkür edirəm. Bu məqalə eyni zamanda qadın-ananın şərəfinə deyilmiş bir himn kimi səslənir. Ana zəhməti böyükdür. Uşaqları böyüdüb boya-başa çatdırmaq, ananın həm borcu, həm də şərəf işidir.

Yeni ailə quran gənclərin qayğı və nəvazişə ehtiyacı çox olur. Təzə ailəyə düşmüş təcrübəsiz gəlinlərin əskik işlərini, nöqsan və kə-

sirlərini şişirdib qonum-qonşuda danışmaqdansa, keçdikləri böyük həyat təcrübəsi, bilik və bacarıqları ilə gəlinlərinə kömək eləsələr, qayınanalar daha yaxşı iş görmüş olarlar.

Gəlin-qayınana ziddiyyətləri ictimai ziddiyyətlər, olsa-olsa xırda məişət ziddiyyətləri ola bilər. İndiki qayınanalar orta hesabla götürsək, əlli-altmış yaşında qadınlardır. Bu qadınlar əmək adamlarıdır, onların çoxu ya işləyir, ya da dövlətdən təqaüd alırlar. Onların oğul və gəlin qazancına ehtiyacı yoxdur.

"Gəlinlər qayınana olur" məqaləsi ilə əlaqədar olaraq redaksiyaya gələn məktublar içərisində maraq və narahatlıq doğuran məktublar da var.

Bu məktublardan birində oxuyuruq:

"Qayınanam məni boşatdırdı. Dedi ki, oğluma öz qohumumu alacağam, qohumun bizə canı yanar. Qohumunu aldı, bir ildən sonra onu da boşadılar. Üçüncü bir arvad aldılar, yəqin ki, o da bizim kimi olar".

Əziz bacım, sizə onu deməliyəm ki, burada məsələ yalnız pis qayınana məsələsi deyil. Bəlkə də bir çox başqa işlərdə anasının sözünə baxmayan oğul, nədənsə tez-tez arvad alıb boşamaq məsələsində itaətkar oğul olur, iradəsizlik göstərir. Belə adamları cəmiyyət ifşa etməli, töhmət etməli, şüuruna təsir göstərməlidir. Bu xüsusi məsələ deyil, ictimai məsələdir, pozğunluqdur. Belə adamlar yalnız alıb boşadıqları qadınları bədbəxt etməklə qalmır, eyni zamanda uşaqların həyatını şikəst edir, qəlbisınıq böyüməsinə səbəb olur.

Uşaqlar normal həyat şəraitində böyüməlidirlər. Uşağın həm atası, həm anası olmalıdır. İndi elə asanlıqla atdığınız körpələr, böyüyüb yetişəndə, sizə "ata" deməyib rədd edəndə onlara "nanəcib" övlad kimi baxmağa haqqınız yoxdur.

Qayınanasından, ər qohumlarından razılıq hissi ilə, məhəbbətlə yazanlar da az deyil. Bu məktubları oxuyanda insanda fərəh hissi oyanır, ürəyimiz bahar təravəti ilə dolur.

İnsanlara məhəbbət, qayğı, geniş dünyagörüşü olan qadınlar birbirinə münasibətdə daha təmiz, daha saf, daha büllur hisslərlə yaşamağı bacarırlar, o zaman həyat da gözəl olur.

SAĞLIQLA QAL, YAXIN QONŞU!

Moskvadan bizi Türkiyəyə yola salan bir dostumuz "gələndə qərənfil gətirin", – dedi. Dostumuzun arzusunu unutmamışdım. Biz Ankaranı tərk edib "Esen boğa" aerodromuna doğru yola düşəndə Türkiyənin qərənfilləri hələ yuxuda idi. Üfüqdən görünən ilk qızartılar şəhli qərənfilləri oyatmağa gedirdi. Türklər laləyə gəlincik, yasəmənə leylak deyirlər. Asfalt yolun hər iki tərəfində yaşıl otlar və taxıllar arasından boylanan lalə-gəlinciklər bizə sanki salam göndərir, qara-qırmızı başlarını sübhün həzin nəsimi altında yırğalayırdılar. "Esen boğa" aerodromuna maşınla bizi Arif Heydərov gətirdi. Arifin nəzakətli bir diplomat və istiqanlı bir adam olduğu gözümdən qaçmamışdı. O bu şəhərin, bu gözəl ayrılıq şəhərinin poeziyasını duyaraq – baxın, nə gözəl şəhərdir, – dedi. Doğrudan da şəhərin çox təmiz gözəlliyi vardı. Belə həzin bir şəhərdə dostlardan, əzizlərdən ayrılmaq çətin idi. Türk yazıçısı Rəşad Nurinin sözlərini xatırlayıram: insan yaşadığı yerlərə, bərabər bulunduğu insanlara görünməz tellərlə bağlıdır. Ayrılıq zamanı bu tellər gərilər, qopar, kaman telləri kimi sızlamağa başlarlar. Təyyarə meydanına addımladığım zaman ürəyimdə bu gərilib qopan kaman tellərinin acı sızıltısını duydum. Əlvida, Türkiyə, yaxın qonşu, sağlıqla qal! Yamacların, düzlərin həmişə lalə-gəlinciklərlə dolu olsun, leylak-yasəmənlərin həmişə ətir saçsın.

Dünyada insanın xoşbəxt yaşaması üçün əsas şərtlərdən biri də qonşu ilə münasibətdir. Səhər-səhər evdən çıxıb işə gedəndə pilləkəndə üz-üzə gəldiyiniz qonşu gülərüzlə sizə – sabahınız xeyir, deyib, hal-əhval soruşsa evdən qanıqara çıxmış olsanız belə, könlünüz açılar, dodağınıza xoş təbəssüm qonar. Əgər bu sadə həqiqəti böyük siyasət aləminə keçirsək, demək olar ki, yaxın qonşularla münasibət yaxşı olsa, xalqlar da qorxusuz və rahat yaşar, dinc bir əhval ilə qurar, yaradar.

Təyyarədə türk şairi Fazıl Hüsnü Dağlarca bizimlə bərabər uçurdu. O, Moskvaya, Puşkinə həsr olunmuş poeziya yığıncaqlarında iştirak etmək üçün gedirdi. İstanbulda yazıçı Oktay Akbal gəlib bizi Hüsnü Dağlarca ilə görüşə apardı. Fazıl Hüsnünün ağ sarayda "Kitab" adlı kitab mağazası var. Biz oraya getdik, lakin "Kitab" bağlı idi. Dağlarca Moskva səfərinə hazırlaşdığı üçün mağazanı bağlamışdı. Şair bu "Kitab"da sərgilər düzəldir, təzə şeirlər yazıb vitrinə qoyur, şairlər buraya toplaşıb şeir oxuyurlar. "Kitab" bir növ poeziya klubudur demək olar.

Hər xalqı başqa xalqdan ayıran ümumi bir cəhət olur. Məndən soruşsalar ki, türklərin bu xüsusiyyəti nədir? Nəzakətdir – deyərəm. Şirin dilli, mehriban təbiətli, xoş rəftarlı, qonaqpərəst xalq. Türkiyəyə keçənilki səfərimizi İstanbuldan başladıq. Birinci diqqətimi cəlb edən bu nəzakət oldu. Kobud bir söz, köntöy bir hərəkət, bədrəftar görmək mümkün deyildi. Otellərdə, yeməkxanalarda qadın xidmətçiyə rast gəlmək olmaz. Burada cəld və iti işləyən cavan oğlanların rəftarı xoş, üzü gülərdir. Əvvəlcə mənə elə gəldi ki, Avropa ilə təması olan, daha doğrusu, bir qolu Asiyada, bir qolu Avropada olan bu şəhərin mədəni və xoş davranışı, xoş rəftarı Avropa mədəniyyətindən gələn bir cəhətdir. Lakin sonralar ölkənin içərisinə, dərinlərinə getdikcə başa düşdüm ki, bu xasiyyət mənbəyini xalq arasından alır, kəndlərdən, qəzalardan böyük şəhərlərə gələn bir keyfiyyətdir. Oteldə işləyən cavan oğlandan xəbər aldım: – Əhməd, nerəlisən? – Erzincandanım, xanım efendi. – Yusif, sən nerəlisən? – Erzurumdanım, xanım efendi.

Axşam olanda "iyi gecələr, xeyirli gecələr", yola çıxanda, "İyi yolçuluqlar", ayrılanda "gülə-gülə", "xoşça qalın", "Allaha ismarladıq" tez-tez eşitdiyimiz sözlər idi. Şəhərlərarası yollarda "xoş gəldiniz", "səlamətlə", "iyi yolçuluqlar" və başqa bir çox xeyirxah sözlər iri hərflərlə yazılıb asılmışdı. Ağzı xeyir-dualı, üzügülər, xoş rəftarlı xalqın nəzakət fitri və təbii xüsusiyyətdir.

"Esen boğa" aerodromunda maşınla Ankaraya girdiyimiz zaman şəhər axşam işıqlarını yandırmışdı. "Bulvar Palas" otelində yerləşdikdən sonra, şəhərin axşam mənzərəsinə tamaşa etmək üçün şəhərə çıxdıq. Ankara təpələrlə əhatə olunmuş çox böyük vadidə yerləşir. Şəhərin işıqları vadidən qalxıb bu təpələrin üstünə dırmaşır, təpələri də aşıb keçirdi. Çankayaya qalxıb ordan şəhəri seyr elədik.

Ankarada olduğumuz ilk günlərdə bir axşam doktor Birsən xanım bizi evinə qəhvə içməyə dəvət elədi. Onun dördotaqlı mənzili sadə və incə zövqlə düzəldilmişdi. Burada lazımsız, gərəksiz şeylər, bayağı və ucuz modalı bəzək-düzək görmək mümkün deyildi. İş otağında işgüzar bir adamın özü üçün yaratdığı iş şəraiti nəzərə çarpırdı. Yazı masası, masanın arxasında kitab rəfləri, təbiətə aid ingilis, alman və türk dillərində çoxlu kitablar, yuxarı qatda insan kəlləsi. Otağın başqa guşəsində, doktorun işdən yorulanda dinlədiyi musiqi valları Bax, Bethoven, Şopen, lentə yazılmış Azərbaycan musiqisi... Birsən bizi gülər üzlə qarşıladı. Əynində qırmızı qərənfil rəngdə paltar, boynunda sədəf muncuq vardı. – Nə gözəl bəzənmisən, doktor, – dedim.

– Sizin üçün süslənmişəm, – deyə gülüb məni qucaqladı.

Qonaq otağına keçib təzəcə kresloda oturmuşduq. Telefon zəng çaldı. Birsən dəstəyi götürüb danışmağa başladı, üzü ciddi bir hal aldı. Telefonla – indi gəlirəm, – dedi, dəstəyi asıb cəld plaşını geydi, bizdən üzr istəyib sürətli addımlarla pilləkəndən aşağı qaçdı. Pəncərədən onun dalınca baxdım. Qapıda hazır dayanmış fildişi rəngli maşına mindi, ağəlcəkli əlləri ilə mənə vida işarəsi edib maşının rulundan yapışdı. Gənclik cəldliyi ilə sürüb getdi. Yuxarıda, yasəmənli yamacın başında Mustafa Kamal Atatürkün Anıt qəbri görünürdü. Qaranlıqda Birsənin ağ göyərçin kimi çırpınan əli bir daha göründü, sonra yox oldu. Birsən cərrah, həkim-onkoloq idi. Onun əri də həkim idi. O bizi məşğul etmək üçün musiqi çaldırır. – Birsən tez qayıdar – deyirdi. – Gündüz əməliyyat apardığı xəstənin halı bir az qarışıb, onsuz da keçərdi, xəstəxanada növbətçi həkim var. Birsən xəstələrinə çox diqqətlidir. Onun bu xasiyyətini bildikləri üçün gecə-gündüz, nə zaman olsa, çağırırlar, yox, deməz, gedər, – dedi.

Sonra doktor bizə türk qəhvəsi bişirib gətirdi. Biz zarafatla: indi sizi də çağırarlar, siz də gedərsiniz, – dedik. Gənc doktor gülüb – getmərəm, – dedi. Həkimlik sənəti ən humanist peşədir. Bu gənclərin insan həyatı uğrunda belə fədakarlıqla çalışmaları bizi sevindirirdi. Hər ikisi çox gənc idi, buna baxmayaraq məsuliyyət hissi, yüksək hazırlıq və həssaslıq bu gənclərə hörmət hissi oyadırdı.

Pəncərənin qabağında dayanıb Birsənin dalınca xeyli baxdım. Qarşı yamacdan güclü yasəmən ətri gəlirdi. Nədənsə keçənilki səfərimiz zamanı İzmir şəhərində gördüyüm gənc qızları xatırladım. Doktor musiqi vallarını çevirirdi. Musiqi bəzən insanı çox uzaq xatirələrə aparır, yaddan çıxmış həyat səhnələrini yeni bir qüvvətlə insanın yadına salır.

İzmirə Egey dənizinin incisi deyirlər. Bu şəhər doğrudan da incidir. Bir gün ərzindəki tanışlığımız zamanı bu şəhərin gözəlliyinə heyran olduq. Yaşadığımız "Büllur" otelinin qabağındakı şəhər parkında ümumdünya yarmarkası üçün hazırlıq gedir, pavilyonlar tikilib başa çatdırılırdı. Sovet pavilyonuna tamaşa etdik. İzmirin yüksək yerlərindən birində yerləşən cameyə getdik. Camenin qapısında ayaqqabılarımızı çıxarıb içəri girdik. Dərs otağına daxil olduq. Sıra-sıra kürsülərdə qız uşaqları oturub molla dərsi keçirdilər. Sinifdə xəritə, yer kürəsi və başqa fizika-coğrafiya elmlərinə aid cisimlər də var idi. Türkiyədə ruhani məktəblərdə əcnəbi dil də öyrədirlər.

Dərsə mane olmamaq üçün sinifdən keçib camenin içinə girdik. Burada məktəbin şagirdlərindən bir neçə qız uşağı camenin içini silib-süpürməklə məşğul idi. Onlar müasir vasitələrdən istifadə edib elektrik tozsiləni ilə işləyirdilər. Bizi görüb yanımıza gəldilər. Başları yaylıqla bağlı olan bu qızların sir-sifətindən şeytanlıq yağırdı. Gələcəkdə bunların molla, hacı-xacə olacaqlarına adam heç inana bilmirdi. Bu sağlam, qırmızıyanaqlı kəndli qızlarına çoxuşaqlı ana olmaq, dana-buzov bəsləmək, gül yetişdirmək, bağ-bostan becərmək, canlı həyatla əlləşmək, gülmək, sevinmək, hər şey, hər şey yaraşırdı, amma bu dünya sevinclərindən əl çəkib, o dünya nemətlərinin təbliğatı ilə məşğul olmaq heç yaraşmırdı. Qızlardan birisinə:

– İsmin nə? – dedik.

– Kəzbandır, – dedi.

– Mənimki Fatimə.

– Mənimki Nurtacdır.

– Mənimki Birgül.

– Mənimki Gülsən.

– Mən Aişəyim.

– Hansımızın adı gözəldir? – deyə qızlar bir-bir qımışmağa başladılar.

– Hamınızınkı gözəldir, özünüz də gözəlsiniz, adınız da!..

Qızlar nə isə aralarında pıçıldaşıb gülüşdülər. Ürəyimdə – yaman da sizdən molla olar, – deyə düşündüm.

Birsən Norveçdən bir ay əvvəl qayıtmışdı. Bir il orda həkimlik təcrübəsi keçmişdi. Bütün öyrənib bildiklərini xalqın xeyrinə, sağlamlığına işlətməkdə canını əsirgəmirdi. Onu çox sevdim. İşgüzarlığı, həssaslığı və ciddiliyi məni valeh etdi.

Ankaradan ayrılarkən könlümdə bu Ankara qərənfilinin hərarətli və mehriban xəyalını gətirdim.

Bir gün axşam biz Ankara – "Ho" – yəni "Halk oyunları" teatrında Erol Toyun "Pir Sultan Abdal" pyesinə tamaşa elədik. Səhnədə üç aşıq oturmuşdu. İkisi səhnənin kənarında, birisi ortada. Onlar tambur çalıb oxuyur, türkülər söyləyirdilər. Sonra aşıqlar çəkilib gedir, aşıqların oxuduğu türkülər mövzusunda səhnələr göstərilirdi. Bu əsər XV əsrdə yaşamış türk şairi Pir Sultan Abdalın həyat və mübarizəsini təsvir edən bir səhnə əsəri idi. Aşıqların oxuduğu gözəl şeirlər məndə bu şairə maraq oyatdı. Pir Sultan Abdalın həyatı çoxdan bəri xalq dastanına çevrilmişdir. Bu gün də canlıdır, yaşayır və sevilir.

Xalq oyunçuları teatrının bu şairin həyatından bəhs edən bir pyesi tamaşaya qoyması təsadüfi deyil. Pir Sultan Abdal haqqında əfsanə çox müasirdir, bu günlə səsləşir. Əfsanənin qısaca məzmununu yazmaqla oxucuları pyesin məzmunu ilə də tanış etmiş olaram. Əlbəttə, əfsanə eyni ilə köçürülməmiş, müəllif tərəfindən xeyli işlənmiş və axırı dəyişdirilmişdir.

Real, mübariz, eyni zamanda incə və kövrək şeirləri, mərd həyatı və mübarizəsi ilə xalq arasında bu gün də yaşayan şairin dastana dönmüş həyatı belədir. Deyilənə görə, Pir Sultanın nəsli Yəməndən gəlmişdir. Özü Sivasın Banaz kəndində doğulmuşdur. Pir Sultan Səfəvilər tərəfindən Osman oğulları əleyhinə təşkil edilmiş yetmiş adamdan ibarət olan dəstəyə başçılıq etmiş, üsyan hərəkatına qoşulmuş Xəzər Paşa adlı bir osmanlı vəziri tərəfindən Sivasda asılmışdır. Rəvayətə görə, həmin Xızır Paşa əvvəlcə ələvi olan Sufilər kəndindən imiş. Pir Sultanın muridlərindən olmuş, yeddi il onun yanına gəlib – Pirim, mənə kömək elə, İstanbula gedim, böyük rütbə sahibi olum, – demişdir. Pir Sultan – Xızır, vəzir olsan, gəlib məni asarsan, – demiş.

Xızır İstanbula gəlir, rütbələr qazanır, yüksəlir, nəhayət, Paşa olub Sivasa təyin edilir. Sivasa gəlincə ilk işi Pir Sultanı axtarmaq və onu hüzuruna çağırtdırmaq olur. Ona yemək təklif edir. Pir Sultan – Xızır, sən xəyanət etdin, mən sənin çörəyini yeməərəm, – deyir. – İtlərin də sənin çörəyini yeməz.

Həyətdən iki iti səsləyir, itlər qaça-qaça gəlirlər, itlərin qabağına yemək atır, itlər yeməyib gedirlər.

Xızır Paşa qəzəblənir, Pir Sultanı torpaq qalaya saldırır. Bir müddət sonra yenə çağırtdırıb deyir: üç şer söylə, içində şahın adı olmasın, səni bağışlaram. Pir Sultan söylədiyi şeirlərdə şahın adı çəkilir. Xızır Paşa Pir Sultanı asmağı əmr edir. Şair dar ağacına gedərkən şeir söyləyir. Pir Sultan asıldıqdan sonra, ertəsi günü qəhvəxanaya yığışanlardan birisi: Xızır Paşa Pir Sultanı asdırdı, – deyir. Bir başqa adam: ola bilməz, – deyir, – mən onu bu sabah – Koç Pisar yolunda, seyfi belində gördüm. Bir başqası, – Mən onu Malatya yolunda, Qardaşlar aşırımında gördüm. Bir başqa adam: mən onu Yenihan yolunda, Tavra boğazında, filan yerdə, filan yerdə gördüm, – deyir.

Bu işə çaş-baş olan adamlar yığılıb dar ağacının yanına gəlirlər. Gəlib görürlər ki, dar ağacından Pir Sultanın çuxası (xırkası) asılmışdır. Özü isə yoxdur. Pir Sultan asıldıqdan sonra dar ağacından düşür, yola çıxır. Dalınca casuslar düşür. Şair Qızıl İrmak körpüsündən keçir.

"Gəl körpü" deyir, körpü suya batır, onu təqib edənlər bəri yanda qalırlar. Pir Sultan şeirlərindən birində deyir: "Pir Sultan ölür, dirilir. Pir Sultan Xorasana getmiş, ordan Ərdəbilə keçmiş, orda vəfat etmiş və basdırılmışdır", deyirlər. Deyilənə görə, Pir Sultanın üç oğlu və bir qızı varmış, qızı şair təbiətli olmuşdur. Bu şerin Pir Sultanın qızının olduğu güman edilir:

Uzundu, üsuldu dədəmin boyu,
Yıldızlar yaylası Banazdır göyü,
Yaz bahar ayında bulanır suyu,
Sular ağlar-ağlar, Pir Sultan deyə.

Pir Sultan qızıydım mən də Banazda,
Qanlı yaş axıtdım baharda, güzdə[1]*.*
Dədəmi asdılar qanlı Sivasda,
Dar ağacı ağlar, Pir Sultan deyə.

Kəməndini atdım, dara dolaşdı,
Kafirlərin əli qana bulaşdı.
Qoyun gəldi, quzuları mələşdi,
Qoçlar da ağlaşır, Pir Sultan deyə.

"Ho" teatr kollektivinin çox uzaq keçmişdə yaşayıb-yaratmış bir xalq şairinin, xalq qəhrəmanının əfsanəvi həyatına müraciəti, mübariz bir şair surətinin yenidən canlanması bu gün də çox-çox aktualdır. Xalq arasından çıxmış, rütbələri, mənsəbləri artdıqca xalqdan aralanmış, kütləşmiş, zalım və insafsız olmuş, xalq arzu və ehtiyaclarına tamamilə biganə olmuş mənsəb sahiblərinə Xızır Paşa surəti ibrətamiz bir örnəkdir.

Səhnənin ortasında Pir Sultan əyləşmiş, bir dəstə oğlan və bir dəstə qız onun dediyi şeirləri xorla təkrar edirlər:

Qalxın, canlar, bir olalım
Münkirə qılınc çalalım
Yoxsulun haqqın alalım.

Qadın və kişi xorunun birlikdə təkrar elədiyi bu sözlər səhnədən xüsusi bir qüvvətlə səslənirdi. Tamaşanın başqa bir şəklində üzü yaşmaqlı utancaq bir kəndli qızı görünür. Bu, şairin sevgilisidir. İctimai ədalətsizliyə, haqsızlığa, zorakılığa qarşı cəngavər olan şair, gözəllik, incəlik, məhəbbət qarşısında diz çökür, səcdə qılır. O, sarı tamburunu döşünə sıxıb incə-incə türkü söyləyir:

[1] Güz – payız

Türlü donlar geyər, güldən nazikdir,
Bülbülə cur etmə, ey gül, yazıqdır.
Çox həsrətin çəkdim bağrım əzikdir,
Gülə-gülə gəlir canlar pərisi.

Bənim uzunboylu salan çinarım
Ürəyimə bir od düşdü, yanarım,
Qiblam sənsən, üzüm sana dönərim,
Mehrabımdır, qaşlarının arası!

Pir Sultan Abdalım, yüksək uçarsın,
Salamsız, sabahsız, gəlib keçərsin.
Dilbər, məhəbbətdən niçin qaçarsın,
Böyləmidir yolumuzun tirəsi?

Başqa bir eşq şerində üzünü sevgilisinə tutub oxuyur:

Bu gözəlin aşiqiyəm, ağalar,
Onun üçün daşa dutar es bəni.
Gündüz xəyalımda, gecə düşümdə[1]*.*
Qumdan quma savuruyor yol bəni.

Reyhanını devşir-devşir dəstələr,
Mən dəliyəm, ögüd verib pəst elə.
Düşmanımı əl yanında dost elə,
Bir gecəcik mehman elə sor bəni.

Ağ gül olsam, ağ yanağa soxulsam,
Gülab olsam, ağ yüzünə saçılsam,
Gedən olsam, bazarlarda satılsam
"Köləm" deyə ağ sinənə al bəni.

Pir Sultan Abdalam, qəmzəsi okdur,
Həzəran sinəmdə yaralar çoxdur.
Mənim səndən özgə sevdiyim yoxdur
İnanmazsan, ol Allaha sal bəni!

Uzaq keçmişin bu məğrur mübarizi və incə rübablı aşığı, ilahiyyatdan, o biri dünya nemətlərinin tərənnümündən çox uzaq olan real

[1] Düş – yuxu.

varlıqla yaşayan, mühitinin nəbzini tutmağı bacaran, mühitinin havası ilə tənəffüs edən bir sənətkardır.

O, ağaclara, quzulara şeir deyər, quzusunu qurd aparmış qoyunun halına yanar.

Dərəyə aşağı gedər qurd izi,
Qurd ağzında gördüm bir körpə quzu.
Sevərsən mövlayı, ağlatma bizi,
Gəl, qoyun, mələmə, vaz keç quzundan.

Ağacları seyr edərkən aldığı təəssüratı belə ifadə edir:

Çiçək açar, domru-domru dal verər,
Kimi uzar, bir-birinə əl verər,
Kimi meyvə verər, kimi gül verər,
Quşlar üstündə dillənər ağaclar.

Kəndlinin ən yaxın köməkçisi olan öküzü də yaddan çıxarmaz.

Öküzün damını alçacıq yapın,
Yaş qoman[1] altına quruluq səpin.
Qoşumdan qoşuma gözlərin öpün
İrəcbərlər, xoşca tutun öküzü.

Pir Sultan Abdal tutduğu yolun haqq yolu, ədalət yolu olduğuna inanan bir sənətkardır. Onu asmaq, kəsmək istəyən, hədə-qorxu gələn paşalara, sultanlara meydan oxuyur, gələcəyə böyük inam bəsləyir:

Gögəribən mən də bostan olarsam,
Ellərin dilinə dastan olarsam,
Qara torpaq, səndən üstün olarsam,
Mən də bu yayladan şaha gedərəm.

"Ho" teatrının binası çox dərin, anbar kimi bir yerdə yerləşmişdir. Tamaşa zamanı adamın ürəyi darıxır, hava çatışmır. Buna baxmayaraq salon ağzına kimi doludur, boş yer yoxdur. Teatrın aktyor kollektivi fədakar adamlardı. Başda rejissor Umur Buğay olmaqla bu kollektiv çətin şəraitdə böyük işlər görür. Pir Sultan Abdal rolunda çıxış edən aktyor Tuncer Nəsmioğlu, Xızır Paşa rolunda Colak və bütün kollektiv bu əsərdə müvəffəqiyyətlə çıxış edir. "Ho" teatrı İstanbulda da tamaşalar verir. Teatrın kollektivi bütün işləri özü görür, bütün işləri özləri idarə edir.

[1] Qoman, yəni ayın.

Tamaşa bitdikdən sonra teatrı tərk edərkən gözəl bir şairin həyatı ilə tanış olduğum üçün sevinirdim, həm də çətin şəraitdə çalışan istedadlı və fədakar aktyor kollektivinə böyük rəğbət hissi duyurdum.

Tamaşadan qayıdandan sonra uzun zaman yuxuya gedə bilmədim. Nədənsə uşaq vaxtı yaylağa getdiyimiz Gəncə dağları, Xaçbulaq, Ağbulaq, Muşavak, Pir Sultan dağını xatırlamağa başladım. Kim bilir, bəlkə dar ağacından qurtarandan sonra Pir Sultan Abdal Gəncə yaylaqlarına qədər getmiş, bu dağı da onun adı ilə bağlamışlar. Şeir üçün, sənət üçün şahların, sultanların qoyduğu sərhədlərin nə əhəmiyyəti ola bilər? Sənətkar və sənət əsəri ən yüksək zirvələri belə aşıb keçmək qüdrətinə malikdir. Bəlkə Pir Sultan şair Gəncə aşıqlarının məclisində Pir Sultan dağının qonağı olmuşdur. Kim bilir?

Səhər Rəsul ilə birlikdə sovet səfarətxanasına getdik. Arif Heydərovla görüşdük. Rəsul Arifə yuxarı mərtəbəyə qalxdı. Mən Arifin iş otağında qaldım. Qapıdan çıxarkən Arif qəzet və jurnalları göstərib: – Darıxmayın, bunlara baxın, – dedi. Gözüm ərəb əlifbası ilə basılmış tanış bir kitaba sataşdı. "Molla Pənah Vaqif" ...Əzizim, xoş gördük, sən Türkiyə torpağına xoş gəlmisən, o gün olsun ki, Sabir gəlsin, Mirzə Cəlil, Mirzə Fətəli Axundov gəlsin bu ölkəyə... Hər cürə kitabla dolu olan kitab mağazalarında yeriniz elə görünür ki!.. "Vaqif"i götürüb vərəqləməyə başladım. Dünya nemətlərini, həyat zövqünü, gözəlləri tərənnüm edən şair, al yanaqlı, ağ buxaqlı, mina gərdənli, sürahi boylu gözəllərin vəsfindən doymayan şair, hansı mənəvi sarsıntılar nəticəsində bu "Görmədim" şerini yazdın? "Heç birində aqibət bir zövqi rahat görmədim". Əlbəttə, əzizim "alilər xaki məzəllətdə, dənilər mötəbər" olan bir zəmanədə, şair üçün belə şikayətli, gileyli, küskün olmamaq mümkün olan şey deyildi.

Qapı açıldı, Rəsul Azad Şərifovla gəldi. Azad bizi maşınla otelə apardı. Otelin qabağında bir neçə adam dayanıb bizi gözləyirdi. Tanış olmadığımız bu adamlar bizə yanaşıb görüşdülər, hal-əhval soruşdular. Əlli-altmış ildən bəri vətəndən ayrı düşmüş bu adamlarda Azərbaycana olan maraq və məhəbbət böyük idi. Onların arasında çox gənc bir oğlan var idi. O, Türkiyədə doğulmuş azərbaycanlı gənclərdən idi. Keçən il turist kimi Bakıya gəlmiş, bakılı gənclərlə dost olmuşdu. Bu gənc bizim yanımızda vurnuxur, sözlü adam kimi nə isə bir şey demək istəyirdi. Mən onu yanıma çağırdım: – Bala, sən sözlü adama oxşayırsan, nə sözün var, de, çəkinmə, bəlkə, Bakıda qohum, ya

dostların var? – dedim. Oğlan qızardı, gözlərini aşağı dikdi, sonra utana-utana: – Bəli, – dedi. – Sizə bir-iki sözüm var. Mən onunla ayrıca bir masanın başında oturdum. O, keçənilki gəlişində bir bakılı qıza vurulduğunu və onunla evlənmək istədiyini söylədi. Mən Füzulinin misralarını xatırladım:

Nə müşkül dərd olursa, bulunur aləmdə dərmanı,
Nə müşkül dərd imiş eşqin ki, dərman eləmək olmaz.

– Oğul, gənclər arasında belə hallar çox olur. Bəlkə də keçəri haldır? O qızı anasından, vətənindən ayırıb buraya gətirmək doğru olarmı?

– Bir ildir, o qızı görəndən bəri rahatlığımı itirmişəm, unuda bilmirəm, həmişə onu düşünürəm, – dedi. Mən nəsihətamiz tonda uzun bir nitq söylədim, amma nitqim özümün də xoşuma gəlmədi.

Atatürk orman ciftliyi Ankaranın on kilometrliyində gözəl bir parkdır. Vaxtilə boş bir sahə olan bu yerdə deyilənə görə Atatürk bir ağacın əkilməsində özü iştirak etmiş, gənclər üçün gözəl istirahət və əyləncə yeri düzəltmişdir. Burada hündür, kölgəli ağaclar, sarmaşıqlı çardaqlar, gül-çiçək xiyabanları, üstü əlvan şəmsiyələrlə örtülmüş dondurmaxanalar, yeməkxana, estrada səhnəsi, tamaşaçılar üçün sandalyalar vardı. Hər tərəf tərtəmiz, səliqə ilə silinib süpürülmüşdü. Orman ciftliyi parkında xeyli gəzdik, sonra heyvanat parkına getdik.

Heyvanat parkı hündür ağaclar arasındakı bir sahədə yerləşmişdi. Şələquyruq tülkünü görəndə bugünkü "Ak baba" jurnalındakı bir şəkil yadıma düşdü. "Ak baba" Türkiyənin satirik məzhəkə jurnalıdır. Burada məşhur dövlət başçılarından birisinin karikaturası çəkilmişdi. Başında yeddi tülkü baş-başa verib dayanmışdı. Şəklin altında bu sözlər yazılmışdı: "Filankəsin başında yeddi tülkü dolaşar, quyruğu bir-birinə dəyməz".

Quşlar olan hissədə diqqətimi tovuz quşları cəlb elədi. Bizim görməyə alışdığımız əlvan rəngli quyruğu bərq vuran gözəl tovuz quşlarına nədənsə məhəl qoyan yox idi. Hamı bir tərəfdə öz gözəlliyinə əmin bir tövr ilə cövlan edən bir cüt dümağ tovuz quşuna baxırdı. Onlar toy gecəsi ağ geyinmiş bəzəkli, zərif gəlinlərə bənzəyirdilər. Mən heç belə tovuz quşu görməmişdim. Rəngli tovuz quşu əlvan quyruğunu gah yelpazə kimi açır, gah da yığıb bağlayırdı. Elə bil "Gözəl mənəm, mənə baxın" deyirdi. Lakin hamı ağ tovuz quşlarına baxırdı. Onlar diqqət mərkəzində idilər. Demək olar ki, gözəllik və orijinallıq üzüzə gəlmişdi.

Ankara kediləri də (pişikləri) xeyli maraqlı idi. Pişiklər qar kimi ağappaq idilər. Bu pampıq pişiklərin gözünün hərəsinin bir rəngdə olduğu aşkar görünürdü. Havada çox sürətlə mayallaq vuran meymunlar hər yerdə olduğu kimi, burda da, çevik və məzəli idilər. Balıqlar və ilanlar qapalı binada saxlanılırdı. Mən oraya girmədim, ilanlara baxa bilmirəm.

Parkdan şəhərə qayıdıb "Ankara" kinoteatrına getdik. Burada "Ruslar gəlir" adlı ingilis filmi göstərilirdi. Zarafat kimi çəkilmiş bu film əslində mənalı bir əsər idi.

Okeanda bir sovet gəmisinin maşın hissəsində bir detal işdən çıxır. Onu əvəz etmək lazımdır. Gəminin kapitanı durbinlə baxıb ətrafda bir qara axtarır. Bu halda ada görünür, gəmi adaya yan alır, dənizçilər adaya çıxıb lazım olan hissəni axtarmağa gedirlər. Milçəkdən fil qayırmağı bacaran adamlar, xüsusən qadınlar bir an içində adaya xəbər yayırlar ki, "ruslar gəlir", ruslar havadan paraşütlə töküldülər, sualtı qayıqla adaya desant çıxardılar, ruslar hər yanı tutdular. Xəbər bir an içində bütün adanı dolaşır, böyük bir iğtişaşa səbəb olur. Adamlar özlərini itirmiş halda çıxış yolu axtarırlar. Köhnədən qalıb pas atmış qılınclar, silahlar işə düşür, kimi paya götürür, kimi daş götürür, hamı adanı mühafizə eləməyə hazırlaşır. Bütün bu hadisələr çox gülməli şəkildə verildiyi üçün tamaşaçılar bütün film boyu gülürlər. Vuruşlara tamaşa etmək üçün adanın uşaqları da çırpınır, yer axtarır, kilsənin qülləsinə dırmaşırlar. Beş-altı yaşında bir uşaq yuxarı dırmaşmağa can atarkən əli üzülür və kilsə divarındakı asqıya ilişib qalır. Qızışmış izdiham, uşağı təhlükədə görüb hər şeyi unudur. Gəmisi yeddi-səkkiz nəfərdən ibarət olan rus dənizçiləri də onlara qoşulur, insanlardan canlı nərdivan düzəldib kilsə qülləsinə qalxırlar, gənc rus dənizçisi ən yüksək zirvəyə qalxıb uşağı xilas etməyə can atır. Uşağın anası və başqa qadınlar həyəcan içindədirlər. Rus dənizçisi paltarlarından mismara ilişib havadan asılı qalmış uşağı qucağına götürür. Hamı sevinir, hamı əl çalır, uşağın həyatı xilas olunmuşdur.

Bir-birinin qanını tökməyə hazır olan adamlar bəşəriyyətin gələcəyi olan uşağın həyatını qorumaq əzmi ilə birləşir, dostlaşır, qucaqlaşıb bir-birlərini təbrik edirlər.

Rus gəmisi motorunu düzəldib yola çıxır, ada əhalisi xırda qayıqlara minib dostları gül-çiçəklə dənizdə müşayiət edirlər. Bütün bu hadisələrin fonunda adalı bir qıza rast gəlib onunla sevişməyə başlayan

sarı saçlı rus oğlan da sevişdiyi qızdan ayrılır, hamı ruslara əl edib məhəbbətlə yola salır. Film həm mənalı, həm də istedadlı kollektiv tərəfindən yaradılmış olduğu üçün maraqla baxılır.

Axşam biz yenə xalq oyunçuları teatrında "Tənəkə" pyesinə baxdıq. "İncə Məmməd" romanı ilə bizdə maraq oyatmış yazıçı Yaşar Kamalın pyesinə tamaşa etməyə həvəslə getdik. Yenə həmin boğucu havası olan binaya, küçənin səthindən xeyli pilləkənlə aşağı, dərinlərə endik. Tamaşa salonu yenə də dolu idi. Nəfəs almaq mümkün deyildi. Hava çox ağır idi. Bu şəraitdə aktyorlar gündə bir neçə dəfə tamaşa göstərməli olurlar. Hər dəfə də salon dolu olur. Günün aktual mövzularına toxunmaq, realist boyalarla işləmək, canlı insan xarakteri yaratmaq, həyat səhnələrinin rəngsiz, boyasız təsviri, çılpaq həqiqət tamaşaçını bu teatra cəlb edir. Romantik bir vüsətlə əfsanəvi xalq qəhrəmanı "İncə Məmməd" yaratmış müəllif bu dəfə həyatın lap alt qatlarına enir, xalq fəlakətini, aclığın, səfalətin acı lövhələrini yaradır.

Fikrət İmraklı universitetin məzunudur. Humanistdir, xeyirxahdır, dünya mədəniyyətinin məşhur nümunələri ilə tanışdır. Tanımadığı, bilmədiyi yalnız türk kəndlisi və onun həyatıdır. Müəllif əsərinə Atatürkün cümhuriyyətin ilk günlərində söylədiyi bu sözləri epiqraf götürmüşdür: "Aydınlarımız bəlkə bütün dünyanı, bütün digər millətləri tanıyır, lakin özümüzü tanımırıq. Xalqa yaxınlaşmaq və xalqa qaynayıb qarışmaq aydınlarımızın üzərinə düşən ən mühüm vəzifədir".

Fikrət İmraklı qəza yerinə qaymakam, yəni qəza rəisi təyin edilir. Səhnəyə üstü-başı tərtəmiz, şalvarı səliqəylə ütülü, xoşsifət, nəcib və nəzakətli bir gənc çıxır. Küncdə-bucaqda tullanıb qalmış zir-zibili, papiros kötüklərini, kağız qırıntılarını əli ilə yığışdırıb zibil qabına atır, stolunu səliqəyə salır, lakin bir an keçmədən kənd qolçomaqlarının toruna düşür; onlar gənc qaymakamı salamlamaq üçün gəlirlər, ərşdən-gürşdən söhbət açırlar. Fikrət çox nəzakətli və mərifətlidir. Adamlarla hörmətlə danışır, məqamdan istifadə edən qoyun dərisi geymiş qurdlar ona mühüm bir vəsiqəyə qol çəkdirirlər.

Fikrət gözünü qırpmadan qol çəkir. Ac kəndlilərə kömək etmək məqsədi güdən gənc özü də bilmədən kəndlilərin fəlakətinə qol çəkir. Onun imzaladığı sənəd əsasında suyu qolçomaqların xeyrinə açırlar. Neçə kəndi və neçə kəndin təsərrüfatını su basır, yoxsul kəndlərin evi su altında qalır. Başdan-ayağa palçığa bulanmış Zeynə qarı (aktrisa Əlif Çolak) vay-şivənlə səhnəyə çıxır, təmiz və mərifətli Fikrət İmraklı ilə

üz-üzə gəlir, kəndin dərdini deyib ağlayır. Fikrət dəhşətə gəlir. O ki, gözəl, xeyirxah niyyətlərlə kəndlilərə kömək etmək üçün buraya gəlmişdir! Necə olur ki, onun imzası ilə fəlakət səhnələri yaranır?

Müəllifin fikrincə, Fikrət İmraklı qəza rəislərindən biridir. Əsas səhvi oradadır ki, insanlara inanır, sadəlövhdür. Mürtiza, Patır Patır, Tofiq Ali, Okçu oğlu kimi yırtıcıların əsl üzünü tanıya bilmir, tanıdığı zaman isə iş işdən keçmiş olur. Quruluşçu rejissor Tinçel Kurtiz, Atatürkün "Türkiyənin həqiqi sahibi kəndlidir" sözlərini əsas götürür, ağır vəziyyətdə yaşayan türk kəndlisinin acınacaqlı həyatını ön plana çəkir. Türk ziyalılarını kəndin işıqlı həyatı uğrunda mübarizəyə çağırır. Tamaşanın axırıncı şəklində iştirak edən aktyor və aktrisalar, əllərində plakatlarla səhnəyə çıxdılar. Plakatlarda bu sözlər yazılmışdı: "6-cı filo"[1], "dəf ol", "NATO, hayır!", "Sento, hayır!".

Tamaşa salonunda gurultulu alqışlar qopdu. Türk yaradıcı ziyalıları Amerika imperializmi ilə mübarizədə bütün vasitələrdən istifadə edirlər.

Hər il may ayının ikinci bazar günü Türkiyədə "Analar" gününü bayram edirlər. Bu gün övladlar analarına gül-çiçək dəstələri, ətir və başqa müxtəlif çeşidli hədiyyələr bağışlayırlar. Anası sağ olmayan övladlar analarının qəbrini ziyarət edir, ana məzarını gül-çiçəklə bəzəyirlər. Qəzetlərdə və radio verilişlərində analara aid verilişlər təşkil edilir, ana mövzusunda şeirlər, nəğmələr, başqa yazılar dərc olunur. Türk Analar dərnəyi tərəfindən "İlin anası" seçilir. İlin ən yaxşı anasına mükafat verilir. Mən bu ilin anası kim seçiləcək, – deyə maraqlandım. "Akşam" qəzetində dərc olunmuş gözüyaşlı bir ananın fotoşəkli və altındakı yazılar sualıma cavab verdi.

Türkiyənin uzaq qəza şəhərlərindən birində gənc müəllimə Fatimə Dəmirqəlb apendisitdən xəstələnir. Həkimlər operasiya edilməsini təkid edirlər. Müəllimə, şagirdləri dərsdən qalmasın deyə, əməliyyatdan boyun qaçırır. Şagirdlərin imtahanı bitdikdən sonra əməliyyata razı olacağına söz verir. Amansız ölüm gənc müəllimənin həyatın əlindən alır. Türk qadın dərnəyi həmin müəllimənin anası Gülşah Dəmirqəlbi bu ilin Anası seçir və ona mükafat təqdim edir. Müəllimə qızını itirmiş qoca ana mükafatı alarkən – "Bu ərməğanı həyatımın ən dəyərli xatirəsi kimi qəlbimdə saxlayacağam – deyir, göz yaşlarını

[1] Filo – flot, donanma.

saxlaya bilməyib ağlayır. Yığıncaqda olan bütün qadınlar ananın böyük dərdinə şərik olub ağlayırlar. Fotomüxbirlər elə bu anda ananın şəklini çəkib qəzetlərdə dərc edirlər.

Qəzetlərin yazdığına görə, analar günü münasibətilə bütün ölkədə milyonlarca lirə dəyərində hədiyyələr satılmışdı. Bizdə martın 8-də olduğu kimi.

Deyirlər, bu adət Türkiyəyə Kaliforniyadan keçmişdir. Yaxşı adət və ənənələr hansı ölkədən keçirsə-keçsin, xalq arasında yayılır və yaşamaq hüququ qazanır. "Analar günü" bayramı da türk xalqı tərəfindən sevilən, səmimiyyətlə qarşılanan əziz bayramlardan biridir. Xalq bu bayramı bəyənir və yaşadır.

Bu gün Şövkət Sürəyya Aydəmirlə görüşə getdik. Onun evi Bağçalı evlər caddəsindəydi. Mənzili iki qatda yerləşirdi. Yuxarı qatda arvadı və bütün ev təsərrüfatı yerləşir, aşağı qatdakı üçotaqlı mənzil isə Şövkət Sürəyya bəyin iş mənzilidir. Hər üç otaq kitab rəfləri, qəzet və jurnallarla doludur. Oturub qəhvə içmək və söhbət etmək üçün yumşaq kreslolar, divan vardı. Şövkət Sürəyya Aydəmiri, Vala Nurəddinin "Bu dünyadan Nazim keçdi" kitabından tanıyıram. Nazim Hikmət haqqında yazılan əsərlərdə onun adı Nazimin yoldaşı kimi çəkilir. Vaxtilə hər üçü – Şövkət Sürəyya, Vala Nurəddin və Nazim Hikmət bir yerdə Sovet İttifaqına gəlmiş, Moskvada Şərq xalqlarının kommunist universitetində (KUTB) təhsil almışlar. Şövkət Sürəyya inqilabdan əvvəl Azərbaycanda olmuş, bir neçə il Şəkidə dil və ədəbiyyat müəllimi işləmişdir. O bir çox romanların və publisist əsərlərin müəllifidir. "Suyu arayan adam", "Torpaq oyanırsa" və sairə onun qələminin məhsuludur. Evindəki kitabların çoxu sol ədəbiyyatdır. O, rus dilini bilir, klassik rus ədəbiyyatı rəflərini doldurmuşdur. Şövkət Sürəyya yaşlı adam olduğuna baxmayaraq gümrahdır, həyata, cəmiyyətə, ictimai-siyasi hadisələrə münasibəti aktivdir. Keçənilki Moskva səfəri zamanı görüşdüyü dostlardan söhbət açır, Azərbaycanla maraqlanır, həyatımız, dilimiz və əlifbamız haqqında suallar verirdi. Xeyli söhbət edib görüşdük və ayrıldıq. O bizi gördüyünə ürəkdən şad oldu.

Baraj Ankaranın on kilometrliyində süni surətdə düzəldilmiş su bəndidir. Bu bəndin həm təsərrüfat əhəmiyyəti var, həm də ankaralıların istirahət və əyləncə üçün seyrə çıxmağı sevdikləri yerdir. Gölün ətrafında təbii gözəllik, dağ, çəmən, şam ağacları vardır. Restoran,

üstü əlvan şəmsiyələrlə örtülü dondurmaxanalar və sairə. Restoran adamla doludur. Ağacların altında xalça salıb süfrə açan qadınlar, coluq-cocuq. Qızlar və oğlanlar dəstə-dəstə gölün ətrafında dolaşır, oxuyur, oynayırdılar. Baraj gözəl gəzinti yeridir. Gölün ətrafını xeyli gəzdik, şəkil çəkdik, dağ çiçəklərindən yığıb dəstə bağladıq. Baraja bizi doktor Birsən xanım öz maşınında aparmışdı. Maşını çox rahat və ehtiyatla sürürdü. Maşının radiosu konsert verir, türk şərqilərinə qulaq asırdıq. Türk radiosu arabir Azərbaycan nəğmələri də verirdi. "O mah camalın, ağ yüzdə xalın, öldürdü məni, ay xanım, nədir xəyalın?". Türk qızı bu nəğməni xüsusi bir edayla oxuyurdu. Onun dilində Azərbaycan nəğməsi çox məlahətlə səslənirdi.

Axşam Ankara dövlət teatrında fransız yazıçısı Rasinin "Andromak" pyesinə baxdıq. Teatrın tamaşa salonu geniş, hündür, havası təmizdir. Burada "Ho" teatrında olduğu kimi adamın nəfəsi darıxmır. Tamaşaçılar geyimli-keçimli, hər yandan xoş ətir qoxusu gəlir.

Pərdə açılır, tamaşa bizi qədim yunan dövrünə aparır. Tamaşanı Fransanın görkəmli rejissorlarından biri olan Jülyen Berto hazırlamışdır. Bu rejissor Parisin Komedi Fransez və başqa bir sıra teatrlarında Şekspirin, Molyerin və başqa klassik yazıçıların əsərlərində həm aktyor, həm də rejissor kimi çıxış etmişdir. Türkiyə Mədəniyyət Nazirliyinin dəvəti ilə Ankara Dövlət Teatrında "Andromak" əsəri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

XVII əsr fransız klassiklərinin nümayəndələrindən olan Rasin insan taleyini, insan psixologiyasını, insanın məhəbbət və iztirablarını ön plana çəkən bir sənətkardır. Rejissor müəllifin bu əsas fikrini açıb göstərməyə çalışmışdır. Yazıçının təsvir etdiyi padşahlar, sərkərdələr və başqa personajlar hər şeydən əvvəl sevən və sevilən, rədd edən və rədd edilən, iztirab çəkən, övladının həyatını xilas etmək üçün hər cürə fədakarlığa hazır olan ana, sevdiyindən rədd cavabı alan, bunun üçün də intiqama hazır olan gənc qadın, diz çöküb sevdiyi qadına yalvaran məğrur sərkərdə – bunların hər birisi ayrı-ayrılıqda canlı insanlardır. Bütün bu insana xas olan cəhətlər Rasin qəhrəmanlarını çox uzaq keçmişdən çəkib gətirir və bugünkü tamaşaçıya yaxın eləyir.

Əsərin bədii tərtibatını vermiş çox istedadlı memar-rəssam Tarik Ləvəndoğlu qədim yunan faciəsinin əsas ünsürlərindən olan zaman və məkan vəhdətini gözləmişdir. Bütün tamaşa eyni səhnə tərtibatında cərəyan edir. Tərtibat çox gözəldir. Pərdə açılarkən qədim yunan ima-

rətinin fasadı görünür. Hündür ağ mərmər sütunların başında mərmərdən işlənmiş naxışlar bizi qədim Elladanın Akropoluna, oradakı əzəmətli Parfenona aparır. Memar-rəssam, qədim Yunanıstanın ölməz sənət abidələrinin səhnə ifadəsini yaradır. Fransız klassiki Rasin isə bizi bu dövrdə yaşamış insanların həyat, mücadiləsi taleyi və faciəsi ilə tanış edirdi.

Müasir dünyamızda yaranan memarlıq əsərləri qədim dövrün imarətlərindən çox-çox fərqlidir. Bu binalar müasir adamların zövq və tələbatına uyğun olaraq qurulur, hər şey dəyişir, yeniləşir, maddi nemətlər müasir formasını alır. Bəs insan? Əgər bu səhnədə çıxış edən personajların libasını dəyişsən, onlarda nə qədər müasir olan insan sifətləri var! Fədakar ana... Hansı əsrdə ana fədakar olmamış, övladını təhlükədən qorumaq üçün özünü oda-közə atmamışdır? Məhəbbətin insan taleyindən silindiyi varmı? İnsanı çox zaman xoşbəxt, yaxud bədbəxt edən məhəbbət deyilmi?

Geyimlər də rəssam Tarik Ləvəndoğlunundur. Səhnə tərtibatına çox yaraşır, incə zövqlə işlənmişdir. Kül rəngi və qırmızı parçadan libas geyinmiş gənc qızın qıvrım, qızılı saçları xoş bir ahəng yaradır. Andromakın solğun yaşıla çalan sarı paltarı qəm və qüssə gətirir, ananın ümidsiz məyusluğu elə bil geydiyi paltarın rəngində belə ifadə olunmuşdur, o, bu solğun paltarında belə Pirosun qəlbinə tamamilə hakimdir.

Fransız rejissorun tamaşanın proqramına yazdığı bir neçə sözdə aktyor heyətinin yaradıcı əməyinə yüksək qiymət verilir. Aktyorlar hamısı rollarını ümumi bir ahəng, bir ritm daxilində ifa edirlər. Tələffüzləri gözəl və aydındır. Rasin şerinin fransız dilindəki axıcı musiqisi türk dilində də səlis və ahəngdar səslənir. Rejissor rəssamın işinə də yüksək qiymət verir. Tamaşanın müvəffəqiyyəti üçün yaradıcı heyətə təşəkkürünü bildirir.

"Andromak" tamaşasından xoş bir təəssüratla çıxdıq.

Ayın 12-də tezdən maşınla Konyaya yola düşdük. Konya Ankaranın 250 kilometrliyində olan, Türkiyənin qədim şəhərlərindən biridir. Gözəl, günəşli bir səhərdir. Yolun hər iki tərəfi yaşıllıqdır. Cərgə-cərgə körpə ağaclar əkilib, təpələrin üstü belə, sıx əkilmiş xırdaca şam ağacları ilə doludur. Görünür, bir neçə il sonra burada şam meşəliyi əmələ gətirmək nəzərdə tutulmuşdur. Bu ormanları tələbələr salır, boş vaxtlarında paytaxt şəhərinin ətrafını şam meşələri ilə əhatə etmək üçün buralarda ağac basdırırdılar.

"Kol başı", "Ağ buz", "Qara həmzəli" kəndlərinin yanından keçdik. Bu kəndlərin evləri çiy kərpicdən – ayıbalasından tikilmişdir. Dərədə qadınlar ocaq qalayıb qazan asmış, su qızdırıb paltar yuyurdular. Yaşıl dərənin fonunda al-əlvan geyimli kəndli qadınları, əlvan dağ çiçəklərinə bənzəyirdilər.

Qulu kəndinin yaxınlığındakı düzlərdə çoxlu qoyun sürüləri otlayırdı. Elə bil göydən köpüklü ala bir bulud yerə enmiş, torpağın üstü ilə sürünürdü.

Qulu kəndindən sonra sanki rəssam təbiətin yaşıl boyaları qurtarmış, boz rənglərlə işləməyə başlamışdı. "Doşan Çalı" kəndi, "Damla quyu" kəndi... Görkəmi acınacaqlı olan bu kəndlər ağacsız, çılpaq idilər, torpaq damları ilə sevincsiz bir həyat sürürdülər.

Ankaradan uzaqlaşdıqca kəndlərin görkəmi daha yoxsul görünür. "Cahanbəyli" qəzadır. Cərgə-cərgə qovaq ağacları var, evlərin üstü qırmızı kirəmitlə örtülüdür. "Qırqışla" kəndinin yanından keçdik. Boz və cansıxıcı mənzərələrdir. Konyaya əlli kilometr qalmış, yenə yaşıllıq zonası başlayır. Düzlər, təpələr yamyaşıldır. "Aşağı pinar başı" kəndi, Qayacıq kəndi yaşıllıqlar içindədir. Bütün keçdiyimiz yol boyu bizə rast gələn kəndlərin demək olar ki, hamısında gözəl üslubda tikilmiş minarəli kiçik bir məscid görünürdü. Məgər türk kəndlisi bu dərəcədə dindarmıdır ki, hər üç-beş evdən ibarət olan bir kənddə came tikdirir? Bu sual məni düşündürürdü. Bir türk dostumuzdan soruşdum ki, türk kəndliləri mömindirlərmi? O gülüb dedi: – Yox, canım, türk kəndlisi Xorasana ancaq hamamda çimmək üçün gedir. Doğrudanmı belədir? Elə isə bu hədsiz-hesabsız camelər nədir? İnsanları həmişə itaətdə, həmişə qul saxlamaq, şüurunu, beynini kütləşdirmək... Bu qəmli və təsiredici azan səsləri və mərsiyələr hamısı insanı ağır mənəvi bir siqlət altında saxlamaq üçün deyilmi?

Keçmişdə Avropa ölkələrini gəzdiyim zaman əzəmətli xristian məbədlərində dinlədiyim orqan musiqisi də, kəlisa xoru da eyni məşum məqsədi daşımırmı?

Konya şəhərinə çatdıq. Orta əsrlərin məşhur mütəfəkkir şairi Cəlaləddin Ruminin – Mövlananın türbəsi olan şəhər, yarısı təpəli, yarısı düzənlik, məscidli, minarəli, al-əlvan bazarlı, çox köhnə və çox təzə binaları olan şəhər, qara geyimli, qara örtüklü, üç ətək tumanlı qadınları, son modalı kostyum geyib əlində təsbeh çevirən gəncləri olan ekzotik Şərq şəhəri Konya...

Mövlananın türbəsi olan məscid 1512–1520-ci illərdə tikilmişdir. Qərbə, Qərbin böyük məhəbbətinə inanan, şəriətə, etiqada zidd olan Şərqin böyük mütəfəkkirinin türbəsi indi din ocağına çevrilmişdir. Yalnız son 50-60 ildən bəri Mövlana muzeyi dini mərkəz olmuşdur. Mövlana muzeyinə girərkən Nazim Hikmətin hələ uşaq ikən Mövlanaya yazdığı şeri xatırladım:

Sararkən alnımı yoxluğun tacı
Könüldən silindi nəşəylə acı,
Qəlbə məhəbbətdən buldum əlacı,
Bən də müridinim, iştə, Mövlana...

Əbədə səd çəkən zülməti dəldim,
Eşqi içdən duydum, ərşə yüksəldim
Qəlbdən təmizləndim, hüzura gəldim,
Mən də müridinim, iştə, Mövlana.

Doğrudanmı, Mövlana, sənin hüzuruna gələnlər qəlbdən təmizlənib gəlirlər? Sən qəlb təmizliyini, mənəvi paklığı hər şeydən müqəddəs tuturdun.

Muzeyin içərisinə girdik. Mövlananın türbəsinə tərəf getdik. Onun məzarı üstünə qızıl saplarla naxışları işlənmiş böyük, ağır bir örtük salınmışdı. Mövlananın atasının qəbri də buradadır. Başdaşının çox hündür olması diqqəti cəlb edir. Rəvayətə görə Mövlananın atası, oğlunun cənazəsini həmin bu türbəyə gətirdikləri zaman, təfəkkür aləminin bu böyük bahadırına hörmət ifadəsi olaraq məzarından ayağa qalxmışdır. Mövlana orta əsrlərin fars dilində yazan məşhur mütəfəkkir şairidir. O, məsnəvisində deyir: insanın qiyməti onun tutduğu mövqedən asılı deyil. O, ürək azadlığını, arzu-dilək azadlığını tərənnüm etmiş şairdir. Allah varlığı yaradan qüdrət deyil, varlığın özü bir Allahdır – fəlsəfəsini irəli sürmüşdür. Mövlananı zındıq – asi-dinsiz hesab edərlərmiş, heç bir müsəlman 50-60 il bundan əvvəl bu muzeyə girməzmiş. Mütəfəkkir, filosof bir şairin qəbrini indi dini mərkəzlərdən biri görmək ağlasığmayan mənzərə idi.

Mövlana mərasimlərində musiqi, rəqs, şərqilər ifa edilər, Mövlananın müridləri olan dərvişlər vəcdə gəlib Allahla bir olduqlarını söyləyərlərmiş.

Müsəlman dini insan surəti çəkməyi günah hesab etmiş, Allahın yaratmış olduğu bəndənin yenidən insan tərəfindən yaradılmasını qa-

dağan etmişdir. Bəlkə də elə bu səbəbə fitri istedadı olan Şərq rəssamları bütün sənətkarlıq qüdrətlərini xəttatlığa sərf etmiş, bu sahədə möcüzələr yaratmışlar. Məsnəvinin misilsiz bir sənət əsəri kimi incə xətlərlə yazılması bunu təsdiq edir.

Mövlana muzeyinin yanında Səlimiyyə camesi vardır. 1558–66-cı illərdə osmanlı padşahı II Sultan Səlimin şahzadəliyi zamanı klassik osmanlı memarlığının parlaq nümayəndəsi memar Sinanın üslubunda tikilmişdir. Bu came İstanbuldakı Fateh camesinə bənzəyir. O, türk-islam memarlığının ən gözəl nümunələrindən biri hesab edilir. Camenin içərisinə ayaqqabılarımızı çıxarıb girdik. Came əzəmətli bir sükut içərisində idi. Şəriət qanunlarını bilmədiyimizdən camenin yumşaq xalılarının üzəri ilə gəzə-gəzə divarlara və hündür günbəzə tamaşa edirdik. Demə, kənarda oturub namaz qılan kişilər varmış, biz onlara əhəmiyyət verməyib yuxarı baxır, imamların, peyğəmbərlərin ərəb əlifbası ilə yazılmış adlarını oxumağa çalışırdıq. Namaz qılan adamın qabağından keçmək olmazmış, bu səbəbə namaz qılanlar pərdəni çəkib pərdə arxasında ibadətə davam etdilər.

Camedən çıxıb yaxındakı cərgə-cərgə düzülmüş suvenir mağazalarına tərəf yollandıq. Bu mağazalarda Mövlana mövzularında saysız-hesabsız, cürbəcür, müxtəlif çeşidli şeylər vardı. Girdə mis üzərində çəkilmiş Mövlana rəqsləri, Mövlana türbəsi, Xacə Nəsrəddin rəsmləri, üzərinə "Maşallah", "Bismillah" yazılmış taxta qaşıqlar, Konyanın müxtəlif yerlərinin şəkilləri, fincanlar, muncuqlar, xor-xor qəlyanlar, təsbehlər...

Kitab mağazalarında çox qədim kitablarla yanaşı Avropa kino gözəllərinin yarıçılpaq rəsmləri, turistlər tərəfindən həvəslə alınan kiçik həcmdə basılmış "Quran"lar satılırdı. Kitab satışı ən aktiv ticarət növlərindən biridir. Kitabın nə mövzuda, nə məzmunda olması şərt deyildir, əsas məsələ onun satılması, yayılması və ticarət əhəmiyyətidir.

Konyada İzzət Qoyunoğlunun muzeyini gəzdik. Bu muzey iki-üç kiçik və darısqal otaqda yerləşir. Alt qatda Qoyunoğlunun yaşadığı otaq var. Otağın qapısında "İçəri girilməz" sözləri yazılmışdı.

Qadın təbiətimi yenə saxlaya bilməyib başımı qapıdan içəri uzatdım. Otaqda yerə kilim və xalça döşənmiş, Şərq üslubu ilə döşəkcə və mütəkkə qoyulmuşdu. Podnosda armudu stəkan yanında çaynik və kiçik qəndqabı vardı. Heç bir mebel yox idi. Ancaq pəncərənin ağzında çıraq və çoxlu kitab var idi. Bu otaqda yaşayan adamın həmişə yalnız kitablar aləmində olduğu aşkar duyulurdu.

Bizi həyətdə bir oğlan uşağı qarşıladı. Həyət elə özü də bir muzey idi. Burda qulağı kəsik, burnu əzik, qolsuz, qıçsız, çox qədim daş, mərmər heykəllər, çox böyük həcmdə küplər var di. Küplərin içinə gödəkboylu kök bir adam rahatca yerləşə bilərdi.

Səsimizi eşidən Qoyunoğlu özü qarşımıza çıxdı. Hardan gəldiyimizi biləndə xoş-beş eləyib xeyli hörmət göstərdi. Muzeyin otaqlarını gəzdirib özü izahat verməyə başladı. İzzət bəyin əynində darçını rəngdə velvetdən nimdaş bir kostyum vardı. O yaşlı bir adam idi. Darısqal pilləkənlə yuxarı qalxdıq. Bu muzeydə nələr yox idi! Qədim əlyazmaları, Nəsimi və Füzuli divanı, rəsmlər, qiymətli əl işləmələri, daş-qaşlar, bəzək şeyləri, qədim silah növləri. Çox gözəl bir qadın surəti diqqətimizi cəlb etdi. İzzət bəydən soruşdum ki, bu kimin əsəridir? – Onu bir azərbaycanlı rəssam çəkmişdir, – dedi. – Rəvayətə görə rəssamın sevgilisi Xədicə Sultanın rəsmidir.

Xədicə Sultan çox nəcib və mələhətli gözəl idi. Bəlkə, rəssamın xəyalı onu belə yaratmışdı.

Biz darısqal muzeydəki sərvətə heyran qalmışdıq. Belə sərvəti bu halda saxlamaq olarmı? Əgər ehtiyatsızlıq ucundan bir kibrit düşsə, bu muzey bir an içində yanıb külə dönə bilər. Sonralar biz öyrəndik ki, Qoyunoğlunun muzeyindəki materiallara amerikanlar və almanlar çox böyük pullar təklif etmişlər. Həyatının 40-50 ilini sərf edib bu misilsiz sərvəti böyük bir səylə toplamış həqiqi vətənpərvər insan vətənin xəzinəsini heç bir yadelliyə verməmişdir. Qoyunoğlu bu şəxsi sərvətini öz xalqına, öz millətinə bağışlamışdır. Biz bu sözləri eşidərkən çox həyəcanlandıq. Rəsul İzzət bəyi qucaqlayıb öpürdü. O çox riqqətlənmişdi. Rəsulun ala gözlərində yaş parlayırdı. Mən də kişini qucaqlamaq üçün qollarımı açdım. Lakin özümü saxlayıb yalnız əlini hörmətlə sıxmaqla kifayətləndim. Belə böyük bir sərvətə sahib olub, bu qədər sadə və təmənnasız həyat keçirmək əsl vətənpərvərlik, fədakarlıq nümunəsi deyilmi?

Həyətdə İzzət bəylə şəklimizi çəkdirdik. Muzeyin həyətində ağ mərmər daş üzərində Türkiyə maarif naziri Həsən Ali Yücalın imzası ilə bu sözlər yazılmışdı.

"Bu evdə kitablar deyil, əsrlərin fikir və hissləri var. Burası əski əsərlərlə deyil, ölməyən fikir və hiss ulularının kölgələri ilə doludur. Burası böyük adamların məclisidir. Onları dəvətlə buraya toplayan, dəyər bilir Qoyunoğluna minnət duymaq bizə vəzifədi".

İzzət Qoyunoğlu gəncliyində uzun illər dəmiryol müfəttişi vəzifəsində işləmişdir. Şəxsi təşəbbüsü ilə 1913-cü ildə bu muzeyi təsis etmiş və yalnız 1954-cü ildə onu açа bilmişdir. Bir adamın şəxsi hünəri ilə toplanmış bu mənəvi xəzinə türk xalqının misilsiz sərvətlərindən birisidir.

Sonralar biz Ankarada və İstanbulda alim və yazıçı dostlarımıza bu muzey haqqında söhbət edərkən onlar bizə belə deyirdilər: Türkiyə muzeylər ölkəsidir. Burda bir came bir muzey, bir əlyazmaları xəzinəsidir. Qoyunoğlunun muzeyi kimi muzeylər ölkənin bir neçə yerində, Üsküdərdə, Qeysəridə və başqa yerlərdə vardır.

Olsun, bu daha yaxşı, amma sərvətin qədrini bilmək lazımdır. Hər addımda gözəl lokantalar, çayxanalar quran məmləkət bu nadir xəzinə üçün də əlverişli şərait yaratmalıdır.

Axşama doğru idi. Konyada aldığımız zəngin təəssüratla Ankaraya qayıdırdıq. Yolda bizə "Anadol" markalı türk maşınları rast gəlirdi. Bu maşınların altmış faizi Türkiyədə hazırlanır. Xaricdən yaraşıqlı görünən bu maşınları türklər çox sevirlər. Maşın almaq imkanı olan adamlar türk markalı "Anadol" maşını almaq üçün növbəyə yazılıb aylarca gözləyirlər.

Yolda yenə radio ilə verilən türk şərqi və türkülərini dinləyərək Ankaraya dönürdük. Arada özümüz də Azərbaycan nəğmələri oxuyurduq. Ankaraya girməzdən "gecəqondu" evləri görünməyə başladı.

"Gecəqondu" bir gecənin içində qurulub üstü örtülən evlərə deyilir. Gecə ikən evin damı örtülmüş olsa polis nəfərlərinin belə evləri uçurmağa ixtiyarı yoxdur. Bu evlərdə şəhər civarının ən yoxsul əhalisi yaşayır.

Səhər maşın bizi Qum bulvarı caddəsinə gətirdi. Maşından düşüb Ankara milli kitabxanasına gəldik. Kitabxananın müdiri Müjgan xanım bizi öz kabinetində qəbul elədi. Müjgan xanım qarabuğdayı, zəif vücudlu bir qadın idi. Ağıllı və ciddi baxışları ona hörmət hissi oyadırdı. Bizə kitabxananın hazırkı fəaliyyətindən söhbət açdı, kitabxana binasının gələcək layihəsini göstərdi. Layihədən danışarkən gözləri ümid və fərəhlə şölələnirdi. Müjgan xanım xarici ölkələrlə kitab mübadiləsi işindən xeyli danışdı, Azərbaycanla mübadilə işinin çox zəif olduğundan şikayətləndi. Kitabxananın işçilərindən Məbrurə adlı gənc bir qızı çağırıb bizi gəzdirməsini tapşırdı. Gündəlik qəzet və jurnallar şöbəsi, oxucu şöbəsi, oxucu sifarişi şöbəsi, qiraət salonu, mikrofilm şöbəsi,

qədim əlyazmaları və qədim kitablar şöbəsi (ərəb əlifbası ilə), başqa ölkələrlə kitab mübadiləsi şöbəsi, başqa bir çox şöbələrlə gəlib tanış olduq. Şöbələrə girərkən Məbrurə bizi təqdim edən kimi, kitabxana işçiləri bizə böyük hörmət göstərir, maraqlandığımız suallara həvəslə cavab verirdilər. Bu hörmət, əlbəttə, bizim ölkəmizə, xalqımıza olan səmimi münasibətin ifadəsi idi. Kitabxanaya Bakıdan gətirdiyimiz bəzi kitabları bağışladıq.

Ankarada olduğumuz günlərdən birində səhər yaşadığımız "Bulvar Palas" otelinin qabağındakı qəhvəxanada oturub çay içirdim. Rəsul hələ otaqda idi. Masaların arasıyla ağsaçlı nurani bir qocanın mən tərəfə gəldiyini gördüm. Yaxınlaşıb salam verdi, adını söylədi. Doktor Hasan. Mən yer göstərib oturmağı təklif etdim. Söhbətə başladıq. Doktor bizim gəldiyimizi eşidib neçə dəfə otelə telefon eləmişsə də bizi tapa bilməmişdi. Bizi evinə dəvət edir, arvadı şairə xanımın mənimlə maraqlandığını söyləyirdi. Vaxtımız dar olduğundan onların dəvətini qəbul edə bilmədiyimiz üçün üzr istədim. Doktor Hasan təkid edirdi. Mən tərəddüd içindəydim. Rəsul imdadıma yetişdi, tanış oldu: – Gələrik, vaxt tapıb şairə xanımın görüşünə gələrik, – dedi.

Axşam doktor Hasan gəlib bizi maşınla evinə apardı. Ankaranın yaşıllığa qərq olmuş küçələrindən birində yasəmən ağacları arasındakı evdə doktorun ailəsi yaşayırdı. Məlihə xanım – doktorun arvadı. O, gözəl süfrə açmış, masanın üstünə böyük bir dəstə yasəmən qoymuşdu. Görünür, bizim gəlməyimiz üçün şairə xüsusi hazırlıq görmüşdü. Süfrədə yeməli şeylər çox idi. Təəssüf ki, biz insan orqanizmi üçün faydalı olan zeytun yağı yeməyə hələ alışa bilməmişik. Türklər günorta və axşam yeməyindən qabaq bir qab kahının üstünə zeytun yağı tökür və limon sıxıb yeyirlər. Bu, yeməkxanalarda və evlərdə geniş yayılmış salatdır. Biz bu salatı yeyə bilmirdik. Yeməkxanalarda "bizə çoban salatı gətirin" deyirdik, bu bizim salatlara bənzəyir. Göy, xiyar, pomidor, göy soğan və azca sirkə. Zeytun yağı başqa xörəklərdə də çox işlənir, yarpaq dolmasına və başqa yeməklərə zeytun yağı tökürlər.

Süfrə başında söhbətimiz uzun çəkdi. Bu ailə haqqında mümkün qədər çox şey bilmək istəyirdim. Doktor özü əlli beş il bundan qabaq, yəni inqilabdan əvvəl buraya gəlmişdi. Doktorun ailəsi Ermənistanda yaşarmış, ata-anası kəndli imiş. Aclıq, səfalət, milli qırğın, kiçik Hasanı vətəndən didərgin düşməyə məcbur etmiş, bir parça çörək qazanmaq ümidi ilə evindən, anasından ayrı düşmüşdü. Xoşbəxtlikdən kiçik Hasan

fərasətli çıxmış, işləmiş, oxumuş, alın təri ilə həyatını qazanmışdı. Doktor həyatını danışarkən mən – Bəs ananız heç sizdən xəbər tuta bilmədimi? – deyə soruşdum. Doktorun üzünə elə bil əbədi bir qüssə, bir ayrılıq qüssəsi möhürünü basmışdı. Onun gözləri həmişə kədərli idi.

– Anam ayrılığa dözə bilməyib 26-27 yaşlarında vəfat etmişdir.

On yaşında ərə verilib, 11 yaşında ana olan Azərbaycan qızı, sənin keçmiş taleyinlə mən indi burada, Ankara küçələrinin birindəki yasəmənli evdə üz-üzə gəldim. Övladı itkin düşmüş bədbəxt ana, sən yəqin ki, məzarının içində belə, övlad həsrəti ilə yanırsan.

Qapı zəngi çalındı, doktorun qızı gəldi, doktor fərəhlə qızını təqdim elədi. – Qızım Leyla, ona anamın adını qoymuşam, özü də anama oxşayır... – Leyla qarabuğdayı Azərbaycan qızıydı. Anasına bənzəmirdi, anasında mərmər gözəlliyi və mərmər soyuqluğu var idi. Leyla isə zərif və hərarətli idi. Gənc qızların aləminə girməyi, onların həyatını, sevgi və maraq dairəsini öyrənməyi çox sevirəm. Leylanı yanımda oturtdum. Harda oxuduğunu, gələcəkdə nə olmaq istədiyini soruşdum.

Leyla dövlət konservatoriyasının dram aktyorları fakültəsində təhsil alır. O, dram aktrisası olmaq istəyir.

– Müasir əsərlərdə oynamaq, yoxsa klassik dramalardamı çıxış etmək istəyirsən? – dedim.

– Qədim yunan faciələrində oynamaq istəyirəm, – dedi. – Diplom işi olaraq Evripidin "Elektra"sını hazırlayıram.

– Şeri sevirsənmi? Müasir türk şairlərindən kimin şeirlərini sevirsən?

– Cahid Sıdkı Torançının şerlərini, Eyyiboğlunun şeirlərini sevirəm. – Leyla Eyyiboğlunun "Qara tut" şeirini əzbər oxumağa başladı:

Qara tutum, çatal qaram, cingənəm,
Nar tanəm, nur tanəm, bir tanəm,
Ağac isəm – dalımsan, pətək isəm – balımsan.
Dili mərcan, dizi mərcan, dişi mərcan.

Leyla şeri çox gözəl oxuyurdu. Onun ifasında şeirlər gözəl bir ahənglə çağlayırdı. Oxuduğu şeirlər üçün Leylaya təşəkkür etdik.

Birdən Leyla məndən soruşdu ki,

– Türk şairlərindən kimi bəyənirsiniz?

– Müasir şairlərdən Nazim Hikməti sevirəm, – dedim.

Gənc qızın qara gözləri sevinclə parladı. Nazimin Sovet İttifaqındakı həyatından bizə çoxlu suallar verməyə başladı. Görünür, Nazimi çox sevir və həyatı ilə maraqlanırdı.

Üzümüzü evin xanımına tutub şeirlərindən bizə oxumasını xahiş etdik. Məlihə xanım oxumaq istəmirdi. Doktor arvadına müraciətlə – Qonaqların sözünü yerə salmaq olmaz, – dedi. – Gətir, oxu!

Məlihə xanım yazdığı şeirləri səliqə ilə saxlamır, hara gəlsə atırmış. Şeirləri tapıb gətirmək xeyli çəkdi. O, şeirlərini çap elətdirmir. – Belə şeirləri Türkiyədə hər kəs yazar, onları çap eləməyə dəyməz, – deyirdi. Bu şeirlərin sandıq ədəbiyyatına məxsus intim planda olduğunu güman edirdim. Məlihə xanımın qoşma formasında, heca vəzni ilə yazdığı şeirlərdə müəyyən bir ictimai fikir ifadə olunurdu. O, bu şerləri qısa müddət xaricdə yaşadığı zaman yazmışdı. Şeirlərdə vətən həsrəti, qürbətdə keçirdiyi günlər, aldığı təəssürat təsvir edilirdi. Məlihə xanım, bu şeirləri çap etməyə cəsarət etmirdi.

Doktor Hasanın sevincinin hüdudu yox idi. Çoxdan bəri ayrı düşdüyü vətənindən gəlmiş adamlarla görüşdən böyük ləzzət alırdı. Səmimi söhbətlər, zarafatlarla keçən bu gecədən biz də ürəkdən isinmiş qayıtdıq.

Ankara-İstanbul yolu mənzərəli və rahat yoldur. Bu yolda 6-7 saat avtobusla getmək adamı heç yormur. Səhər tezdən Ankara avtobus stansiyasından "Qəzənfər–Bilgə" ekspresi ilə İstanbula yola düşdük. Qəzənfər–Bilgə Türkiyənin məşhur pəhləvanlarından olub vaxtilə dünya çempionu adı almışdır. İndi onun avtoşirkəti vardı. Yolda bizə yük maşınları rast gəlirdi. Bu maşınlar İstanbula göyərti, tərəvəz məhsulları, kahı, göy lobya, kələm və başqa kənd təsərrüfatı məhsulları daşıyırdı. Maşınların üstündə "Maşallah", "Allahım, məni qoru" sözləri yazılmışdı. Dəli bir sürətlə maşın sürən türk sürücülərinə görünür Allah da kömək göstərməkdə acizdir. Böyrünə "dağ dələn" yazılmış çox böyük bir yük maşını qutu kimi böyrü üstə çevrilmiş, içindəki yoğun şalbanlar kibrit çöpü kimi yerə dağılmışdı. Yaxşı ki, sürücü sağsalamat qurtara bilmişdi. Yollar gözəldir, yolun hər iki yanı yaşıllıq və çiçəklikdir. Çiçəklər yollara əlvan xalılar kimi sərilib. Yolun Bolu hissəsi xüsusilə gözəldir, sıx meşəli dağlar, şəlalələr, yaşıl düzənlər...

Koroğlunun adı ilə bağlı olan bu yerlər Çənlibeli xatırladır. Bolu meşələri sis duman içindədir. Yolun bir hissəsini çox qatı duman içində keçirik. Qarşıdan gələn maşınlar işıq yandırır, ən yaxın məsafə belə

görünmür. Bolu lokantasında nahar elədik. Getdikcə təbiət duman əsarətindən qurtarır, çöllər, meşələr aydınlaşırdı.

Radio aramsız musiqi verir, saz şairləri yana-yana, göynəyə-göynəyə türkülər oxuyurlar. Bilmirəm, dünyada ikinci bir xalq varmı ki, bu qədər çox ayrılıq nəğmələri yaratmış olsun? Vətənindən, övladından, sevgilisindən ayrı düşən ancaq türklərdirmi? Görəsən, hansı xalqın dilində bu qədər çox həsrət, qürbət, hicran mahnıları yaranmışdır? Bütün günü eşitdiyimiz bu sızıltılardan ürəyim ağrıyır.

Yol boyu radio ilə aşıqların səsi gəlir: aman bu qızların əlindən, bu qızların əlindən... Yandım qara telindən, qara telindən...

Bəzən də aşıq, qızların dilindən fəryad qoparırdı: indi məni almaz isən sonra peşiman olarsan...

Rəsul avtobusun pəncərəsindən çöllərə tamaşa eləyir, o öz fikirlərinin aləmindədir. Mən də uzun yol gedərkən düşünməyi sevirəm. Yol insanın fikirlərini kələf kimi açır, fikirlər bir-birinə bağlana-bağlana insanı çox uzaqlara aparır.

İstanbul yolunda Nazimi düşünürəm. 1954-cü il oktyabr ayında bir qrup Azərbaycan şairi, Zaqafqaziya şairlərinin yığıncağında iştirak etmək üçün Tbilisiyə getdik. Qrupumuza Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim, Mirvarid xanım, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri daxil idi. Rustaveli adına teatrda şeir gecəsi təşkil edilmişdi, bu gecədə biz də şeir oxuduq. Nazim Hikmət, doktoru Qalina Qriqoryevna ilə Qaqradan, istirahətdən qayıdırdı. Tbilisidə bir neçə gün qalıb, Moskvaya yola düşəcəkdi. Onunla görüşdük, bu, xoş bir təsadüf oldu. O bizim çıxış elədiyimiz şeir gecələrində, şəhərkənarı gəzintilərdə iştirak edirdi. Xəstəlikdən sonra özünü zəif hiss etdiyi üçün çıxış eləmir, yalnız şairləri dinləyirdi. Şeir gecələrindən birində mən də şeir oxudum. Çıxışdan sonra məni təbrik edib dedi:

– Qızım, o gün olsun İstanbulda belə kürsüdən şeir oxuyasan.

– İnşallah, ustad, İstanbula bərabər gedərik, – dedim.

– Mən o günü görməyəcəyəm, siz görərsiniz, uşaqlar İstanbulu gəzdirib göstərərlər, gözəl şəhərdir İstanbul!

Mən keçən gəlişimlə də onun bu sözlərini xatırlayıb məyus oldum. İstanbulu görmək ona qismət olmadı.

Bir neçə il sonra biz yenə onun Moskva yaxınlığındakı yay evində idik. Bütün ailəmizi Peredelkinodakı bağına qonaq çağırmışdı. Yuxarı qatdakı qonaq otağında, rəflərdə müxtəlif dillərdə basılmış çoxlu ki-

tabları vardı. İtaliyada basılmış qalın bir kitabını bizə göstərdi. Çox gözəl çap edilmişdi.

– Nə gözəl kitabdır, təbrik edirəm, ustad – dedim.

– Sağ ol, qızım, – dedi. Fikirli idi. – Şairi ilk öncə öz xalqı, öz doğma dilində oxumalıdır, – dedi, – mənim isə vətənimdə kiçik bir kitabım basıla bilmir.

Ankarada kitab mağazalarını gəzərkən Nazim Hikmətin Türkiyədə basılmış çoxlu kitablarını gördük. Həm Nazimin öz əsərləri, həm də Nazim haqqında yazılan əsərlər çox idi. Bunların içində sovet alimi Radi Fişin böyük həcmli "Nazim Hikmət" adlı kitabı da türk dilində basılmışdı. Başqa bir kitabda isə Nazim haqqında yazılan bütün yaxşı və yaman yazılar hamısı toplanmışdı. Böyük bir şairin başından yağdırılan çirkabı görəndə insan ikrah hissi duyur, qəzəblənir, yanır, yaxşı ki, onlarla yanaşı şairə yüksək qiymət verən yazılar da dərc olunmuşdur.

Ankarada kitab satanlardan birindən xəbər aldıq ki, Nazimin kitabları satılırmı? – Əlbəttə, satılır, Allah ona rəhmət eləsin, onun kitabları olmasa ac qalardıq, – dedi.

Yenə fikrim Nazimə aid xatirələrlə doludur, axı biz İstanbula gedirik. Nazimsiz, Nazimin əziz, unudulmaz xəyalı ilə onun İstanbuluna gedirik.

Sonralar da Nazimlə Moskvada və Bakıda çox görüşdük. O bizi həm dost, həm də oxucu kimi axtarırdı. Görüşəndə yeni yazdığı şeirləri oxuyar, çeşməyinin altından əsərin bizə necə təsir bağışladığını müşahidə edərdi. Bakıda bizim evdə "Saçları saman sarısı" əsərini oxudu. Moskvada da mehmanxanada öz evində bizə şeirlər oxuyardı. 1963-cü il aprel ayında Moskvada idik. Nazim "Moskva" mehmanxanasına gəlib bizimlə vidalaşdı. ADR səfərinə hazırlaşırdı. Çox həyəcanlı idi, danışır, gülür, həyatından məzəli hadisələr nəql edirdi. Əynində açıq şabalıdı rəngli kostyum vardı, çox gözəl geyinmişdi. Kişilər nadir halda incə zövqlə geyinməyi bacarırlar. Əksər hallarda kişi kostyumları müəyyən bir trafaretdən kənara çıxmır. Nazimin kostyumu, köynəyi və ayaqqabılarının rəngi gözəl bir ahəng təşkil edirdi. Geyimini tərifləyəndim, xoşuna gəldi.

1963-cü il iyul ayında isə biz Bakıda onun ölüm xəbərini aldıq. İyun ayının üçü idi. Evdə yanıma gəlmiş bir qadınla söhbət edirdim. Rəsul iş otağında radioya qulaq asırdı. Rəsulun əsəbi səslə məni çağırdığını eşitdim. Özümü onun otağına saldım. Rəsul ağlayırdı. Mən qorxmuş halda: – Nə olub? – dedim. – Nigar, Nazim vəfat etmişdir, – dedi. Hər ikimiz ağlayırdıq. Yanıma gəlmiş qadın: – Sizə nə oldu, yoxsa müharibə başladı? – deyə narahat bir maraqla soruşdu. – Yox, – dedim. – Bizim çox əziz dostumuz ölüb, Moskvada.

Ertəsi gün iyunun 4-də Nazimin dəfn mərasimində iştirak etmək üçün səhər tezdən təyyarə ilə Moskvaya uçduq. "28 Aprel" küçəsindəki çiçək mağazasında bizə çox böyük və çox gözəl bir dəstə gül hazırladılar.

Nazim Azərbaycanı, onun poeziyasını, musiqi sənətini çox sevirdi. Mədəniyyət bayramlarımızda – Füzuli, Mirzə Fətəli Axundov, Sabir yubileylərində iştirak etmiş, bayram məclislərimizi bəzəmişdi. İndi Azərbaycan torpağının bir dəstə gülü onun tabutunu bəzəmək üçün təyyarə ilə Moskvaya uçurdu. Moskvaya çatan kimi gülləri suya qoyub pəncərənin ağzına apardım. Hava və su dəyən güllər dirçəlib lap təzə oldular. İyun ayının beşində Nazimin cənazəsini Mərkəzi ədəbiyyatçılar evindən götürəcəklərdi. Dəfn mərasimində iştirak etmək üçün xarici ölkələrdən də nümayəndələr gəlmişdi. Polşadan, Almaniyadan, Bolqarıstandan, Çexoslovakiyadan və başqa bir sıra ölkələrdən Nazim yaradıcılığının pərəstişkarları olan yazıçılar gəlmişdilər. Moskvanın görkəmli ədib və şairləri də buraya toplaşmışdılar. Nikolay Tixonov, İlya Erenburq, Boris Polevoy, K.Simonov, A.Surkov, Slutski və başqaları matəm mitinqində iştirak edirdilər. Çıxış edənlər Nazimin müasir dünya poeziyasının ən böyük nümayəndələrindən biri olduğunu qeyd edir, məhsuldar yaradıcılığına və ictimai fəaliyyətinə yüksək qiymət verirdilər. Azərbaycan yazıçıları adından bu mitinqdə Rəsul Rza çıxış elədi.

Cənazə qaldırılmazdan əvvəl bir-iki saat əvvəl Nazimin oğlu Məməd, anası Münəvvər xanımla bərabər Varşavadan Moskvaya uçmuşdu. 10-12 yaşlı Məməd gözlərini anasının üzündən çəkmir, onu ağlamağa qoymurdu. Bakıdan apardığımız gülləri cənazənin üstünə qoymuşdum. Cənazə qaldırılanda Məməd atasına yaxınlaşıb vidalaşdı. Azərbaycan güllərini götürüb qucağında Novo-Deviçi qəbiristanlığına qədər apardı. Atası dəfn edildikdən sonra gülləri məzarın üstünə səpələdi.

İnsan yalnız qəmli xatirələrlə yaşaya bilməz. "Qəzənfər–Bilgə" avtobusu yolun sis və dumanla örtülü hissəsindən çıxdı. Aydınlıq, nurlu bir aləmə keçdi. Vaxt axşama doğrudur, lakin hələ çöllər, çəmənlər işıqlıdır. Mənzərələr ürəyimizi fərəhləndirir. Qarşıda İstanbul var, sevincli, həyəcanlı görüşlər bizi gözləyir. Dostlarımızı, tanışlarımızı görəcəyik. Bosforu seyr edəcəyik. Qarabuğdayı, şirin bir qız mehriban

qollarını boynuma salacaq, yaşlı gözləriylə öpəcək məni. Türklər bibiyə xala, xalaya isə teyzə deyirlər. O, "xalam" deyib qucaqlayacaq məni. İstanbulda doğulmuş Azərbaycan qızı, qardaşımın əziz balası, Nigarım mənim, adımı daşıyan şair ilhamlı, rəssam fırçalı canımciyərim mənim... Uzun illər ayrılığından sonra sizi tapdım, sevindim, xoşbəxt oldum. Qırx ilin ayrılığından sonra qardaşımla ilk dəfə keçən il İstanbulda görüşdük. İndi də hər yerdə bərabər gəzirik. Səhər çox tez oyanıram, tələsik geyinib aşağı enirəm. Nə qədər tez qalxsam, yenə qardaşımı aşağıda bizi gözləyən görürəm. O həkimdir, bizim gəlməyimiz münasibətilə məzuniyyət götürüb, bizimlə bərabər gəzir, heç ayrıla bilmirik. Onun xasiyyəti çox az dəyişib. Uşaqlıq illəri yadımdadır. Həmişə zarafat edər, məsxərə edər, məni cinlətməyi sevərdi. İndi də eladır, şən görünməyə çalışır, lakin ürəyinin dərinləri yaralıdır, orada ayrılıq yaraları göynəyir. Onu uşaqlıqda çox sevirdim. Ağıllı, məzmunlu, maraqlı bir insandır. Zəngin mütaliəsi var. Türk, alman, ingilis və rus dillərini yaxşı bilir.

Dağ dağa qovuşmaz, insan insana qovuşar, deyərlər. Dünyada bir ölümün çarəsi yoxdur. Biz ayrılanda mənim 14, onun isə 18 yaşı vardı, əllini keçəndən sonra görüşdük. Hər ikimiz elə bir hərəkət etməmişdik ki, bacı-qardaş kimi bir-birimizin üzünə baxa bilməyəydik. Çox gənc yaşlarından zəhmətlə yaşayan, namuslu insanlar kimi görüşdük. O özü haqqında danışmağı sevmir, lakin onun haqqında eşitdiklərim mənə bir bacı kimi onunla fəxr etməyə haqq verir. Onun humanizmi, içərisində yaşadığı xalqla, onun fəqir hissəsi ilə olan rəftarı, dünyagörüşü, ümumi mədəniyyəti yalnız təqdirəlayiqdir. Kaş dünyanın hər yerində onun kimi təmiz və namuslu insanlar, həkimlər çox olaydı...

Nigarım şeir yazır:

"Sənin sinsi siyah gözlərin var,
Bənim siqara dumanının yaşartdığı
yorğun gözlərim.
Sənin yepyeni əlbisələrin var.
Bənimsə yırtıq yamalı jaketim".

Nigarın jaketi cırıq deyildi. Paltarı da təptəzə idi. Türkiyədə həkim qızı cırıq paltar geyməz. Bahalı kostyumlar geyən gənclərə məhəbbət bağlayan və məhəbbəti cavabsız qalan cırıq jaketli qızların ruhunu anlamaq, öz dərdi kimi ifadə etmək Nigarın şair ruhunun, həssas qəlbinin məhsulu idi.

Keçən il: – Can xala, bir gecə də mənim otağımda qal, nə olar? – dedi.

– Yox, Nigar can, mən sənin otağında qala bilmərəm.

– Nədən? – deyə heyrət etdi.

– Gözümü açanda divardan asdığın eybəcər şəkilləri görsəm, qorxudan bağrım çatlar. – Nigar sözlərimə xeyli güldü. Nigar otağını çox qəribə şəkillərlə bəzəmişdi. Qədim keçmişdə dəli olmuş adamların rəngli fotoşəkli, əqrəb, bö rəsmləri gənc qızın kiçik otağının divarlarını bəzəyirdi. Bu dəli şəkillərinin üzündə elə bil əbədi bir cəhənnəm dəhşəti həkk olunmuşdu. Yəhudilər düşmənə qarğış edəndə "Allah səni öldürsün" deməzlər. "Allah ağlını əlindən alsın" deyirlər. Bu şəkillərə baxanda diri ikən cəhənnəm əzabı çəkən insanları görürdüm. Gənc qız bu şəkillərdən nə ləzzət alır, anlaya bilmədim. Nigarda bacı və qardaşı kimi rəssam istedadı var, hər üçü gözəl rəsmlər çəkirlər.

İnanıram ki, Nigar gələcəkdə Türkiyənin gözəl şairlərindən biri olacaq. Biz onunla İstanbulu dolaşır, şeir oxuyurduq. Küçələrdən birindən keçəndə, – Xala, bura "şair Nigar caddəsidir", – dedi.

– Görürsənmi, türklər indidən sənin adına küçə də qoymuşlar, – deyə zarafat elədim.

– Yox, xala, 19-cu əsrin sonlarında yaşamış şairə Nigar bind Osmanın adınadır bu küçə...

– Bilirəm, gülüm, – dedim. Anamda o şairənin "Əfsus" adlı şeir kitabı var idi. Anam onun şeirlərini çox sevərdi. Mən dünyaya gələndə anam mənə o şairənin adını qoymuşdu.

Nigar xanımın anamdan eşitdiyim şeirləri indi də yadımdadır:

Əfsus ki, qəmdən məni azad edəcək yox.
Viranə dili bir daha abad edəcək yox.
Ya rəb, nə üçün zarı Nigarı şu cahanda
Naşad edəcək çoxsa da, bir şad edəcək yox.

Nigara Azərbaycan şairləri Məhsəti Gəncəvi və Natəvandan danışdım. Məhsəti rübailərinin mərdlik və cəsarətli ruhundan söhbət açdım. Bakıda Natəvana heykəl qoyulduğundan danışdım. Nigar Azərbaycan haqqında bütün söhbətləri böyük maraqla dinləyirdi.

Avtobusda başqa səmişinlər çox olduğu üçün mən daha Azərbaycan mahnıları oxuya bilmirəm. Konya yolunda isə hey oxuyur, oxuyurdum. Mən oxuduqca qardaşım yavaşcadan köhnə mahnıları təkrar edirdi, heç

birisini unutmamışdı. Onun xüsusilə Nərminə Məmmədovanın səsindən və oxuduğu havalardan xoşu gəlirdi. "Bülbülün geydiyi yaşıl", "Girdim yarın bağçasına", "Qaragilə" və başqa havaları oxuyurduq:

Bülbülün geydiyi yaşıl
Qolların boynuma aşır
Ağlamaq mənə yaraşır
Sən ağlama, mən ağlaram.

"Qəzəfər–Bilgə" avtobusu dayandı. Düşüb taksiyə mindik. "Pero Palas" otelinə sürdük. Yer olmadı. Həmin Məşrutə caddəsində "Kavak" adlı kiçik bir otelə düşdük. Qardaşım, uşaqlarının yanına getdi. Biz otağımıza qalxıb uzun yolçuluqdan sonra dincəlməyə getdik.

İstanbul dünyanın gözəl şəhərlərindən biridir. Beş yüzdən artıq camesi və saysız-hesabsız minarələr İstanbulu dünyanın başqa şəhərlərindən ayırır, ona xüsusi bir gözəllik verir. Kinofilmlərdə gördüyüm Amerika şəhərləri, Nyu-York, Vaşinqton və başqa şəhərlər, mənə elə gəlir ki, çox hündür göydələn binaları ilə şəhəri səmadan məhrum eləmişlər. Bu göydələn binaların arasındakı quyu kimi küçələr daş bir torbaya bənzəyir. Bu səmasız şəhərlərdə yaşayanlar yəqin ki, bu daş torbaların içində sıxılır və darıxırlar. İstanbulun isə üstündəki göy təmiz, mavi və genişdir. Gecələr bu göy üzü parlaq ulduzlarla dolur, Bosforun mavi sularında parıl-parıl yanırlar.

İstanbul axşamüstü və səhər tezdən daha gözəl olur. Yasəmən rəngli duman içərisindən görünən came və minarələr getdikcə dumandan sıyrılıb çıxır, üfüqdən qalxan günəşin şüaları altında parlayır, qədim və əsrarlı bir aləmdən xəbər verirlər.

Aya-Sofiya, Süleymaniyyə camesi, altı minarəli Sultan Əhməd camesi və başqaları nadir memarlıq və sənət abidələridir. Sultan Əhməd camesinin yaranması haqqında belə deyirlər: Sultan Əhməd memarı hüzuruna çağırtdırıb demişdir: elə bir came yaradarsan ki, Aya-Sofiya onun yanında sönük görünsün. Camenin minarələri altın olsun. Memar "altın", yəni qızıl sözünü guya "altı" başa düşmüş, Sultan Əhməd camesinə altı gözəl minarə yaratmışdır. Yəqin ki, memar xalq sərvətini qızıl minarəyə sərf etmək əvəzinə, "altın"ı "altı" başa düşdüyünü bəhanə etmişdir. Rəvayətə görə sultan qəzəblənmiş, memarı həmin minarədən atdırmışdır. Başqa bir rəvayətə görə, memar altı minarəni o qədər gözəl yaratmışdır ki, qəzəbli sultan gözəllik qarşısında

ram olub memarı əfv etmişdir. İkinci rəvayət daha ağlabatandır. Belə bir sənət abidəsi yaratmış sənətkara qıymaq insan ağlına sığmayan cinayət olardı.

Yüksək sənət və memarlıq əsərlərinin ehtişamla ucaldığı bir şəhərdə yeni memarlıq əsəri yaratmaq, müasir memar üçün çox çətin məsələdir.

Yeni türk mədəniyyətinin zövq və tələbinə uyğun olaraq yaradılmış İstanbul "Kültür sarayı" müasir üslubda milli, gözəl və əzəmətli bir sənət abidəsidir. Binanın təməl daşı 1946-cı ildə qoyulmuş, 1969-cu ildə başa çatdırılmış və istifadəyə verilmişdir. Layihəni hazırlayan yaradıcı kollektiv, başda baş memar Hayatı Tabanoğlu olmaqla, böyük bir səbir və təmkinlə 23 il gözləmişdir. Bu müddət ərzində Türkiyədə bir neçə dəfə hökumət dəyişmiş, çoxlu maliyyə nazirləri gəlib getmişdir. Elə illər olmuş ki, dövlət bu tikintiyə bir quruş da pul buraxmamış, inşaat dayandırılmışdır. Nəhayət, 23 ildən sonra səbirli İstanbul tamaşaçıları gözəl bir "Kültür sarayı" qazanmışlar. Həyatının çox illərini bu inşaata sərf etmiş baş memarın qəlbində də yəqin ki, peşmanlıq hissi sevinc və fərəh duyğusu ilə əvəz edilmişdir.

"Kültür sarayı" ürəkaçan, yığcam və gözəldir. Tamaşa salonuna min üç yüz adam yerləşə bilir. İki milyondan artıq əhalisi olan İstanbul üçün belə bir bina lazımlı bir hədiyyədir. Binanın 23 ilə başa gəlməsi tərifəlayiq bir hadisə deyil, lakin yaxşı cəhət odur ki, bu müddətdə yüksək hazırlıqlı mədəni və müasir aktyor kadrları yetişmişdir.

Kamal Atatürk hələ o zaman türk teatr sənətkarlarının Avropa teatr mədəniyyəti ilə ayaqlaşmaq səviyyəsinə qalxmasını, onun üçün də teatrın akademik təməllər üzərində qurulmasını, yüksək mədəni səviyyəsi olan hazırlıqlı aktyor kadrlarının yetişdirilməsini tələb edirdi.

Dövlət konservatoriyasının nəzdində olan aktyor bölməsinə ilk illərdə qəbul etmək üçün tələbə tapmaq çətin olurmuş. Sonralar isə ildə 8-10 nəfər yüksək hazırlıqlı, mədəni və istedadlı aktyor və aktrisalar yetişmiş, aktyor fakültəsi 23 il ərzində ölkəyə 160-180 nəfər sənətkar vermişdir. İstanbul şəhər teatrı 1936-cı ildə təsis edilmiş, Ertoğrul Mühsinin ətrafına topladığı bir aktyor kollektivi ilə işə başlamışdı. Ertoğrul Mühsin uzun illər İstanbul və Ankara dövlət teatrlarına rəhbərlik etmiş, bir çox tamaşalar qoymuşdu. Proqressiv fikirli bu sənətkar indi qocaldığına görə işdən ayrılmışdır.

Son on il ərzində Cüneyt Kökçer Ankara və İstanbul dövlət teatrlarının bədii rəhbərliyini öhdəsinə götürmüş, həm də baş rollarda görkəmli aktyor kimi çıxış etmişdi. C.Kökçerin dövlət teatrlarına rəhbərlik etdiyi dövrdə, türk teatrları Qərb ölkələrinə qastrol səfərinə çıxmış, bir neçə xalqlararası teatr festivalında iştirak etmişdir. Paris, Afina, Belqrad və başqa şəhərlərdə göstərilən tamaşalar içində qədim yunan faciəsi "Kral Edip", Pirandellonun "IV Henrix" kimi dünyada məşhur olan əsərlərlə yanaşı türk müəlliflərinin də əsərləri Avropa səhnələrində türk aktyorları tərəfindən tamaşaya qoyulmuşdur. Əhməd Qüdsi Təçərin "Koroğlu", Güngər Dilmənin "Midasın qulaqları" əsərləri Avropa tamaşaçısına göstərilmişdir. "Kültür sarayı"nda Qərbi Avropa bəstəkarlarından Verdi, Motsart, Vaqner, R.Şraus və başqa müəlliflərin opera əsərləri ilə yanaşı, türk bəstəkarlarının ilk operaları – Əhməd Ədnan Sayğının "Kərəm", Nevit Kodallının "Tanrılar və insanlar", S.Helenderin "Nəsrəddin Xoca" kimi operaları da tamaşaya qoyulmuşdur.

"Sonalar gölü", "Kopeliya", "Qizella" kimi icrası mürəkkəb olan balet əsərləri ilə yanaşı türk bəstəkarı Ferit Tuzun "Çeşmə başı" baleti, Bulent Turcanın "Xəncərli xanım" və sairə balet əsərləri ilə türk baleti oyanmağa başladı.

Türk rejissor və aktyor kadrlarının hazırlanmasında alman professoru Karl Eberetin çəkdiyi əmək yüksək təqdirə layiqdir. Karl Eberet dövlət konservatoriyasının aktyor bölməsində müəllim-pedaqoq kimi, həm də səhnə quruluşlarında rejissor kimi çıxış etmiş, türk aktyor və sənətkarlarına gözəl bir sənət məktəbi yaratmışdır. Ağır illərdə və ağır şəraitdə türk teatr mədəniyyətinin inkişafı uğrunda fədakarlıqla çalışmış alman professorunu onun yetişdirməsi olan məşhur türk aktyor və rejissoru C.Kökner belə yad edir: "Karl Eberet Hitlerə də, onun rejiminə də nifrət edirdi. Bu rejimin bir gün necə olsa yıxılacağını bilirdi. Əvvəllər yalnız vaxtının ildə üç ayını Ankara teatrına verə bilərdi. 1939-cu ildən isə onu bizim teatra bağlayan bir az da faşizm rejiminə nifrəti oldu. Faşist Almaniyası məğlub olduğu zaman deyirdi: "Bu gün Hitlerlə bərabər bəlkə Almaniya da çökür. Lakin Almaniya qocaman bir ağaca bənzər. Çökən, qırılan yalnız budaqlardır. Bu ağacın kölgəsini yaşadan Gete kimi, Şiller kimi, Bethoven kimi, Vaqner kimi, daha neçə-neçələri kimi köklərdir. Almaniya torpağına çox dərin yayılmış bu köklərdən yeni budaqlar qalxacaq, yeni yarpaqlar göyərəcəkdir". O, vətənin ağır faciəsini bizə sənət dərsi öyrətdiyi, teatrımızda yeni quruluş hazırladığı saatların həyəcan və sevinci arasında ovuda bilirdi".

On-on beş il bundan əvvəl İstanbulda şəhər teatrının iki səhnəsindən başqa ciddi və davamlı bir teatr səhnəsi yox idi. İndi isə 15-ə yaxın teatr səhnəsi var. İstanbul və Ankara dövlət teatrının aktyor qrupları Anadolunun ən ucqar guşələrində çıxış edib tamaşa göstərirlər. Teatrın repertuarı da genişdir. 68-69-cu ildə göstərdikləri 23 tamaşanın 13-ü türk müəlliflərinin əsəridir. Ankara dövlət teatrının kollektivi İstanbulda "Kültür sarayı"nda, İstanbuldakı isə Ankarada tamaşalar göstərir. Həftənin müəyyən günlərində opera və balet tamaşaları verirlər.

İstanbul teatrlarının səhnəsində A.P.Çexovun "Albalı bağı", "Üç bacı", "Vanya dayı", Qoqolun "Müfəttiş", Fonvizinin "Anasının quzusu" və başqa bir çox əsərlər tamaşaya qoyulmuşdur. Rus opera və balet nümunələrindən "Sonalar gölü", "Uyuyan gözəl", "Yevgeni Onegin" və sair əsərlər müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

"Kültür sarayı"nda Turan Ozansoyun tarixdən alınmış, "Dəli İbrahim" tamaşasına baxdıq. Əsərdə anası tərəfindən öldürülmüş Sultan İbrahimin faciəli həyatı təsvir olunur. Ankara dövlət teatrında tamaşa elədiyimiz "Andomak" əsərində olduğu kimi, burada da səhnə tərtibatı, aktyor oyunu, quruluş yüksək səviyyədə idi.

Mayın 19-da İstanbulda "Gənclik və idman bayramı" keçirilirdi. 1919-cu il mayın 19-da Qazi Mustafa Samsuna çıxdığı gün milli azadlıq mübarizəsinin başlanğıc günü sayılır. Sonralar Atatürk bu günü "Gənclik və idman" bayramı elan etmişdi. Bu bayram günündə Türkiyənin azadlıq bayrağı Samsundan, şəhərdən şəhərə keçirilərək tərtənə ilə Ankaraya və İstanbula qədər gətirilir. Bu gün Amerika imperializminə qarşı güclü üsyan ruhu ilə yaşayan türk tələbə gəncləri bu bayramı iftixar hissi ilə keçirirlər. Bir tərəfdən Avropa imperialistləri ilə vuruşan, bir tərəfdən də daxili irtica qüvvəsini və sultan səltənətini yıxmaq üçün döyüşə Kamal hərəkatının vətənpərvərlik və qəhrəmanlıq səhifələri bugünkü azadlıqsevən gəncləri yeni mübarizələrə ruhlandırır.

1921-ci ildə partizan dəstələrindən yenicə təşkil edilmiş 15 min nəfərlik türk ordusu 60 min nəfərlik yunan ordusu ilə ölüm-dirim savaşına girişmiş, yunan qoşunlarına qalib gəlmişdi. Xarici işğalçılar üzərindəki qələbə türk xalqına böyük ruh yüksəkliyi vermiş, gələcək döyüşlərə ruhlandırmışdı.

İngilis silahı ilə silahlanmış yunan qoşunlarını darmadağın edən, yarıac, yarıçılpaq türk qoşunlarının qalibiyyəti misilsiz vətənpərvərlik və fədakarlıq ruhunun məhsulu idi. Kişi, qadın, uşaq, böyük, qoca, cavan – bütün xalq vətənin azadlığı üçün vuruşlara qoşulmuşdu. Sakarya yanındakı döyüşlərdə türk ordusunun böyük qələbəsi Mustafa Kamalın nüfuzunu xalq içərisində qat-qat artırmış, onu xalq qəhrəmanı, xilaskar sərkərdə kimi millətinə sevdirmişdi.

Gənc türk dövləti bir yandan xarici işğalçılarla döyüşür, bir yandan da çürümüş sultan imperiyasının xarabaları üstündə gənc türk cəmiyyəti yaradırdı. Türkiyənin axırıncı sultanı Vahidəddin 1922-ci ildə sarayı tərk edib ingilis gəmisinə götürülmüş və Türkiyəni tərk etmişdi. Sultan səltənəti sona çatmış, Türkiyə torpağı xarici işğalçılardan azad olmuşdu.

Şanlı səhifələrlə dolu olan milli qurtuluş bayramını türk gəncliyi ruh yüksəkliyi ilə bayram edir.

Bütün kapitalist ölkələrində olduğu kimi, Türkiyədə də tələbə gənclər çox narahatdırlar. Tez-tez həyəcanlı nümayişlər edir, Amerika imperialistlərinin Türkiyədə apardığı siyasətə qarşı kəskin çıxışlar edirlər. Deyilənə görə, 6-cı donanma İstanbula yan alan zaman tələbə gənclər limanı kəsdirmiş, sahilə çıxan Amerika hərbi nəfərlərini qucaqlarına götürüb dənizə atmışdılar. Amerikalı hərbi dənizçilər gəmiyə qayıtmağa məcbur olmuşdular. Gecə ikən hərbi qiyafəsini dəyişmiş, adi paltar geyib şəhərə çıxmış hərbi nəfərləri tələbələr şəhərdə tanımış, döyüb başlarını yarmışlar.

İstanbulda olduğumuz günlər bu tələbə nümayişinin şahidi olduq. Tələbələr dörd küçənin ayrıcındakı meydanda bardaş qurub oturmuş, küçə hərəkətini dayandırmışdılar. Onlar birağızdan:

Ata minmiş eşşəklər,
Millət sizdən nə bəklər,

– deyə qışqırırdılar.

Tələbələr Kamal tərəfdarıdırlar. Onlar Kamal siyasəti yürüdülməsini tələb edir, yəni ölkənin milli azadlığının qorunmasını istəyirlər. Onlar Türkiyənin Amerika imperialistlərinin qara əməllərinə meydan olmasını istəmirlər, vətənlərinin yadelli işğalçıların başmağı altında tapdalamağına yol verilməməsini tələb edirlər. Gənclər yaşayacaqları ölkəni istədikləri kimi qurmaq əzmindədirlər!

19 may gənclik bayramında qızmar yay günəşinin yandırıcı şüaları altında addımlamaq üçün polad kimi möhkəm olmaq lazımdır. Bayram

nümayişlərinə günün altında tamaşa eləməyə səhhətimiz yol vermir, kölgəyə çəkilməli oluruq.

19 may Rəsulun anadan olduğu gündür. Qardaşım oğlu Aydın, Rəsulun yaşını qeyd etmək üçün bizi evinə dəvət etmişdi. Rəsulun 59 yaşını İstanbulda mehriban bir şəraitdə keçirdik. Aydının beş yaşlı oğlu Ayxan iki daşın arasında mənim çantamı yoxlamaq, ordakı xırdapara şeyləri "tədqiq etməklə" məşğuldur. Uşaqlar hər yerdə eyni təbiətdədirlər, qadın çantasını töküşdürmək, ordan maraqlı şeylər tapıb çıxarmaq bütün uşaqların sevdiyi əyləncədir. Ayxan məni gördüyü ilk gündən qucağıma çıxır, özünü mənimlə tamam sərbəst aparırdı. Gözümün ucu ilə qeyd dəftərlərimə baxıram. Cırsa, işim bitdi. Xətrinə dəyə bilmirəm. Ayxan dəftərləri kamali-ədəblə gözdən keçirib yerinə qoyurdu.

Aydının üç yaşlı qızı Elnar Rəsulun dizi üstə özünü yaxşı hiss edir. Tombul əllərini Rəsulun üzünə çırpır, nə isə şeytanlıq edib onu güldürür.

Ayxan nə qədər dinc, fağırdırsa, Elnar o qədər nadincdir. Hər şeyi cırmaq, sındırmaq, dağıtmaq üçün can atır. Qız təbiətinə uymayan məcazı var. Günseli süfrəyə qəhvə və meyvə gətirir. Amasya alması mənim çox xoşuma gəlir. Otağa qoyanda ətri otağı bürüyür. Süfrə başında müxtəlif söhbətlər edirik. Almaların növündən, cinsindən söhbət gedir. Quba almalarını tərifləyirik. Amasya alması haqqında belə bir söhbət olur: Sultan Əbdülhəmid yalnız Amasya alması ilə bəslənmiş quzuların ətini yeyərmiş. Əgər quzuya Amasya alması yedirilməsə, ətin tamından bilər, aşpaza divan tutdurarmış.

Günseli ilə bərabər evdə orta yaşlarında bir qadın da ev adamı kimi süfrəyə qulluq edirdi. Qadının Günselinin qohumu olduğunu zənn etdim. Qardaşım gənc həkim ikən Gümüşlüdə işlədiyi zaman qonşuluqda bir kürd ailəsi yaşayırmış. Ailə on səkkiz adamdan ibarət imiş. Ayişə ailənin böyük qızı imiş. Kəndli ailəsində həftədə bir dəfə – cümə günləri xörək bişərmiş. O günü ailənin anası qazana beş girvənkə ət töküb xörək bişirərmiş. Uşaqların çoxuna xörək çatmazmış. Kiçik Ayişə bir yanda oturub ağlarmış, küsüb qonşu həkimin evinə gedər, orda yeyib içərmiş. Yazıb oxumağı da Ayişə bu ailədə öyrənmişdi. Sonralar böyük şəhərlərə – Ankaraya, İstanbula köçmüş, burada yaşayıb işləməyə başlamışdı. Söz kürdlərdən düşəndə Ayişə kürdlər haqqında belə bir lətifə danışdı. Kürd kənddən gəlirmiş, görür yolda

bir kürd düşüb ölüb, yanında da bağlaması var. Bağlamanı açır, görür içində çörək də var, soğan da. Kürd çox təəccüb edir ki, görəsən bu adam niyə düşüb ölüb, bunun ki, çörəyi də var, soğanı da. Ayişənin geyim-kecimi şəhərli xanımlarınkına bənzəyir, amma təbiətindəki sadəlövhlük kəndçi qızı olduğunu tez büruzə verir.

Süfrə başında Ayişə Rəsulu göstərib yavaşcadan Nigardan xəbər aldı:

– Bəy əfəndi nə vəzifənin sahibidir?

– Əniştəm[1] sovet bakanıdır (yəni sovet naziridir), – dedi.

– Eləmi?! – Ayişə Rəsula müraciətlə: – Bəy əfəndi, siz nə bakanısınız? – deyə soruşdu.

Rəsul bu sualı gözləmirdi. O, hazırcavablıqla:

– Mənmi? Mən qadınlara bakıram, – dedi. Hamımız gülüşdük.

Bayaq Amasya quzusu ilə bəslənən quzulardan söz düşəndə Nigardan bir az böyük olan bacısı Bertanın dərdi açıldı: – Nigarın pişiyi Rasputin ancaq quzu əti yeyir. Nigar ən dadlı tikəsini özü yeməz, ona yedirər. Pişik də bütün günü yeyib yatır, çox parazit pişikdir.

Mən – Bertan, – dedim, – ömrümdə heç yerdə zəhmətkeş pişik görməmişəm. Pişiklər hər yerdə parazitdirlər, yeyib yatmağı sevirlər.

Nigar: – Tərənənin pişiyi varmı? – deyə soruşdu.

– Var, Tərənənin pişiyi çox olub.

– Adları nədir?

– Aslan, Məstan, Şirxan, Mərcan, daha nə bilim...

Şirxanla Tərxanı kənddən, Buzovnadan gətirmişdi. Onları şəhər mədəniyyəti məhv etdi. Bir gün pəncərədən qaçıb getdilər, bir də qayıtmadılar.

Uşaqlar Rəsuldan şer oxumasını xahiş etdilər.

Rəsul "Təyyarə düşüncələri" silsilə şerindən oxudu. Mən Fidana yazdığım şeirləri oxudum. Başa düşmədikləri bəzi sözlərin mənasını xəbər aldılar. Eşitdikləri bəzi Azərbaycan sözlərinə çox güldülər. "Dəmdəməki", "hoqqabaz", "bambılı", "hövsələsiz" və sair sözləri gülə-gülə təkrar edirdilər.

Dostumuz, türk yazıçısı Xaldun Taner bizi bu gün Böyük adaya dəvət etdi. Biz bu dəvəti məmnuniyyətlə qəbul etdik. Adaları görməmişdik. Səhər ya Xələcdə iskələdə, ya da Böyük adada görüşəcəyimizi

[1] Əniştə – yeznə

sözləşdik. Ada iskələsində gəmiyə minib adalara tərəf yola düşdük. İskələdə "Küçük su", "Yeni köy", "Böyük dərə", "Anadolu hasarı" gəmiləri də hərəkətə hazır dayanmışdılar.

"Maltəpə" gəmisinə minib yola çıxdıq. Gəmimiz irəlilədikcə İstanbul uzaqlarda qalırdı. Gəmidə müxtəlif geyimli, müxtəlif biçimli adamlar var idi. Açıq dənizə çıxanda mən bir az üşüyüb içəri salona keçdim. Skamyalardan birinə oturdum. İki oğlan və iki qız gəlib mənimlə üz-üzə oturdular. Onlar ingiliscə danışırdılar. Oğlanların saçı uzun, üzləri tüklü idi. Qızların çirkli paltarlarından üfunət qalxırdı, əlləri və dırnaqları çirkli idi. Bu avropalı gənclər kasıb ailələrin uşaqlarına oxşamırdılar. Moda əsiri olaraq özlərini bu sir-sifətə salmışdılar. Doğrusu, Avropa gəncləri arasında olan bu mərəzi cərəyanlara yaxşı bələd deyiləm. Gərək ki, onlara hippi deyirlər. Guya yaşadıqları burjua cəmiyyətinin qanunlarına protest əlaməti olaraq özlərini bu görkəmə salır, ayaqyalın, başıaçıq, çirk içində diyar-diyar dolaşırlar. Hər halda onları Türkiyəyə cəlb edən Afyon qoxusudur. Afyon şəhərində hasil edilən tiryək bu gəncləri yığıb buraya gətirir. Türk polisi onları harda görsə tutub həbs edir. Mərmərə dənizinin saf havasını bu gənclərin pinti və üfunətli görkəmi zəhərləyirdi. Mən dözə bilməyib göyərtəyə çıxdım, üşüyə-üşüyə qardaşımın yanında dayandım. Artıq adalar görünürdü. Xınalı, Borğaz, Qaşıq adası, Heybəli adası. Böyük ada adaların beşincisi və ən böyüyü idi. Böyük adaya bir az qalmış sol tərəfdə kiçik bir adacıq göründü. Orda heç bir ev-eşik görünmürdü. Çiçəklər, yalnız çiçəklər. Sarı, qırmızı, mavi çiçəklər, yaşıl yarpaqlı vəhşi çiçəklər...

Kaş gəmi bircə an burada dayanıb bizi bu çiçəklər aləminə çıxaraydı. Lakin "Maltəpə" çiçəkli adanı saymayıb yanından düz keçdi. Böyük adaya çıxdıq. Dənizin lap qırağında "Kapri" adlı restoran var idi. Restoranın açıq havada əlvan şəmsiyələr altında olan hissəsində nahar elədik. Bakını yada saldıq. Xaldun bəy Bakıda bircə gün olmuş, Musiqili Komediya Teatrında "Qayınana" əsərinə tamaşa eləmişdi. O, Nəsibə Zeynalovanın oyununu çox bəyənmişdi. Biz də bu istedadlı aktrisanı çox sevdiyimizi söylədik. Yenə də söhbət ədəbi əlaqələrdən getdi. Xaldun Taner əsas etibarilə komediya yazan dramaturqdur, Azərbaycandan komediya əsərləri göndərilməsini arzu edir, "söz verdilər, amma heç bir şey göndərmədilər" deyirdi.

Xeyli söhbətdən sonra adanı gəzməyə getdik. Türklər adaya maşın buraxmırlar. Maşınlar adanın havasını zəhərləyə, səsi, yanacaq

maddələri ilə istirahət edənlərin səhhətini poza bilər. Maşın olmadığı üçün gəzməyə gələnlər faytonlara minib adanı gəzirlər. Uzunqulaqlara da minib gəzən olur. Üstüaçıq faytonlardan birinə qardaşım, Rəsul və mən mindik. O birinə isə Xaldun bəy və gənc rəfiqəsi. Atlar yorğa yeriyir, biz adanı doya-doya seyr edirik. Üzü yoxuşa doğru olanda atlar ayaq saxlayır, addım-addım qalxırdılar. Gözüm birdən faytonçunun üzünə sataşdı. Bütün bu gözəlliyə, bu faytonlara; minib-düşən adamların şən əhvalına, kefinə tamam biganə olan bu adamın üzündə elə dərin bir laqeydlik, elə bir buz soyuqluğu vardı ki, ona baxıb sarsılmamaq olmazdı. Ona baxanda yadıma "Tənəkə" pyesində gördüyüm Zeyno qarı düşdü. Kaş Zeyno qarı palçıqlı paltarlarını adaların yaşıl sularında yuya biləydi, yorğun ayaqlarını, üstü düyün-düyün göy damarlı əllərini bu yaz günəşinin altında qızdıra biləydi. Bu şam ağaclarının ətirli kölgəsində uzanıb dincələ biləydi.

Atlar yoxuş yuxarı ağır-ağır addımlayırdı. Atların da üzündə faytonçunun üzü kimi yorğun və laqeyd bir ifadə var. Görünür atlar da, faytonçu da uzun illər eyni yolu eyni addımlarla keçməkdən yorulub usanmışdılar. Nə təbiətin gözəlliyi, nə də bu şən insanlar faytonçunu ağır fikirlərindən ayıra bilmirdi.

Gül-çiçək içərisindəki yay evlərinin balkonlarında arabir solğun rəngli gözəllər görünürdü. İstanbulun varlı əhalisi yayı bu adalarda öz yay evlərində keçirirdi. Heç yerdə gülləri bu qədər gözəl görməmişdim. Gül hər yerdə güldür və hər yerdə gözəldir. Adaların gülə baxan, gül becərən bağbanları görünür böyük estetik zövqə malikdir. Güllər gah pəjmürdə bir dəstə gül, gah səliqəli bir qamət, gah zənbilə yığılmış dəstə formasında düzəldilmişdi. Gül topalarına belə forma vermək, şübhəsiz, ustalıqdır. Bəzi yerlərdə güllər ot-alaq içində batıb gedir. Böyük adanın gülləri isə xüsusi zövq və səliqə ilə saxlanılırdı.

Yuxarıda, şam meşəliyində otlar, çiçəklər bizim dağların otuna, çiçəyinə bənzəyirdi. Bülbüllər də bizim bağların bülbülləri kimi cəhcəh vururdular. Otların, çiçəklərin, bülbüllərin dili hər yerdə birdir, onların heç bir tərcüməçiyə ehtiyacı yoxdur.

Böyük adanı yaxşıca gəzib sahilə endiyimiz zaman bizi gətirən "Maltəpə" gəmisi bizi sədaqətlə gözləyirdi. Bilet alıb gəmiyə mindik. Mərmərə dənizinin yaşıl suları ilə irəliləyirdik. Gözüm yeni çiçəkli adaya sataşdı. Əlimlə toxuna bilmədiyim vəhşi çiçəkləri uzaqdan gözlərimlə öpüb ayrıldım.

Adalar keçmişdə türk sultanlarının, paşalarının istirahət yeri olub. Paşazadələr içərisindən dövlət əleyhinə işləyən üsyankar ruhlu adamları da bu adalardan bəzilərinə sürgün edər, orda həbsdə saxlarmışlar.

Xaldun Taner vidalaşıb Kadıköydə su pərisinə bənzəyən rəfiqəsi ilə gəmidən düşdü. Biz iskələyə qayıdırdıq. Axşam düşürdü. Axşam qaranlığı İstanbulun qara, kirli binalarını gizlətmişdi. İndi gecələr işıqlanan camelər görünür, göyün boz-mavi fonunda ətrafına muncuq kimi işıqlar düzülmüş minarələr ucalırdı.

Xaldun Taner Avropa təhsili görmüş, mədəni bir ziyalıdır. Onun şəxsiyyəti ilə yaratdığı əsərlər arasında ziddiyyət var. "Dəvə quşu", Kabare teatrında qoyulan "Şəhri İstanbul" tamaşası İstanbulun aşağı təbəqələrinin həyatına yaxşı bələd olan, həm də sənətkarlıq sirrini bilən usta bir yazıçının qələm məhsuludur. Şəhərin məişət səhnələri, ictimai həyatın bir parçası, kəskin siyasi satira, ölkənin və xalqın taleyi üçün narahat olan sənətkarın həyəcan və təşvişlərinin ifadəsidir. Tamaşaçı yazıçının bu təşvişlərini yerli və əsaslı hesab edir, şərik olub alqışlayır.

Xaldun Taner ağlamalı işlərə güldürməyi bacaran sənətkardır. "Şəhri İstanbul" qeyri-adi, orijinal bir kompozisiyadır. Orda Nazim Hikmətin və Orxan Vəlinin şeirləri, Əziz Nesinin novellası iştirak edir. Aktyorlar öz geyimlərində çıxış edirlər. Qədim yunan dramına məxsus tərzdə xorla şeirlər oxuyurlar. Nazimin və Orxan Vəlinin şeirlərini. Bütün bu ünsürlər bir mövzu ətrafında birləşir. Şəhri İstanbul. Şəhri İstanbulun bugünkü həyatı, məişəti, adamları... Personajların ruhi halını dərindən tədqiq etmək, kəskin ictimai motivlər, ictimai həyatın müxtəlif cəhətini qələmə almaq, təsvir etdiyi hadisə və adamların daxili aləmini açıb göstərmək, xəstə cəhətləri ifşa etmək Xaldun Tanerin sənətkarlıq xüsusiyyətidir.

Səhnə boşdur, dekorasiya deyilən şey yoxdur. Aktyorların geyimindəki dəyişiklik çox cüzidir, pencək geymək, yaxud çıxarmaq, pencəyin yaxalığını qaldırmaq, köynəyin qolunu yuxarı çırmalamaqla kostyumda müəyyən dəyişiklik edilirdi. "Şəhri İstanbul" İstanbulun bugünkü həyatını təsvir edən kəskin satira əsəridir. Bəzən aktrisaların rolda həddən artıq abırsızlıq eləmələrinə dözmək, mənim kimi tamaşaçılar üçün çətin olurdu. Hər şey alışmaqdan asılıdır, yəqin ki...

Boğaz içində Çinaraltı deyilən bir yer var. İndi bura qəhvəxana və çayxanadır. Bura şairələr yığışar, söhbət edər, şeir oxuyarlarmış.

Deyirlər, çinarlar çox yaşayır, çinarların ömrü uzun olur, yüz illər, bəlkə daha çox. Kim bilir, bu Çinaraltı kimləri görmüş, hansı şairlərin səsini dinləmişdir. Boğaz içinin mavi suları türk şairlərinin axıcı, səyyal şerlərini dinləyərək narın-narın ləpələnmiş, şeirlərin ahəngi bahar rüzgarına qarışıb ölkənin hər yerini gəzmişdir. Bəlkə, bu çinarın ulu babaları, saray mühitində, saray havasında darıxıb açıq havaya çıxmaq istəyən divan ədəbiyyatı şairlərinin də şeirlərini dinləmiş, xalq dərdinə, xalq müsibətinə biganə olan sultanlara qəsidələr, mədhiyyələr yazan şairləri kölgəsindən qovmuşdur. Bəlkə, Lalə dövrü şairləri, nədim gəlmiş Çinaraltına, şerin, sənətin əbədi mövzusu olan məhəbbət şeirlərini oxumaq üçün.

Məsti-lazim kim böyütdü böylə bipərva səni,
Kim yetişdirdi bu günə sərvidən bəla səni
Buydən xoş, rəngidən pakizədir nazik tənin,

Bəsləmiş qoynunda guya kim küli rəna səni
Bir əlində gül, bir əldə cam, gəldin saqiya,
Ğanqısın alsam gülü, yaxud ki, camı ya səni...

Məhəbbət əbədi mövzudur, onu şairlərə heç kəs qadağan edə bilməmişdir.

Hələ orta əsrlərdə divan şairləri sultanları vəsf eləyən mədhiyyələr yazdıqları zaman, uzaq Sivasda Pir Sultan Abdal sultana qarşı kəndli üsyanlarına başçılıq etdiyi üçün dar ağacından asdırılmışdı.

Türkiyənin tarixini, ictimai-siyasi həyatını öyrənmək üçün şairlərin taleyinə nəzər salmaq kifayətdir.

Zülm və istibdad əli ilə söndürülən çıraqlar xalq tərəfindən yenidən yandırılmış, xalqın azadlıq uğrunda mübarizə yollarını məşəl kimi işıqlandırmışdı.

Bəlkə Çinaraltı odlu vətənpərvər, böyük inqilabçı şair Namiq Kamalın ehtiraslı səsini eşitməmişdi.

Zalım olsa nə rütbə bipərva,
Yenə bünyadı zülmü biz yıkarız.
Mərkəzi xakə atsalar da bizi,
Kürreyi ərzi patlatır, çıxarız.

Ömrü zindanlarda, sürgünlərdə keçən şair, Rodos adasında sürgündə məhv olmuşdu.

Ölərsəm görmədən millətdə ümid etdiyim feyzi,
Yazılsın səngi qəbrimdə vətən məhsun, bən məhsun...

Əbdülhəmid istibdadının qara günlərində ona sui-qəsd hazırlayan vətənpərvərin atdığı bomba birçə an gecikmiş, sultan xilas olmuşdu. Türkiyənin ən böyük şairlərindən biri Tofiq Fikrət bu münasibətlə "Birləhzə təxir" şerini yazmışdı:

Ey şanlı avçı, damini[1] bihuda qurmadın,
Atdın, fəqət yazıq, yazıqlar ki, vurmadın...

Əsrin əvvəllərində Əbdülhəmid taxtdan düşdüyü zaman Fikrətin müdrik və təmkinli səsi eşidildi:

Haqsızlıq edən başları bir gün qoparırlar.

Çinaraltı, sən kimləri görmüsən, kimləri yola salmısan? Bosforun sahilində vətən timsalı olan Çinaraltı... Dünya dərdlərindən, vətən qayğılarından kənara çəkilib şerə və sənətə xalq dərdini buraxmayan, səslərin, kölgələrin, ahənglərin aləmində yaşayan şairlər... Türkiyənin iki böyük söz ustası, sənətkar şairi Yəhya Kamal, Əhməd Haşım... Qoca çinar yəqin ki, bu şairləri dinləmiş, onların məstedici şeirlərinə qulaq asarkən gənc Nazim Hikmətin dili ilə:

Akın var, günəşə akın,
Günəşi zəbt edəcəyiz,
Günəşin zəbti yakın,

– deyə gurlamışdı. Ədəbiyyata mübarizə ruhu gətirən, proqressiv fikir və düşüncə inkişafına təsir göstərə bilən şairlər xalqın ictimai mübarizə tarixinə imza ata bilir, orada möhkəm yer tutur. İyirminci əsrin öz məsələləri, öz problemləri var. Əsrimizin böyük şairlərindən biri olan Nazim Hikmətin tribunası yalnız Çinaraltı deyil, daha böyük meydan və daha yüksək zirvələr olmuşdur.

Ya ölü yıldızlara həyat aparacağıq,
Ya bizim dünyamıza çökəcək ölüm.

Aya, ulduza həyat aparmaq ərəfəsindədir əsrimiz. Türkiyənin gözəl şairləri yəqin ki, Nazim estafetini daha uzaqlara aparacaq, bu şöhrəti bir az da yüksəklərə qaldıracaqlar.

İstanbuldan, boğaz içindən söhbət açarkən, İstanbulu odlu bir məhəbbətlə sevən, ona incə tellərlə bağlı olan gənc şair Orxan Vəlini

[1] Dam – ovçu tələsi

xatırlamamaq haqsızlıq olardı. Çinaraltı yəqin ki, Orxan Vəlinin gözəl şeirlərini dinləmiş, ruzgarların qanadında onları məmləkətin ən uzaq guşələrinə yola salmışdır. Orxan Vəli İstanbul şairi idi. İstanbulu tərənnüm edən şair idi. Amansız ölüm onu İstanbuldan vaxtsız ayırmasaydı, daha gözəl şeirlər yazardı İstanbula....

İstanbulda boğaz içində
bir fəqir Orxan Vəliyim
Vəlinin oğluyum,
Urmeli hisarına oturmuşum
Oturmuşum da bir türki tutdurmuşum:
İstanbulun mərmər daşları
Başıma qonuyor, qonuyor, aman,
martı quşları,
Gözlərimdən boşanır
Hicran yaşları
Edalım, sənin yüzündən bu halım
İstanbulun orta yeri sinema
Qəribliyim, məhzunluğum duydurmayın anama...

Orxan Vəli İstanbula həsr etdiyi bir başqa şerində onu belə təsvir edir:

İstanbulu dinliyorum gözlərim qapalı,
Xəfifdən bir ruzgar əsiyor,
Yavaş-yavaş sallanıyor
yarpaqlar ağaclarda...
İstanbulu dinliyorum gözlərim qapalı
Sərin-sərin qapalı çarşı,
Civil-civil Mahmud paşa, göyərçin dolu avlular,
Çəkic səsləri gəliyor doklardan.
Gözlərim bahar ruzgarındakı qoxular,
İstanbulu dinliyorum gözlərim qapalı...

Orxan Vəlinin bu qədər böyük məhəbbətlə sevdiyi gözəl İstanbulda insanların həyatı eyni dərəcədə firavan və rəngarəng deyil. Şəhərin bütün təzadlarını şairin balaca bir şeri ilə ifadə etmiş olsaq, əsl realist boyalarla işlənmiş canlı bir mənzərə açılır:

Bedava yaşıyoruz, bedava[1],
Hava bedava, bulud bedava,
Dərə, təpə bedava,

[1] Bədava – havayı, pulsuz, nisyə

Otomobillərin dışı,
Sinemaların qapısı
Camedanlar bedava,
Peynir, əkmək deyil, amma
Acı su bedava
Kəllə fiyatına[1] *hürriyyət.*
Əsirlik bedava,
Bedava yaşayoruz, bedava.

İstanbulun şairanə guşələrindən biri də "Aşiyan"dır. Şerin, sənətin, yüksək idealların aşiyanı. Böyük humanist şair, demokratik ideyalar carçısı, xalqın gələcəyinə inanan, azadlığa böyük ümidlər bəsləyən şair Tofiq Fikrətin aşiyanı – "Aşiyan"da boğaz içindədir, indi o, Fikrətin ev-muzeyidir, həm də bu ev-muzeydə heç bir muzey soyuqluğu, muzey cansıxıcılığı yoxdur, ora arı yuvası kimi qaynayır. Bütün günü "Aşiyan"ı dolduran adamlar içərisində gənclərə daha çox təsadüf edilir. Dəstə-dəstə oğlanlar, qızlar "aşiyan"ın otaqlarına dolub-boşalırlar. Görünür, gənclərdə Fikrət yaradıcılığına böyük maraq var. Bələdçinin verdiyi məlumata görə, iki alt mərtəbənin birində Əbdülhəq Hamidin, o birində isə Nigar bənd Osmanın həyat və yaradıcılığına aid materiallar saxlanılır. Nigar xanımın mərtəbəsinə "Şair Nigar salonu" adı verilmişdir. Bu salon eyni zamanda qiraətxanadır. Bağlı olduqları üçün biz bu qatları görmədik.

"Aşiyan"ın pəncərələri boğaz içinə açılır. Bu pəncərələrə dunyanın ən gözəl pəncərələri deyirlər. "Aşiyan" boğaz içində, təpə üzərində yerləşmişdir. Otaqlarda Fikrətin çoxlu əlyazmaları, çəkdiyi rəsmlər, aldığı məktublar, işlətdiyi əşyalar saxlanılır. Rza Tofiqin Fikrətin ölümü münasibətilə yazdığı şeir də burdadır.

Dedilər ki, izsiz qalan türbəndə
Vəhşi güllər açmış, görməyə gəldim.
O bağı cənnətin xakinə mən də
Həsrətlə üzümü sürtməyə gəldim.

Fikrətin məzarı da "Aşiyan"ın həyətindədir. Əyilib "Aşiyan"ın torpağından bir ovuc götürdüm, dəsmalıma bağladım. Bakıya gələndə onu dostum Sabihə Sərtələ hədiyyə apardım. Səbihə xanım Fikrəti çox sevirdi. O, Fikrətin yaradıcılığı haqqında bir neçə əsərin müəllifidir. Bolqarıstanda nəşr edilmiş "Fikrət irəliçilik və geriçilik qavqasın-

[1] Fiyat – qiymət

da" əsərində Fikrət haqqında belə yazır: "Tofiq Fikrət, yıxılmaqda olan bir imperatorluq dövrünün məhsuludur. Bu imperatorluğun tarix içində bir oluş, yıxılış dövrü, bu dövrün içində də xarici mücadilələr, ziddiyyətlər, islahat və reaksiyalar vardır. Heç şübhə yox ki, bütün bunlar Fikrətin həyatında olduğu kimi, şerində, fəlsəfəsində, fikirlərində də öz əksini tapmışdır".

Bakıya qayıtdığım zaman Səbihə xanım xəstəxanada yatırdı. Onu görməyə getdim. Başqa hədiyyələrlə bir yerdə Aşiyanın torpağını da apardım. Çox sevindi. Vətən torpağı... İstanbul torpağı, həmin ilin payızında Səbihə xanım vəfat etdiyi zaman qızı Yıldız bu torpağı onun məzarına tökdü.

Türkiyənin ictimai fikri inkişafına böyük təsir göstərmiş şairlərdən biri Tofiq Fikrətdir. O, xalqına Əbdülhəmid istibdadına qarşı üsyan ruhu aşılayır, vətəni bürüyən acı sisdən xilas olmağa çağırırdı. Fikrət optimist şair idi, gələcəyə böyük inam bəsləyirdi. "Fərda" şeri ilə vətənin istiqbalını salamlayırdı. Avropaya təhsil almağa gedən oğlu Xəluqə yazdığı şeirlərdə vətənə elm, mədəniyyət, tərəqqi, işıq lazım olduğunu söyləyirdi:

Nə bulursan, buraxma – sənət, fən,
Etimad, etina, cəsarət, ümid.
Həpsi lazım bu yurda, həpsi müfid.
Bizə bol-bol ziya qucaqla gətir.
Düşmək ətrafi görməməkdəndir.

Fikrət bacısına yazdığı çox səmimi və çox təsirli "Həmşirəm için" şerində qadın varlığına yüksək qiymət verir, qadın azadlığının cəmiyyətin inkişafı üçün mühüm bir amil olduğunu söyləyirdi:

"Əlbət, səfil olursa qadın, alçalar bəşər".

Humanist ideyalarla yazıb-yaratmış, insanlığı dostluğa, qardaşlığa çağıran şair bu gün də gənclər tərəfindən odlu bir məhəbbətlə sevilir və hörmətlə yad edilir.

Səhnədə izdiham çırpınır, çıxış yolu axtarırdı. Lakin heç bir çıxış yolu yox idi. Bir dəstə adam – uşaq, böyük, kişi, qadın, kasıb geyimli, kasıb görkəmli bir dəstə adam ağır vəziyyətdən çıxmaq istəyir, qurtuluş yolu axtarır, tapa bilmirdi. Hansı yana can atırsa topədən-dırnağa qədər silahlı, dəmir papaqlı nəhəng Amerika hərbçisi qarşılarına çıxır, izdiham çevrilib o biri tərəfə qaçmaq istəyir, bir an içində silahlı nəhəng başqa yerdən yolları kəsir; qurtuluş yolu bağlıdır, qurtuluş yolu

yoxdur. Bu səhnə quruluş etibarilə o qədər ifadəlidir ki, ona heç bir söz əlavə etmək lazım deyil. Əslinə baxsan, bu səhnədə bir kəlmə də söz yoxdur. Sözsüz də hər şey aydındır. Sonrakı səhnələrdə dövlət başçıları, onların şəxsi həyatı, Amerika dövlət xadimləri ilə əlaqələri, onların əmri altında hərəkət etmələri göstərilir və kəskin tənqid olunur. Aktyor səhnəyə çıxıb Süleymanı təqdim edir:

Süleymaniyə burası,
Hər cins insan yatağı –
Sağçı, solçu, sosialist,
Turançı, irqçi, faşist,
Dinli, dinsiz, müsəlman
və həpsinin üstündə
Şu möhtəşəm Süleyman
Şu möhtəşəm Süleyman.

İstanbul "Ho", yəni xalq oyunları teatrında "Devri Süleyman" əsərinə tamaşa edirik. "Ho" teatrı nədənsə taleyini pilləkənlərlə bağlayıb. Ankarada bu teatrın tamaşa salonuna girmək üçün pilləkənlərlə küçədən xeyli aşağı enməli olduq. İstanbulda isə "Ho" teatrına girmək üçün pilləkənlərlə yuxarı qalxmalıyıq. Yaxşı ki, bizi lift qaldırdı. "Devri Süleyman" pyesinin müəllifi Aydın Engin, əsərdə həm quruluşçu rejissor, həm də aktyor kimi çıxış edirdi. Klmprador Şərbətçi oğlunu oynayırdı. Əsər açıqdan-açığa Amerika imperialistlərinin Türkiyədə apardığı siyasəti, dövlət başçılarının isə Amerikanın əmri ilə hərəkət etdiklərini kəskin surətdə tənqid edirdi. Əsər çoxdan tamaşaya qoyulduğuna baxmayaraq salon tamaşaçılarla dolu idi. Tez-tez əl çalırdılar.

Qadının səsi bulaq suyu kimi çağlayırdı. Həzin və şəffaf bulaq suyu kim... Onun səsində heç bir gərginlik hiss olunmurdu, nəğmələr bir-birinə qoşulub çağlayırdı, nəğmələr bir-birini təqib edirdi. Ona toxunan olmasaydı, bütün gecəni beləcə sərbəst, axıcı bir ahənglə, səmimi və bakir bir ilhamla oxuya bilərdi. Oxuduğu şərqilər bir-birinə elə təbii bağlanırdı ki, onların səfini qırmaq, dağıtmaq, yarıda buraxmaq insafsızlıq olardı. Köhnə türk şairlərinin şeirlərinə bəstələnmiş havalardan oxuyurdu. Nədim, Qul Nəsimi...

Nəsimiyə derlər: yarın ilə xoşmusan?
Xoş olaydım, olmayaydım kimə nə?
O yar bənim, kimə nə?
Könül bənim, kimə nə?

Gah çıxarım göy üzünə,
seyr edərim aləmi...
Gah enərim yer üzünə,
Seyr edər aləm bəni...

Qoca Şərq, sənin dörd divar arasında nə qədər istedadın batıb gedir. Kimisi avamlıqdan, kimisi cəhalətdən... Kimisini də sərvət məhv edir. Qadın üçün səhnəyə çıxıb oxumaq çox da ləyaqətli hərəkət sayılmır. Məlihə xanımın şeirlərini xatırladım.

Onu təvazökarlıq boğurdu. İnsan üçün qiymətli bir keyfiyyət olan təvazökarlıq burda lazımsız və yersiz idi.

İndi dinlədiyimiz Səmra xanımın da məlahətli səsi divarlar arasında boğulurdu. Səmra xanım oxuyurdu, mənə elə gəlirdi ki, o, heç dinləyicilərə də əhəmiyyət vermir, öz-özünə oxuyur, daxili bir ehtiyacla könlünü şərqilərlə açıb tökürdü. Onun səsi təbii, bərrak, həzin bir bulaq suyu kimi axırdı. O, bütün gecəni ardı-arası kəsilmədən bu gözəl şərqilərini oxuya bilərdi. Biz də bütün gecəni səhərə qədər onu dinləməyə hazır idik.

Bircə onun nəğmələri yarıda qalmasın, o nə gözəl, nə təbii, nə səyyal bir ahənglə çağlayırdı... Bu səsi insan qulağıyla yox, könlü ilə, bütün varlığı ilə dinləyir.

Əri ona qaş-göz eləyib nə isə işarələr verir, mətbəx tərəfi göstərirdi. Yəni süfrə açmaq, masanı düzəltmək vaxtıdır demək istəyirdi. Mən onun qolundan yapışıb – "amandır ona dəyməyin, biz heç bir şey istəmirik, nə yemək, nə içmək, yalnız siz ona toxunmayın, qoyun nəğmələri qırılmasın" – demək istəyirdim.

O yerindən qalxıb mətbəxə sarı getdi, bir an içində masanın üstü yemək-içməklə doldu, keçən illərdə yazdığım mətbəx şeirləri yadıma düşdü.

Dostumuz yazıçı-jurnalist Həyatı Asılyazıçının evində idik. Həyatı bəy çox qalın bir türk poeziya antologiyası götürüb ordan şeirlər oxumağa başladı.

Bu kitaba çox qədimlərdən bu günə qədər türk şairlərinin şeirlərindən nümunələr toplanmışdır. Həyatının balaca oğlu Sinan bayaqdan bir tərəfdə oturub anasının şərqilərinə qulaq asırdı. Uşağın üzündə elə ifadə vardı ki, elə bir anasını ilk dəfə dinləyirdi. Zahid Hüseynovla Azadə xanım da orada idilər. Bərabər getmişdik. Azadə xanım ərəb

ölkələrində yaşadıqları günlərdən, ərəblərin adət və ənənələrindən söhbət edirdi.

Həyatı teatr tənqidi ilə məşğul olur. İndi onun Gürcüstan teatrı haqqında yazdığı silsilə məqalələr "May" jurnalında dərc olunur. O, bizdən teatra aid materiallar göndərməmizi xahiş edirdi. Bu evdə də mədəni əlaqələrin zəifliyindən söhbət getdi. Hara getsək eyni sözü eşidirdik. Gürcü yoldaşlar səliqə ilə respublikanın teatr həyatı, ədəbiyyatı və mədəniyyəti haqqında materiallar göndərir, gürcü mədəniyyətini Türkiyədə təbliğ edirlər. Bu iş hər cürə təqdirə layiqdir. Biz isə ətalətdən qurtara bilmirik.

Həyatı gürcü dilini az bilir. O, anası tərəfdən lazdır. Keçən ilki səfərimizdə bizimlə bərabər gəlmiş gürcü yoldaşlarla danışa bilirdi. Həyatı bəy deyir: "Türkiyədə dənizə çıxan laz, dağa çıxan kürd, ata minən çərkəz, piyada gedən türk olur".

Gecə xeyli söhbətdən sonra otelə qayıtdıq. Biz durub gedəndə balaca Sinanın yorğun gözləri lap qapanırdı.

Səhər yazıçı dostumuz Yaşar Kamal yaşadığımız "Kavak" otelinə bizimlə görüşə gəldi. O, həmişəki kimi səs-küylü idi. Bakı səfərini xatırlayır, Qubaya getdiklərini yada salır, deyib-gülür, şaqqıldayırdı. Nəşr elədiyi "Ant" jurnalında keçən il Nazimin ölümünün beşinci il-dönümü münasibətilə xeyli material çap eləmişdi. Jurnalı mənə təqdim edib: – Al, şerini oxu, – dedi.

Nazimin ölümünə yazdığım "Bəşər oğlu" şerini jurnalın səhifələrində görüb, çox sevindim. Şeri olduğu kimi azərbaycanca nəşr etmişdilər. Səhifənin sonunda bir çox Azərbaycan sözünün lüğəti mənasını vermişdilər.

Jurnalın səhifələrini vərəqləyib gözucu öz şerimi də oxumağa başladım. Rəsul Yaşar Kamal ilə şirin söhbətə girişmişdi. Rəsul, Ankarada "Ho" teatrında onun "Tənəkə" əsərinə baxdığımızı söylədi. Yaşar – fəna, fəna, – deyirdi, – məndən dramaturq çıxmadı. Sonra söhbət "İncə Məməd" romanına keçdi. Rəsul xəbər aldı: – İncə Məmədin gerisini yazdınmı?

– Yazdım, əvət, ikinci, üçüncü kitab da basıldı.

Başımı qaldırıb xəbər aldım: – Onlar da birinci kitab kimi gözəldirmi?

– Birincidən də gözəldirlər, – dedi.

– Müəllifin öz əsərindən razı olması yaxşı iş deyil ha!.. – deyə Rəsul zarafat elədi. Hər üçümüz bərkdən güldük.

Yaşar Bakıdakı həyatımız, ədəbiyyatımız, yazıçılarımızla maraqlanır, hamını xəbər alır, salam göndərirdi.

Saat on birdə sovet konsulxanasının məsul işçisi Zahid Hüseynov yoldaşı Azadə xanımla gəldi, bizi oteldən götürüb, konsulxananın yay bağına qonaq apardılar.

İstanbulda sovet konsulxanası İstanbulun kübarlar məhəlləsi sayılan Bəyoğlunda, İstiqlal caddəsindədir. Binanı rus çarı I Nikolay, hələ osmanlı imperatorluğu dövründə rus səfarətxanası üçün tikdirmişdir. Bina Moskvada olan rus dvoryanlarının qış malikanələri üslubundadır. Ağır sütunlu salon, ağır qapılar, şaxtalı keçirən soyuq şimal ölkələrinə məxsus bir tərzdə inşa edilmişdir. Binaya daxil olmaq üçün, dəmir barmaqlığı olan açıq darvazadan həyətə girmək, sonra həyəti keçib o biri başda olan binaya girmək lazımdır.

Maşınla konsulxananın yay evinə gedirdik. Maşını Zahid müəllim özü sürürdü. Yolu getdikcə Azadə xanım İstanbulu bizə göstərir, izahat verirdi. Bosforun lap sahilində Sarı yer deyilən yerə çatdıq. Yay evinin ərazisi yerləşən hissə "Böyük dərə" adlanır. Maşın dəmir barmaqlıqlı böyük darvazadan içəri girəndə üzümüzə ətirli bir meşə sərinliyi vurdu. Maşından düşüb, böyük və kölgəli ağacların altındakı gül-çiçək xiyabanları ilə keçdik, evin pilləkənlərindən yuxarı mərtəbəyə qalxdıq. Otaqları gəzdik, balkona çıxdıq. Balkondan Bosfor görünürdü. Cökə və dəfnə ağaclarının ətri bağçanı bürümüşdü. Balkonda bir az oturub, yenidən ayağa qalxdıq. Bağı gəzməyə getdik. Açıq havada düzəldilmiş yay kinoteatrının idman meydançasının yanından keçdik. Meşə yolu ilə yoxuş yuxarı getdikcə yüksəklərə qalxırdıq. Fısıqlıq meşə təbii halında saxlanılırdı. Palıd, qarağac, dəfnə, şam ağacları olan sıx, basırıq meşə Hacıkəndin kölgəli, rütubətli meşələrinə bənzəyirdi. İnsanın əsəblərini heç bir şey meşə sükutu qədər dincəldə bilməz. Qalın, sərin kölgəli meşə dərin sükuta qərq olmuşdu. Arabir isaq-musaq quşunun səsi gəlir, ağacdələnin, ağacların gövdəsinə vurduğu dimdiyinin yüngül balta səsi kimi tappıltısı eşidilirdi. Otların arasından qurdalanan tısbağalar hərdən qart baxışlarını qından çıxarır, ətrafa baxıb yenə gizlədirdi. Meşə sükunət aləmində idi.

İstanbulun gurultulu, qarmaqarışıq, səs-küylü həyatından sonra, həyəcanlı, intizarlı görüşlərin sevinc və ağrısından sonra bu vəhşi təbiət, bu əzəmətli meşə sükutu bizi bir günlük də olsa hər şeydən ayırmışdı. Təbiətin qoynunda, çox doğma, çox mehriban bu iki həmvətənimizlə bir yerdə olmaq sonsuz fərəh verirdi.

Bu gün bütün varlığımızla istirahət etdik. Meşə yolunda rast gələn konsulxana işçiləri, onların arvad-uşaqları ilə mehriban salamlaşıb yolumuza davam edirdik. Xeyli yuxarı qalxmışdıq. Açıq bir tarlada sərv ağaclarının altındakı skamyada oturub bir az dincimizi aldıq. Azadə xanımın bir cüt qızı Moskvada internat məktəbində təhsil alır. Onun canı qızlarının yanında idi. Bir neçə gün sonra qızları ilə görüşmək üçün Moskva səfərinə hazırlaşırdı. Bütün analara xas olan görüş həyəcanı ilə günləri sayırdı. Skamyada oturub söhbət edirdik. Mən də artıq uşaqlar üçün darıxdığımı söyləyirdim. Bosfor lap yaxında idi. Bosfordan gəlib-gedən gəmilər aydın görünürdü.

Axşama qədər meşəni, bağı gəzdik. Nahar vaxtı bağa enib Azərbaycan kababı bişirdik. Kababı Zahid müəllim üstü bağlı manqalda bişirirdi. Azadə xanım süfrə hazırlayırdı, mən də yalançı pəhləvan kimi girib çıxır, iş görürəm deyə səs-küy salırdım. Onlar çox hörmətli və qonaqpərvərdilər, bizi heç bir iş görməyə qoymadılar. Yaxşıca dincəldikdən sonra axşama yaxın şəhərə yola düşdük.

İstanbulda axırıncı günümüzdür. "May" yayın evinə getmək, köhnə kitablar satılan "Sahaflar" kitab mağazalarına baxmaq, arada bir türk filminə tamaşa eləmək istəyirik. Başqa xırda-para işlər də var. "May" – Məmməd Ali Yalçının yayın evində nəşr edilən jurnalın adı belədir. Məmməd Ali Yalçın ad və familiyasının birinci hərflərini götürüb "May" adı düzəltmiş və jurnalına bu adı vermişdir. Məmməd Alinin anası azərbaycanlıdır. Atası türk kommunisti olub, Mustafa Sübhinin nəslindəndir. Türkiyədə keçmişdə uzun illər sürgündə olub. Həbsxanada vəfat etmişdir. Məmməd Alini görən onun azərbaycanlı olduğuna şübhə edə bilməz. O bizim Abşeron kəndlərinin oğlanlarına bənzəyirdi. Nazik qarabığlı, qaragözlü, dərisinin rəngi tünd, ortaboylu, ortayaşlı bir adamdı... "May" jurnalından başqa onun yayın evi həm dünya ədəbiyyatı nümunələri, həm də türk yazıçılarının əsərlərini nəşr edir. Məmməd Ali Azərbaycan yazıçılarının əsərlərini çap eləməyə böyük həvəs göstərir. Bizdən əsərlər göndərməmizi xahiş etdi. "May" yayın evində ən müasir çap maşınları var idi. Maşınlar yığcam, təmiz və səliqəli görünürdü. Poliqrafiya sənayesində ən son modern maşınlar hesab edilirdi. Nəşriyyat işləri ilə tanış olduq, görüşüb ayrıldıq. Birbaş qapalı çarşı bazarının aşağı

hissəsində yerləşən "Sahaflar" kitab mağazalarına getdik. Heç bir şey insanı kitab mağazaları qədər yora bilməz. Kitablara baxdıqca baxırsan, saatlar sürətlə ötür, vaxtın keçdiyini hiss eləmirsən. Bir də başında böyük bir ağırlıqla ayaq üstə dura bilmədiyini hiss edirsən.

"Sahaflar"da əsas etibarilə köhnə kitablar satılır. Burada nələr yoxdur! Təzə kitablar da cərgə-cərgə düzülüb alıcılarını gözləyir. Ərəb əlifbası ilə də qədim kitablar çoxdur. Köhnə şairlərin divanları, Cəlaləddin Rumi, Nədim, Yunis İmrə... müasir şairlərin şeir kitabları, romanlar, dünya ədəbiyyatı nümunələri, rus klassikləri – Tolstoy, Dostoyevski, Çexov, müasir rus ədəbiyyatı – Maksim Qorki, Şoloxov, Pasternak və sairə və sairə... Bu kitabların əksəriyyəti türk dilinə fransızcadan tərcümə olunub. Azərbaycan ədəbiyyatından bir nüsxə də kitab görmədim... Füzuli əsərlərinə və Füzuli haqqında əsərlərə rast gəlmək olur. Füzulidən və Nəsimidən başqa heç bir Azərbaycan yazıçısının əsərinə rast gəlmədik.

Çox yorulmuşam, amma türk filminə baxmaq imkanından da keçə bilmirəm. Filmin yarısını yatsam da, yarısını görərəm, heç olmasa, bir təsəvvürüm olar. "Cinganə gözəli" filminə baxırıq. Yüngül komediya kimi bir şeydir. Aktrisa gözəldir. Yorğunluqdan gözlərim qapanır. Filmin ancaq yarısına baxa bilirəm, o biri yarısını Rəsul mənə nəql eləyir. Elə görmüş kimi varam. Qoca kişi xəstədir, oğluna deyir ki, gətir alacağın qızı mənimlə tanış elə, var-yoxumu sizə vəsiyyət eləyim. Oğlanın sevdiyi qız başqa şəhərdədir. Atam ölər, arzusu gözündə qalar, – deyə bir cinganə gözəli, yəni qaraçı qızı tapır, nişanlı rolu oynamasını ona tapşırır, əvəzində pul təklif edir. Qaraçı qızı evə oğlanın sevgilisi kimi gəlir. Ata ilə tanış olur, ataya həkim pəhriz təyin eləyib, bütün günü ona yemək verməyib ac saxlayırlar. Cinganə gözəli hər gecə hamıdan xəlvət ataya podnos dolu yemək gətirir, qocanı o ki var yedirdir. Qoca sağalıb ayağa qalxır. Qoca gələcək gəlininə çox bağlanır, onu çox sevir. Oğul da bu qızı daha çox sevməyə başlamışdır. Əsl nişanlı geri döndüyü zaman oğlan onu soyuq qəbul edir. Qız qaçıb ataya söyləmək istəyir, ata da cinganə gözəlinin tərəfindədir.

Səhər tezdən İstanbuldan Ankaraya gedən avtobusların stansiyasına gəldiyimiz zaman uşaqlar hamısı orada idilər. Nigarın rəngi qaçmışdı. Çox qəmli görünürdü. Üşüyən adamlar kimi əsir, mənim böyrümə qısılırdı.

– Bu tezdən niyə durub gəlmisən, Nigar?

– Gəlməyə bilərmiydim, xala...

– Bakıya nə zaman gələcəksən, qızlar səni gözləyirlər.

– Anam tək buraxmıyor.

– Ananı da gətir gəl.

Uşaqlarla öpüşüb ayrıldıq. "Varan" ekspresinə mindik. Nigarın solğun üzündən gilə-gilə yaş axırdı. Günseli və Bertan bizi qucaqlayıb görüşdülər. Aydın hələ avtobusa da çıxdı. "Varan" yerindən tərpəndi. Nigarın həzin və sevimli xəyalı İstanbulun səhər dumanları arasında gözdən itib getdi. Biz bu ayrılıq səhərinin ağır hissləri ilə avtobusda oturmuş, bir kəlmə də danışmırdıq. "Varan" Təpəbaşı məhəllələsindən keçib Bəyoğluna gəldi, sonra taksi meydanına çıxdı. Atatürk abidəsi yanından, "Kültür sarayı" yanından keçdi. Sirkeçiyə endi, araba vaporu[1] ilə qarşı sahilə çıxdı. "Varan"[2] duracaqlarda dayanıb Ankaraya gələn sərnişinləri götürürdü. Son dayanacaqda əyləndi, axırıncı sərnişinlər avtobusa mindilər. İçəri girən yolçular arasında Aydını görüb çox sevindim. Elə bil onu yenicə görmüşdüm. O, maşını avtobusun marşrutu ilə qovub son duracaqda özünü bizə çatdırmışdı. Bir də görüşmək, bir də vidalaşmaq istəyirdi.

– Bəlkə bir şey yadımızdan çıxıb, bir söz demək istəyirsiniz, – dedi. Atası ilə, Rəsul ilə bir də görüşdü. Mən ayağa qalxıb onun boynunu qucaqladım. – Sənə qurban olum, Aydın, – dedim. – İstanbulda səndən gözəl oğlan görmədim. Bir də gözlərindən öpüb ayrıldım. Aydın aşağı düşdü. "Varan" bu ayrılıq qəminin ağır yükü ilə baş götürüb Ankaraya tərəf yol aldı.

Biz Ankaraya çatanda bərk dolu yağırdı. "Varan"dan düşüb maşına mindik. Qızıl Ay meydanından keçib Atatürk bulvarına yollandıq. "Bulvar Palas" otelinə düşdük. Gecəni oteldə qaldıq. Səhər tezdən hələ qaranlıq ikən qalxdıq. Bütün gecəni yata bilməmişdim. Rəsul üzümə baxıb:

– Sənə nə olub, xəstələnmisən? – dedi.

– Yox, bütün gecəni yatmamışam.

Tez hazırlaşıb yola çıxdıq. Ankara hələ yatırdı. Küçələrdə səs-səmir yox idi. Gecəki yağışdan və doludan sonra hava tərtəmiz idi. Çökə ağaclarının ətri hər yanı bürümüşdü.

[1] Vapor – gəmi

[2] "Varan" – türk avtobus şirkəti

Əlvida, Türkiyə, sağlıqla qal, yaxın qonşu!..

Əlvida, Ulu dağ! Əlvida, qarlı zirvələrində qış, ətəklərində bahar olan Bursa şəhəri!

Buz kimi sərin havası, buz kimi bulaq suları ilə Şuşama bənzəyən dağ şəhəri... Turistlər üçün yalnız Bursa, vətənin böyük bir şairi üçün zindan olan şəhər... Camelərin minarələrinin çoxluğu ilə İstanbuldan sonra ikinci yeri tutursan... Mövhumatçı, fanatik Bursa şəhəri, məktəblərin, mədəniyyət sarayların çoxalsın, xalqın firavan yaşasın, yoxsulluğun, ehtiyacın özü yox, adı qalsın.

Gecələri işıq gölünə bənzəyən nurlu, gözəl İzmir şəhəri, əlvida, sənin inci saillərin uzun zaman yuxularıma girəcək, bilirəm. Bizim Qaraca qıza bənzəyən kəzbanların, aişələrinlə salamat qal, gecələr çilçıraq kimi yanan işıqların bu balaca qızların sevincsiz həyatına nur saça bilsin...

Türklər "yaxın qonşu uzaq qohumdan yaxşıdır" deyirlər. Yaxın qonşumuza tərəqqi və inkişaf yollarında uğurlu gələcək, xeyirli və parlaq istiqbal arzu edirəm. İstanbulun açıq və geniş göylərini heç bir qara bulud çuğlamasın. Zəhmətkeş türk xalqı əkib-becərdiyini can-sağlığı ilə, qulağı dinc yeyib yaşaya bilsin. Qoyunoğlu səyi ilə topladığı qiymətli sənət əsərlərini binaya köçürə bilsin.

Müjgan xanımın ilhamla söhbət açdığı böyük millət kitabxanası tikilib başa çatdırılsın. Türkiyənin bütün şəhərlərində "Kültür sarayları" ucalsın.

Bu yaxınlarda Bosfor üzərində tikiləcək körpünün təməl daşı qoyulduğunu eşitdim. Bosforun Avropa sahili ilə Asiya sahilini birləşdirəcək bir kilometrlik bu körpü Avropada ən uzun körpü olacaq. İki qitəni birləşdirəcək bu körpünün rəmzi mənası xeyirli və uğurlu olsun. Bu körpü Bosforu keçmək üçün saatlarla sal növbəsi gözləyən İstanbul əhalisinin vaxtına xeyli qənaət edəcək, şəhərin nəqliyyat işini nizama salacaq, iqtisadi və mədəni həyatında böyük əhəmiyyəti olacaq bir hadisədir. Ölkənin maddi tərəqqi və inkişaf yollarında mühüm bir amil olan bu körpü qitələr arasında, xalqlar arasında salınan dostluq, qardaşlıq, sülh və əmin-amanlıq körpüsü olsun.

Yaxın qonşu uzaq qohumdan yaxşıdır. Gözəl və müdrik xalq sözü. Sovet mütəxəssislərinin layihəsi ilə İstanbulda metro tikiləcəyi sevindirici bir təşəbbüsdür. Şəhərin həyatında metronun böyük əhəmiyyəti olacağı şübhəsizdir. Əminəm ki, İstanbul əhalisinin ehtiyac və

tələbinə uyğun olaraq tikiləcək metro qonşu Türkiyəyə nəcib töhfələrdən biri olacaq.

Əlvida Türkiyə, Birsənli, Kəzbanlı, Bursalı, İzmirli Türkiyə, dağlarının başında qış, ətəklərində bahar olan məmləkət.

Çəmənlərin, yamacların həmişə lalə-gəlinciklərlə dolu olsun, leylaq-yasəmənlərin həmişə ətir saçsın.

Sağlıqla qal, yaxın qonşu!

15-25 may 1969-cu il.

QIZIL LALƏ

(*mənsur şeir*)

Qızıl lalələr... O, sevgili başını, sizin gözəl sinənizə qoyduğu zaman, mən sizə nə qədər həsrət çəkmişdim...

O, – sizi incitmək istəmirəm, – dedi. Başını mənim dizlərimə qoymadı... Qızıl lalələr, o, geniş və sağlam çiyinləri üstündəki vüqarlı başını sizin sinənizə endirdi... Onun qara qıvrıcıq saçları sizin qanadlarınız arasına qarışdı.

Göy üzü o qədər saf, üfüqlər o qədər təmiz idi ki... Sarı günəş də qızıl tellərini sizin yaraşıqlı dəstələriniz üzərinə tökmüş, gülümsəyirdi. Siz, gözəl lalələr, siz mənim qəlbimin çırpıntısını dinləməyirdiniz... siz böyük yurdun bir əsgər oğlunu öz sinəsində qucaqlayır, bəzən kiçik bir ruzgarın nəfəsilə titrəyərək, əyilərək onun dodaqlarına toxunub onu öpürdünüz... Qızıl lalələr, o gün mən sizə nə qədər həsrət çəkmişdim... O, gözəl başını qaldırır, bir az yorğun gözlərilə sizi doya-doya seyr edir, sonra yaz günəşinin mülayim və ilıq istisi altında yavaş-yavaş oxumağa başlayırdı.

Siz mənim qəlbimin çırpıntısını dinləməyirdiniz. Bəlkə də bu gənclikdir, keçər, – deyə gözəl başınızı məndən çevirir, məno fikir vermirdiniz... Qızıl lalələr, o gün siz nə qədər amansızdınız...

Bu gənclikdir, doğrudur, lakin bu keçməz... siz məni anlamayırdınız... Gənc həyatını böyük qayələr uğrunda keçirən, odlarda, sularda çarpışan, bütün ömrünü bizim bugünkü azad və şən həyatımız uğrunda qoyan bir qəhrəmanı sevmək, nəhayətsiz sevmək, bütün varlığı ilə, qüvvəti ilə sevmək nə böyük şərəf!... Mən inanıram ki, ölkənin bütün qızları öz sevgilərini belə igid oğullardan əsirgəməzlər...

Qızıl lalələr... siz xoşbəxtsiniz, lakin sizin çarpan qəlbiniz yoxdur...

O gün nə qədər fərəhli idi... Yaşıl otların üzərində bir-birini qovan əlvan kəpənəklər, alınca budaqlarında sabahın şən nəğməsində səs verən sarı bülbül, al qırmızı çiçəklər insan qəlbinə yalnız yaşamaq, çarpışmaq, sevinmək və sevmək həvəsi verirdi. O gün mayın ikisi idi. Qızıl lalələr, bu tarixi yaxşı xatırlayın...

O mənə – "qızım!" – deyir və bir uşaq kimi baxırdı. Lakin bu "uşaq" qəlbində nələr, nələr vardı... O bəzən əllərini sizə doğru uzadır, sizin nazik yarpaqlarınızla oynayırdı... mən onu sizdən nə qədər qısqanmışdım. Qızıl lalələr, o, məni oxşamırdı, sizi oxşayırdı... Siz nə qədər amansızdınız... Mən bu dəqiqədə sizə nifrət edirdim...

Günəş batırdı... Siz, gözəl lalələr, başınızı əymiş elə bil ki, batan günəşlə bir gecəlik vidalaşırdınız. Biz gəzintidən qayıdırdıq... yaşıl otlar axşamın nəmli sərinliyi altında xumarlanır, yarpaqlar üzərinə düzülmüş xırda şeh damlaları inci kimi parıldaşırdı... O sizin içinizdən bir gözəlini qoparıb, mənim yaxama taxdı.

"Qoy bu lalə dostluğumuzun ilk nişanı olsun!" – dedi. Qızıl lalələr... Eşqimin yaraşığı qızıl lalələr. Mən sizi nə qədər sevdim... Mən o gündən sizi nə qədər sevirəm!...

YENİ İL GECƏSİNDƏ

(hekayə)

Aktrisa gözəl idi. Onun məlahətli səsi vardı. O, incə nəğmələrini oxuyanda salon dərin bir sükuta qərq olurdu. Aktrisanın məlahətli səsinə qulaq asanların üzünü daxili bir hərarət işıqlandırırdı. Tamaşaçılarını görür, hər birinin üzündəki fərəh ifadəsi ona coşqun ilham verirdi. Aktrisa oxuyurdu, onun nəğmələrində dağ havasının saflığı, sərin bulaqların zümzüməsi, hündür şəlalələrin əzəmətli duyulurdu.

Lojalardan birisində orta yaşlı bir qadın, solğun üzünü əllərinə söykəyib fikirli-fikirli aktrisanın nəğmələrini dinləyirdi. Onun üzündə heç bir sevinc ifadəsi yox idi. O, elə bil ki, pəjmürdə xəyallarının kələfini bir yerə yığa bilmirdi... O düşünürdü ki, axı sənət gərək insanları xoşbəxt eləməyə qadir olsun, yaşamağa kömək eləsin, insan iztirabını azaltmaq üçün ən yaxın həmdəm olsun. Bəs nə üçün bu nəğmələr Fəridəyə sevinc vermədi? Bu aktrisanın nəğmələri, özü, onun bütün varlığı Fəridə üçün başdan-ayağa iztirab deyildimi?

Deyirlər ki, Fəridənin əri Fuad indi də aktrisa Güləndama vurulmuşdur. Fuad indi lojada arvadının arxa tərəfində oturmuşdur. O, arvadının çiyninin üstündən Güləndamın əynindəki uzun qara məxmər palтarın balağına baxır.

Fəridə geri baxmasa da ərinin nəzərlərini görürdü. O, pərişan halda Güləndamın nəğmələrinə qulaq asırdı. O, onillik ailə həyatında belə daxili çalxıntılar çox keçirmişdi. İndi konsert salonunda bu həzin nəğmələrin ahəngi altında o, elə bil ki, həyatının varaqlarını çevirirdi.

Balaca qızı Solmaz dünyaya gələndən sonra o, xeyli müddət qızdırdı. Onu müayinə edən həkimlər pensilin iynəsi təyin etdilər. Axşam, səhər Fəridəyə pensilin iynəsi vurmaq üçün evə şəfqət bacısı gəlməyə başladı. Şəfqət bacısı qarayanız, suyuşirin bir qız idi.

Bir axşam şəfqət bacısı xəstə yatan Fəridəyə yavaşcadan belə dedi:

– Sizdən bir xahişim var, yoldaşınız məni ötürməsin, mən yaxında oluram, özüm gedə bilərəm.

Şəfqət bacısı bunu deyib Fəridənin qızdırmalı əlini sıxdı. Sonra çıxıb getdi.

Gözəl bir yaz günü idi. Fəridə kiçik qızı ilə bulvarda gəzirdi, Fəridənin uzaq tanışlarından şəhərin iki qeybətcil arvadı ona rast gəldi.

– Necəsən, Fəridə?

– Yaxşıyam, sağ olun.

– Az, o aktrisa Güləndamı tanıyırsanmı?

– Məncə, aktrisalarımızı tanımayan yoxdur!

– Niyə tanımır az, o da tanımayanda kim tanıyacaq?

– Ha.. ha... ha... ha!...

– Sağ ol, biz getdik.

– Xoş gəldiniz.

Fəridə onlardan ayrıldı. Qızının əlindən yapışıb dənizə tərəf dönən xiyabana getdi. O, elə bil ki, yıxılmamaq üçün balaca qızında bir istinad axtarırdı.

– Ana, axır bir yelləncəyin yanına gedəcəkdik. Söz vermişdin ki, məni yelləncəyə mindirəcəksən.

– Gedərik, qızım, gedərik.

Fəridə nə dediyini və hara getdiyini bilmirdi, əlləri əsirdi. O qoca aşığın sözlərini xatırlayırdı. "Yaman sözdür dələr keçər, yarası çox qanı olmaz"...

Aktrisa oxuyurdu. Onun fərəhli nəğmələri salonda coşqun alqışlara səbəb olurdu.

* * *

Fəridə yeni ili öz evlərində qarşılayırdı. Axşamdan bəri balaca qızı ilə birlikdə evi bəzəmiş, uşaqların könlü şad olsun deyə süfrəyə min bəzək vurmuşdu. Gecə saat on ikidə Fəridə plovu çəkib süfrəyə gətirdi, qonaqlar, ev sahibləri badələri qaldırıb yeni ilin şərəfinə içməyə başladılar. Fəridə də uşaqları və qonaqları ilə birlikdə sevinir, şadlıq edirdi. Harada isə ürəyinin dərinliyində qırılan bir kaman teli kimi kövrək bir hiss göynəyib ağrıyırdı. Bu yeni il gecəsi, bu əziz axşamda hamı sevinir, şadlanırdı. Başqalarının sevincinə səbəb olmaq özü də bir səadət deyildimi? Şamın dövrəsinə yığılan pərvanələr kimi Fəridəni əhatə edən bu adamlar nə qədər fərəhli, nə qədər şad idilər. Onların yeni il gecəsi gözəl keçirdi. Fəridəyə bu bəs deyildimi?! O, öz daxili ağrılarını öz içərisində saxlamağı bacaran qadınlardan idi.

Kiçik qayını Fəridəni qolları arasına alıb gözəl bir rəqs musiqisinin ahəngi altında aram-aram rəqs edirdi. Kiçik bacısı tez-tez qollarını Fəridənin boynuna dolayıb onu qucaqlayır və öpürdü. Fəridə özündən kiçik bacısına da analıq eləmişdi. Hərdən öz uşaqları paltarının balağından yapışıb "ana, bizlə də oyna" deyə bağırırdılar.

Fəridə ondan ana və bacı nəvazişi istəyən bu sevimli adamların arasında bilmirdi canını neçə yerə bölsün. Fəridənin qəlbindəki şəfqət, mehribanlıq, qayğıkeşlik hissi o qədər dərin və böyük idi ki, o hamıya çatırdı.

Saat birə on beş dəqiqə işləmiş Fuad paltosunu çiyninə atıb qapıdan çıxanda Fəridə onu gördü.

– Hara gedirsən?

– Aşağıdan papiros alıb gəlirəm.

– Uşaqlardan birini göndorsənə...

Telefon zəngi onların sözünü yarımçıq qoydu. Fəridə telefonun dəstəyini götürdü. Bu vaxt Fuad qapıdan çıxıb getmişdi.

– Allo!

– Bura Fuad Yusifovun evidirmi?

– Bəli.

– Fəridə xanımı telefona çağırmaq olarmı?

– Fəridəni xəbər alan kimdir?

– Aktrisa Güləndamdır.

– Fuadı istəyirsiniz?

– Xeyr, mən Fəridə xanımı istəyirəm.

– Danışan Fəridədir.

– Xoş gördük, Fəridə xanım, sizi yeni il münasibəti ilə təbrik edirəm. Uşaqlarınıza və özünüzə can sağlığı və səadət arzu edirəm. Arzu edirəm ki, qəlbiniz mənim nəğmələrimi dinlərkən fərəhlə, şadlıqla dolsun. Aktrisa üçün bundan böyük səadət ola bilməz. İnsanlara sevinc bəxş edərək, onların kefini açmaq, könül şadlığı vermək böyük səadətdir. Siz konsertlərdə mənim çıxışlarıma pərişan halda qulaq asırsınız.

– Siz bir hələ camaatın içində məni hardan gördünüz?

– Mən görürəm, Fəridə xanım, tamaşaçılar aktrisanı gördükləri kimi, aktrisa da öz tamaşaçılarını görür, onların ürəyinə yollar axtarır. Əgər bizim sənətimiz öz dinləyicilərinə könül şadlığı vermirsə, biz öz zəhmətimizi puç hesab edirik.

– Mən sizə söz verirəm ki, bundan sonra yalnız radio ilə sizi dinlərkən pərişan fikirlərə dalaram.

– Yox, əzizim, mən sizi ağıllı bir qadın və nəcib bir ana kimi sevirəm. Sizi inandırıram ki, heç bir vicdanlı qadın sizin səadətinizin yollarına çıxmaz. Balaca qızınızı bağrıma basıb öpürəm. Sizin də gözlərinizdən öpür və onları həmişə fərəhli görmək istəyirəm... Sağ olun, xoşbəxt olun, əzizim.

Avtomat telefonun köşkündə paltosunu çiyninə salmış bir kişi əsəbi barmaqları ilə aktrisa Güləndamın telefon nömrəsini dalbadal çəkirdi.

Güləndamın telefonu isə dalbadal məşğulam, məşğulam, məşğulam qudokları verirdi.

KİTABIN İÇİNDƏKİLƏR

Sahilsiz dəniz 3

QƏRƏNFİLLƏR

Günəşdən gənclik istədim 17
Qayıqçı 17
Qərənfil 18
Qara dəniz 18
Yaz gecəsi 19
Günəş doğanda 19
Gəl səhəri salamlayaq 20
Ağlasın 20
Fəsillərə səyahət 21
Tirendə 22
Komandan 22
Ana, mənə mahnı oxu 24
Xəyal 24
Su pəriləri 25
Sevgi 25
Əlvida 26
"Dar gündə..." 27
"Sənlə xoş keçən..." 27
"Ömrümü güllərə məftun yaşadım..." 27
Qərənfillər 28
Bocluyam 28
Təranə qucağında bizə bahar gətirdi 29
Narcan 30
Kaşir yolu 32
Ayselim, Aysel! 33
"Gözlərim..." 34
Gecə uçan təyyarələr 35
İnsan hərarəti 35
Vida 37
Meşə quşları 37
"Gözlərin ürəyimin içinə baxardı..." 38
Getdin 39
Fidana 40
"Görəsən" 41
İnsan balaları 41
"Hisli, qara çıraq işığında..." 42
İnsanları sevməsəydim 43

İşıq 44
İşıqlı dünyam 44
Durna 45
Kiçik ev 46
Ad günümdə 47
Yaxşı yol 47
"Bir son bahar da..." 48
"Körpə sərv ağacını..." 49
Bayram 50
Mətbəx şeirlərim 50
"Hərdən gülüşün düşür yadıma..." 54
Güllərin 55
Payızda göyərən otlar 55
Qışda bahar həsrəti 56
Gecikən bahara 56
Dənizin səsi gəlir 57
"Mən sizi..." 58
"Dağlar belə yüksəklərdə..." 58
Quş səsləri 58
Yer kürəsi 59
Şeir və həyat 60
Toy 61
Yata bilmirəm 62

ODLU-ALOVLU GÜNLƏR

Get, sevgilim, uğur olsun! 65
Vətən qızları 66
Qəhrəmanın ölümü 68
Dənizdə bir qız çimirdi 70
Eşq olsun 72
Xərabədə bitən çiçək 72
Uzaqda 73
Düşmən güllə yağdırırdı işığa 75

SƏYAHƏT ŞEİRLƏRİ

Sərkərdə və qırmızıpapaq qız haqqında ballada 76
Qürbətdə axşam 78
Rahibə 79
İt də darıxır 81
Hollandiya çiçəkləri 82
Afrodita 84
Mən öz gözümlə gördüm 84
Qoca qız – həris qarı 86

Bosfor sahillərində ... 87
İstanbul duman içində ... 88
Azadlıq bayrağı ... 88

ELLƏR, İLLƏR

Cəmilə ... 92
Ayrılıq ... 94
Səkkiz on beş ... 95
Bəşər oğlu ... 98
İma Sumak ... 100
Dolores İbarruri ... 102
Natəvan klubunda ədəbi gecə ... 104
Amerika töhfələri ... 106

ANA MƏHƏBBƏTİ

Vətən duyğuları ... 108
Xəzər neftçisinə ... 109
Yazı stolum ... 110
Aktrisa ... 111
Ağac kölgəsində ... 114
Mən səni sevirəm, insan! ... 115
Yol ... 117
İstirahət evində gecə ... 118
Bahar lövhəsi ... 119
Sevgilim görüş istəyir ... 120
Alın təri ... 122
Bahar gəlir ... 123
Rəqəmlər ... 125
Mayak ... 126
Yasda ... 127
Əmək sevinci ... 128
Bahar nəğməsi ... 132
Neyləyim ... 132
Dağları duman alanda ... 133
Nəğmə ... 133
Sev ... 134
Şəfqət bacısı ... 135
Qızıma ... 136
Məni dəniz gözləyir ... 137
"Dostumla baş-başayam..." ... 138
İnsan kamil olsun gərək ... 139
"Təbib ziyan yazdı mənə dünyanı..." ... 140
Çiçəklər ... 140

Ürək ... 141
"Ürəyim torpaq kimidir..." ... 141
Süni ürək ... 142
Şəkidə Xan Sarayı ... 143
Tərtər ... 144
Su dastanı ... 145
Çal ... 146
Anara ... 146
Bülbül ... 147
Lalə ... 148
Kürd qızı ... 148
Soyuq bulaq ... 149
Qələm ... 149
Oyan ... 150
Gəlir ... 150
Gəlmədi ... 151
Çağa ... 151
İnsan gülüşü ... 152
Günəşdən qorxma ... 153
Nərgiz gülü ... 153
Ağ çiçəklər ... 154
Gözəllik ... 154
Həkim ... 155
Lirik miniatürlər ... 156
Qəzəllər ... 161
"Könlün yenə min dərdinə bir çarə tapılmaz..." ... 161
"Unudulmuş da, atılmış gülü sevda kimiyəm..." ... 162
"Başından tufanlar keçən bir dağa..." ... 162
Gəldim ki... ... 163
"Yuxunu qaçıram mənəmsə əgər..." ... 164
Yandım, yandım ... 164
Bir gün səni görməyəndə ... 165
"Nə gözəldir son baharım..." ... 165
Doymadım ... 166
Dözə bilmirəm ... 167
Ana məhəbbəti ... 168
Anaların səsi ... 169
Şair taleyi ... 170
"Sönüb gedən qadın gözəlliyini..." ... 171
"Mən sənin torpağından..." ... 171
"Yol üstündə bitən körpə çinarlar..." ... 172
Yasəmən ... 173
"Məni hər görəndə..." ... 173

"Demirəm, dünyadan köçüb gedəndə..." ... 174
Salamlar ... 174
İstəsəm... ... 175
Tahir və Şahnabat dastanı ... 176
Şanlı yol ... 177
"Hər gün yeni bir zəfərlə..." ... 178
Rəvayət ... 178
Əqrəb və qurbağa ... 179
"Mən sükut istəmirəm..." ... 180
Layla ... 181
Anama ... 182
Çadra ... 182
Göyərçin qızın dastanı ... 182
Dağ yolları ... 184
Karvan bulud ... 185
Qanun ... 186
"Açılmamış bir kitabdır hər insan ömrü..." ... 188
Sənin əllərin ... 188
Oğlumdan ayrılan gecə ... 189
Sabirə ... 190
Füzuli ... 192
Nizamiyə ... 193
Dənizdə batan günəş ... 194
Buludlar ... 195
Dəniz ... 196
Ana səsi ... 197
Ananın sevinci ... 199
Daş-qaşlar ... 199

BALALAR ÜÇÜN

Lalə ... 201
Bir cüt xurma ağacı ... 201
Xaçbulaqdan ... 202
Daşkəsən ... 203
Qızlar quşu ... 203
Qara tüklü qu quşu ... 203
Boy çiçəyi ... 204
Sitarə ... 204
Fərid ... 205
Kəklikotu ... 205
Sevinc və Gülşən ... 206
Güllər ... 207
Şadlıq nəğməsi ... 207

Düşərgə nəğməsi ... 208
Məstanın balaları ... 208
Günəşin cavabı ... 212

SON İLƏRİN ŞEİRLƏRİ

Məhəbbətim bölünmədi... ... 215
Bir-birinin ətəyindən tutub ... 217
Kim gözəldir görəsən ... 218
Mənim şair qardaşım ... 219
Musa ... 220
Şair Hüseyn Arifə ... 223
Sənin ... 223
"Kaş ki, bu dünyanın kədəri, yası..." ... 224
"Nə yaxşı dünyada vardır etibar..." ... 224
Rəfiqəm mənim ... 225
Müşkünaz xanımın əziz xatirəsinə ... 228
Saatlar ... 228
"Yenə axşam düşdü, hava qaraldı..." ... 229
Bir yaralı əsgər yatır ... 230
Füzuli ilə gecə söhbəti ... 230
Sevirəm, sevirəm ... 236
İşıqlı şeirlər ... 237
"Çinar kimi əzəmətlim..." ... 238
"İnsan məhəbbəti gözlərdən içər..." ... 238
"Çiçəklərim xəzan olur..." ... 239
"Ömrümdən bir mavi gözlü gəlib keçdi..." ... 239
"Könlümdə sönməyən bir işıq yanır..." ... 240
"Dostluğun nazik telləri..." ... 240
Şair arzusu, ana istəyi ... 241
Bir kəlmə söz ... 243
Məhsəti (*dramatik poemadan bir parça*) ... 244

SEÇMƏ TƏRCÜMƏLƏR

Məhsəti Gəncəvi. Rübailər ... 254
Nizami Gəncəvi. Qəzəllər ... 257
Nəvai. Qəzəllər ... 258
Dante Aligyeri. "Qafiyələr kitabı"ndan ... 260
A.S.Puşkin
Dayəmə ... 262
Gül ... 263
Pəncərə ... 263
Gözələ ... 264
Ev perisi ... 266

Qış səhəri ... 266
M.Y.Lermontov. İki əsir qız ... 267
Adam Mitskeviç. Tərs arvad ... 269
Şandor Patefi. Oğluma ... 270
Şelli. Məhəbbət fəlsəfəsi ... 272
Roberts Berns. Qış keçdi ... 272
Kosta Xetaqurov. Etiraf ... 273
Akaki Sereteli
Xəncər ... 273
Xəstə şair ... 274
Qriqol Abaşidze. Vətən ... 275
Yaroslav Smelyakov ... 276
Vitezslav Nezval. Ümid ana heç zaman gəzintiyə çıxmayır ... 277
Küçə zibil qabları ... 278
Nəğmə ... 279
Çətin həyat yaxşıdır ... 280
Yaroslav Seyfert. Beşik nəğməsi ... 280
Qabriela Mistral
Ayaqlar ... 282
Əllər ... 283
Anna Axmatova ... 284
Marina Svetayeva ... 285
Marqarita Aliger. Uşaqları qoruyun, analar ... 285
Lüdmila Tatyaniçeva. Aşırımda ... 288
Blaqa Dmitrova. Qadın olmaq ... 289
Amrita Pritam
Şeir yazıram ... 290
Ümid ... 291

MƏQALƏLƏR, XATİRƏLƏR, YOL QEYDLƏRİ

Yadımda qalanlar ... 292
Gündəlikdən səhifələr ... 298
Səadət sarayında ... 304
İşıqlı həyat həsrətində ... 308
Müşfiqi düşünərkən ... 315
İran Azərbaycanının müasir şairlərindən Hökumə Billuri ... 318
Övlad – ümiddir ... 320
Qayınanalar da gəlin olur ... 323
Sağlıqla qal, yaxın qonşu! ... 327
Qızıl lalə ... 379
Yeni il gecəsində ... 380

NİGAR RƏFİBƏYLİ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"

BAKI–2004